Xalqın qəzeti!

# Xalq qəzeti

№ 73 (30477) 9 aprel 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Türkiyə Azərbaycanın D–8-ə üzvlük müraciətini dəstəkləyir




Səhifə ⇨ 6

# Artıq Ramazan da suverenliyimizin təsdiqi bayramıdır

## Prezident İlham Əliyevin xalqa təbriki



**Hörmətli həmvətənlər!**

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi çatdırıram.

Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əmin-amanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu bu ayda müsəlmanlar Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi-əxlaqi zənginliyin fərəhini yaşamaq fürsəti qazanırlar.

Xalqımız taleyinin ən çətin dönəmlərində belə, öz tarixi köklərini, milli-mədəni dəyərlərini, adət-ənənələrini qoruyub saxlamışdır. İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanda dini bayram və mərasimlər hər il qeyd olunur və müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi təcəssüm etdirir. Builki Ramazan bayramı həm də otuz illik düşmən tapdağından azad edilmiş dədə-baba yurdlarımızda, Azərbaycanın bütün suveren ərazisində keçirilməsi ilə əlamətdardır.

**Əziz bacı və qardaşlarım!**

Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq hissləri ilə yola salırlar. Ölkəmizin hər yerində xalqımıza xas xeyriyyəçilik və yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi minnətdarlıqla yad edilir. Ümidvaram ki, dua və niyyətləriniz Tanrı dərgahında qəbul olunacaq, bu mübarək bayram xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilərək cəmiyyətimizdə birliyi və həmrəyliyi daha da gücləndirəcəkdir.

**Allah orucunuzu qəbul etsin.**
**Ramazan bayramınız mübarək olsun!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2024-cü il**

# Brüssel "tamaşa"sının pərdəsi qalxır

**Aprelin 5-də Brüsseldə Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinken arasında keçirilən görüşə Hayastanda çox böyük ümidlər bəslənilirdi. Xüsusilə, hakim "Mülki müqavilə" partiyasının rəhbər heyətinə daxil olan şəxslər, partiyanın deputatları, hakim komandanın üzvləri görüşü Ermənistan–Qərb münasibətlərinin tarixində presedenti olmayan görüş kimi təqdim etməyə çalışırdılar. Onların fikirlərini oxuduqda belə qənaət yaranırdı ki, sanki həmin günün ertəsi Ermənistanın illərlə yığılıb qalmış problemləri həllini tapacaq. Sanki Hayastan bir gün ərzində azad, abad ölkəyə çevriləcək, hər tərəf güllük-gülüstan olacaq.**



Məsələn, görüşdən bir neçə gün öncə – martın 29-da Paşinyana yaxınlığı ilə seçilən "Armenian Report" saytında yerləşdirilmiş "Ermənistan aprelin 5-də Rusiyadan azad olacaq" sərlövhəli məqalədə deyilirdi: "Görüş tarixi yaxınlaşdıqca, Moskva bir qədər də əsəbiləşir. Bu, başadüşüləndir – onlar anlayırlar ki, aprelin 5-i "Rubikonu keçmək"dir. Onu keçdikdən sonra Ermənistan Rusiya üçün həmişəlik itirilmiş olacaq. Qeyd edək ki, Rubikon Apennin yarımadasında çox da böyük olmayan çaydır. Eramızdan əvvəl 49-cu il yanvarın 10-da Qalliyanın prokonsulu Yuli Sezar güclü tərəddüddən sonra qoşununa Rubikonu keçərək İtaliyaya müdaxilə etmək əmrini verib. O vaxtan bəri "Rubikonu keçmək" frazeoloji ifadəsi bir işin görülməsi, geriyə yol olmadığı, plandan imtina etməyin mümkünsüzlüyü mənasında işlədilir.

*(ardı 4-cü səhifədə)*

## Kim güclüdürsə, o da haqlıdır?

Səhifə ⇨ 3

# Atəşkəs niyə pozulur?

## Ermənistan hakimiyyətinin məqsədləri



**Son günlər Azərbaycan–Ermənistan şərti sərhədində atəş səsləri daha müntəzəm şəkildə eşidilməkdədir. Sakitliklə bağlı 44 günlük müharibədən sonra qeydə alınmış müsbət tendensiyanın artıq sıradan çıxdığının şahidiyik. Məsələn, ötən həftə ölkəmizin Müdafiə Nazirliyinin yaydığı məlumatda qısa zaman aralığında atəşkəs rejiminin ümumilikdə 30 dəfədən çox pozulduğu açıqlanıb. Buna görə də vəziyyətə xüsusi diqqət yetirmək zərurəti yaranır.**

Atəşkəsin pozulması kimə və nə üçün lazımdır? Əslində, sual ritorikdir. Çünki vəziyyətin gərginləşməsində maraqlı tərəfin Ermənistan olduğu aydındır. Bunu sübuta yetirmək üçün son günlərin eskalasiya ab-havasının konkret olaraq nə vaxtdan yarandığına nəzər salaq. İstər-istəməz yada aprelin 5-də Brüsseldə keçirilmiş ABŞ–Avropa İttifaqı– Ermənistan görüşü düşür. Bəli, atəşkəs ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinken, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen və Ermənistan baş naziri Nikol Paşinyanın Belçikanın paytaxtında reallaşmış təmasından əvvəl pozulmağa başlamışdı və eyni durum yenə müşahidə edilməkdədir.

Diqqət yetirək, rəsmi İrəvan, onun ölkədəki tərəfdarları və xaricdəki havadarları üçtərəfli görüşü Ermənistanın qarşısında açılmış yeni səhifə kimi dəyərləndirirlər. Artıq Paşinyan və komandasının üzvləri Azərbaycanla sülh gündəliyindən tam kənar dayanıb, sırf Brüssel görüşünün nəticələri üzərinə fokuslanırlar. Onlar elə görüntü yaradırlar ki, sanki bu görüş və onun nəticəsində əldə edilmiş razılaşma ölkə üçün tamamilə yeni üfüqlər açacaq.

Bir sözlə, rəsmi İrəvan Ermənistana, belə demək mümkünsə, süni "hörmət qazandırmaqla" məşğuldur. Zamanla ermənilər özlərini yüksək tutub, azərbaycanlılara qarşı saymazyana münasibət göstəriblər. 44 günlük müharibə bu baxışa kökündən zərbə vurub. Hazırda Brüssel raundu məhz həmin düşüncəni yenidən dirildib – desək, yanılmarıq. Hər halda, görünən mənzərə bunu deməyə əsas verir.

Birincisi, bu mənzərədə konkret məqsədlər var. Dahi Volter deyirdi ki, əgər Allah olmasa belə, onu uydurmağa ehtiyac yaranacaqdı. İndi baş nazir Nikol Paşinyanın idarəçilik tərzinə nəzər salaraq deyə bilərik ki, gərginlik olmasaydı da rəsmi İrəvan onu mütləq formalaşdırmağa çalışacaqdı. Əslində, demək olmaz ki, Nikolda ölkəni çətin durumlarda idarə etmək immuniteti formalaşıb. Sadəcə olaraq, o, sabitlik şəraitində nə edəcəyini düşünə bilməyəcək qədər aciz və səriştəsizdir. Gərginlik həm də diqqəti səriştəsizliyin fəsadlarından yayındırmaq üçündür.

Nəzərə alaq ki, Paşinyan hakimiyyətdə olduğu illərdə Ermənistana, böyük ölçüdə, yalnız bəlalar gətirib. İqtisadi artımla bağlı müəyyən göstəricilərə gəldikdə, bunu Nikol iqtidarının uğuru kimi qiymətləndirmək mümkünsüzdür. Axı, Ermənistanın inkişaf tempi ilə bağlı nağıllar bu deyimi xatırladır - it araba kölgəsində yatır, elə bilir öz kölgəsidir. Halbuki inkişafda başlıca rol ona məxsusdur. Ancaq...

İkincisi, Azərbaycanla gərginlik, Paşinyana, eyni zamanda, Ermənistanın məzlum obrazını canlandırmaq üçün lazımdır. Bir halda ki, Brüssel görüşü ölkənin Qərbin patronajlığına tam təhvil verilməsidir, bu məntiq əsaslandırılmalıdır. Təxminən belə: mütərəqqi Qərb ağır durumda olan Ermənistanı qoruyur, imkan vermir ki, ölkə böyük faciələrlə üzləşsin və sair.

Üçüncüsü, Azərbaycan–Ermənistan şərti sərhədində atəşkəs həm də bilavasitə Brüssel görüşündə əldə edilmiş razılıqların icrasını tez bir zamanda gerçəkləşdirmək üçün lazımdır. Yəni, erməni iqtidarı və onun xaricdəki havadarları prosesin sürətləndirilməsini istəyirlər. Buna görə də "çətin durumla üzləşən", "təcavüzə uğramaq" potensialı olan Ermənistan obrazını formalaşdırırlar.

Dördüncüsü, məlumdur ki, Brüssel görüşü nəticə etibarilə Ermənistana maliyyə dəstəyi formuluna hesablanmışdı. Əlbəttə, ayrılan pulun hansı istiqamətə yönəldilməsi maraqlıdır. Bu baxımdan rəsmi qaydada açıqlanmış istiqamətlər keçərli olmaya bilər. Yəni, Paşinyanın ayrılmış pulu silahlanmağa xərcləməsi də mümkündür. Ona lazımdır ki, Qərb Ermənistana bilavasitə Ukraynaya yanaşdığı tərzdə yanaşsın. Rəsmi İrəvan üçün atəş səslərinin doğurduğu və doğuracağı gərginlik mənzərəsi bu baxımdan da zəruridir.

Beşincisi, Ermənistan şərti sərhəddə gərginlik formalaşdırmaqla, duruma görə Azərbaycanı müqəssir çıxarmaq xəttini əsas götürür. Məqsədi odur ki, ölkəmizin adekvat tədbirləri sərt olsun. Nəyə görə? Çünki Paşinyan və komandası Azərbaycanın Qərb üçün hansı önəm daşıdığını yaxşı anlayırlar. Bu səbəbdən Azərbaycanı dünya ictimaiyyətinin gözündə təcavüzkar kimi göstərmək xətti yeridirlər. Belə yanaşma isə təxribatdan başqa bir şey deyil.

**(ardı 3-cü səhifədə)**

## 24 ermənipərəstin "nağılı"

Səhifə ⇨ 4



## Bakı-Tbilisi-Qars dəmir yolunda tranzit gömrük prosedurları asanlaşdırılır

Səhifə ⇨ 7



## Türk mədəni-ictimai birliyinin yorulmaz carçısı

Səhifə ⇨ 10



## Ekvadorun basqısı "diplomatik burulğan" yaradıb

Səhifə ⇨ 11



# Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 297 (Cild I) ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.7.4-cü yarımbənddə “ali təhsil tələb olunmayan” sözləri “informasiya texnologiyaları sahəsində” sözləri ilə əvəz edilsin.

2. 1.7.6-cı yarımbəndə “baş” sözündən əvvəl “ali və” sözləri əlavə edilsin.

3. 3.3.5-ci yarımbənddən “(bu Əsasnamənin 1.7.4-cü yarımbəndində göstərilən şəxslər istisna olmaqla)” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Qətər Dövlətinin adından və şəxsən öz adımdan səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Zati-alinizə möhkəm cansağlığı, firavanlıq, ölkənizə və qardaş xalqınıza daha çox rifah və inkişaf, eləcə də ölkələrimiz arasında ikitərəfli əlaqələrin davamlı inkişafını diləyirəm.

**Dərin hörmətlə,**

***Şeyx Təmim bin Həməd Al TANİ,***
***Qətər Dövlətinin Əmiri***

***

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunam.

Zati-alinizə firavanlıq və xoşbəxtlik, qardaş ölkənizə isə davamlı sülh və sabitlik arzulayıram.

**Dərin hörmətlə,**

***Şeyx Abdullah bin Həməd Al TANİ,***
***Qətər Dövləti Əmirinin müavini***

# Bir sıra məhkəmələrin sədrlərinin, məhkəmə kollegiyaları sədrlərinin və birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

**apellyasiya instansiyası məhkəmələri üzrə:**

1.1. Toğrul Məhəmməd oğlu Əli Gəncə Apellyasiya Məhkəməsinin sədri təyin edilsin;

1.2. Yusifəli Süleyman oğlu Qurbanov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

1.3. Səxavət Şahhüseyn oğlu Bəylərli Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

1.4. Əli Kərim oğlu Allahverdiyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

1.5. Mirzə Nəsib oğlu Tağızadə Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

1.6. Məhəmmədəli Əsəd oğlu Rzayev Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

1.7. Ayaz Akif oğlu Mahmudov Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

**ağır cinayətlər məhkəmələri üzrə:**

1.8. Natiq Mürsəl oğlu Əliyev Gəncə Ağır Cinayətlər Məhkəməsinin sədri təyin edilsin;

**inzibati məhkəmələr üzrə:**

1.9. Rüstəm Lətif oğlu Kərimli Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Şəki İnzibati Məhkəməsinin hakimi və sədri təyin edilsin;

kommersiya məhkəmələri üzrə:

1.10. İslam Əli oğlu Əliyev Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Kommersiya Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**hərbi məhkəmələr üzrə:**

1.11. Polad Vəli oğlu Həsənov Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin sədri təyin edilsin;

1.12. Zeynal Qurban oğlu Ağayev Bakı Hərbi Məhkəməsinin sədri təyin edilsin;

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

1.13. Mehrab Fərmayıl oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Culfa Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.14. Zülfüqar Əziz oğlu Əhmədov Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.15. Gülnar Xanlar qızı Səfərəliyeva Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər Məhkəməsinin sədri təyin edilsin;

1.16. Hüseyn Nadir oğlu Zülfüqarov Naxçıvan Muxtar Respublikası Sədərək Rayon Məhkəməsinin sədri təyin edilsin;

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

1.17. Anar Vəzir oğlu Tanrıverdiyev Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.18. Lətifə Məhyəddin qızı Məmmədova Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

.1.19. Məhəmməd Ənvər oğlu Bağırov Ağdaş Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.20. Rəfayil Əfraddin oğlu Əliyev Biləsuvar Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.21. Kənan Hafiz oğlu Vəliyev Gəncə Kommersiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Daşkəsən Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.22. Rəşad Mustafa oğlu Mustafayev Şəmkir Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Göygöl Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.23. Günel Bəkir qızı Əkbərli Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Hacıqabul Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.24. İlkin Qismət oğlu Abdullayev Xankəndi Şəhər Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.25. Zaur Rafiq oğlu Pirverdiyev Bakı Kommersiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək İmişli Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.26. Abbas Baba oğlu Əliyev Qəbələ Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.27. İxtiyar Əliyar oğlu Abuşov Saatlı Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.28. Ayaz Süleyman oğlu Məmmədov Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Şabran Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.29. Zaur Mirzağa oğlu Allahyarov Şəmkir Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.30. Rəşad Azad oğlu Məmmədov Lənkəran Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Yardımlı Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.31. Ədil İsa oğlu Məmmədov Gəncə Şəhər Məhkəməsinin hakimi təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2024-cü il**

# R.Ə.Məmmədovun Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramin Ələmşah oğlu Məmmədov Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2024-cü il**

# Hikmət Hacıyev Ukraynanın Azərbaycandakı səfiri ilə görüşüb

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ukraynanın bu ölkədəki səfiri Vladislav Kanevski ilə görüşüb.**



Bu barədə səfir "X"də paylaşım edib.

"Prezidentin köməkçisi Hikmət Hacıyevlə işgüzar görüşlər təkcə ikitərəfli gündəliyin aktual məsələlərini müzakirə etmək və həll etmək imkanı deyil, həm də Ukrayna-Azərbaycan strateji tərəfdaşlığı konkret addımlar və iddialı layihələrlə gücləndirmək üçün səmimi qarşılıqlı istəkdir", – Ukrayna səfiri bildirib.

**XQ**

# Şirvan suvarma kanalının yenidən qurulması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Son dövrdə qlobal iqlim dəyişmələri və ölkədə suya tələbatın artması şəraitində su ehtiyatlarından səmərəli istifadə sahəsində davamlı tədbirlər görülmüş, xüsusilə su nəqledici kanalların suvarma qabiliyyətinin artırılması, su anbarlarının istismar şəraitinin yaxşılaşdırılması, bir sıra ərazilərdə torpaqların yeni meliorativ sistemlərlə təchiz edilməsi, qənaətcil və mütərəqqi suvarma üsullarından istifadə dəstəklənmişdir.

Uzun illər ərzində bu istiqamətdə görülən işlər, o cümlədən iri su anbarlarının, hidroqovşaqların, suvarma və kollektor-drenaj sistemlərinin, nasos stansiyalarının və digər infrastrukturların qurulub istifadəyə verilməsi ölkədə su təminatının yaxşılaşdırılmasına, su itkilərinin qarşısının alınmasına, habelə aqrar sektorun dayanıqlı inkişafına mühüm töhfə vermişdir.

Ölkənin ikinci ən böyük kanalı olan torpaq məcralı Yuxarı Şirvan suvarma kanalı Şirvan düzündə yerləşən 8 rayonun 112 min hektardan artıq əkin sahəsini suvarma suyu ilə və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir. Fasiləsiz istismar olunduğu 65 ildən çox müddət ərzində sözügedən kanalın cari və əsaslı təmirinə baxmayaraq, onun torpaq məcrasında baş verən dəyişikliklər, eləcə də qurğuların öz funksiyasını itirməsi su itkisinin artmasına səbəb olmuşdur. Bununla əlaqədar kanalın yenidən qurulması üçün texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədləri hazırlanmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Yuxarı Şirvan suvarma kanalının infrastrukturunun bərpası, habelə mövcud təsərrüfatların su təminatı məsələlərinin vaxtında və effektiv şəkildə həllinin dəstəklənməsi, su ehtiyatlarından daha səmərəli istifadə olunması, magistral kanalın suburaxma qabiliyyətinin artırılması məqsədilə **qərara alıram:**

**1.** Yuxarı Şirvan suvarma kanalı yenidən qurulsun və Şirvan suvarma kanalı adlandırılsın.

**2.** Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Şirvan suvarma kanalının yenidən qurulması ilə bağlı müvafiq tədbirlər görülməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Yevlax Şəhər İcra Hakimiyyəti, Ağdaş, Göyçay, İsmayıllı, Kürdəmir, Ağsu, Şamaxı və Hacıqabul rayon icra hakimiyyətləri, həmçinin digər aidiyyəti dövlət orqanları (qurumları) Şirvan suvarma kanalının yenidən qurulmasından irəli gələn məsələlərin həlli ilə bağlı zəruri tədbirlər görsünlər.

**4.** “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya bu Sərəncamın 2-ci və 3-cü hissələrində nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi məsələlərini həll etsin.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən suvarma kanalının yenidən qurulmasının cari ildə və növbəti illərdə maliyyələşdirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər görsünlər.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2024-cü il**

# Aİ və ABŞ regionda vəziyyəti gərginləşdirir



**Məlum olduğu kimi, aprelin 5-də Brüsseldə keçirilmiş görüşdə Avropa İttifaqı və ABŞ tərəfindən Ermənistana yardım göstərilməsi barədə qərarlar verilib. Mətbuata verilmiş məlumatda ancaq maliyyə yardımı ediləcəyi bildirilsə də, əsl planların Ermənistanın silahlandırılmasından ibarət olması heç kimdə şübhə doğurmur.**

Bu fikirlər Qərbi Azərbaycan İcmasının məsələ ilə bağlı bəyanatında yer alıb.

Bildirilib ki, bu gün Natali Luazo başda olmaqla, Avropa Parlamentinin (AP) bir qrup azərbaycanofob deputatı ABŞ-ın Dövlət katibi Antoni Blinkenə və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenə müraciət ünvanlayaraq onları sözügedən görüşün davamı olaraq Ermənistanın “təhlükəsizliyi"nə yardım etməyə çağırıblar. Bütün bunlar Ermənistana açıq hərbi dəstək göstərmək üçün ictimai fon yaratmağa xidmət edir. Bu, bir daha sübut edir ki, 5 aprel görüşü məhz Ermənistanın hərbiləşdirilməsi məqsədi daşıyıb.

Qərbi Azərbaycan İcması Avropa Parlamenti üzvlərinin qərəzli müraciətini rədd edir, bir daha Aİ-ni və ABŞ-ı regionda vəziyyəti gərginləşdirən addımlar atmamağa və Ermənistana hərbi dəstək göstərməməyə çağırır.

**XQ**

# Komanda-qərargah təlimi

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun 2024-cü il üçün təsdiq etdiyi hazırlıq planına əsasən, Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində “N” hərbi hissəsinin kompüter dəstəkli komanda-qərargah təlimi keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, plana uyğun olaraq xəritə üzərində icra ediləcək tapşırıqlar dəqiqləşdirildikdən sonra bölmələrin qarşılıqlı fəaliyyəti və qərargahların vahid idarəetmə orqanı kimi uzlaşması yoxlanılıb, eləcə də qəbul edilən qərarlara dair komandir heyətinin məruzələri dinlənilib.

Müasir və yüksək texnologiyalı kompüter proqramlarının tətbiqi ilə bölmələrin müxtəlif döyüşə hazırolma vəziyyətlərinə gətirilməsi zamanı komandirlərin idarəetmə qabiliyyətini və çevik qərar qəbuletmə bacarıqlarını artırmaq, eləcə də qərargahların fəaliyyətini və bölmələr arasında qarşılıqlı əlaqəni daha da təkmilləşdirmək



məqsədilə keçirilən təlimdə qarşıya qoyulmuş tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

**XQ**

# İrəvan Bakının təkliflərinə cavab göndərib

**İrəvan sülh müqaviləsi ilə bağlı Bakının təkliflərinə cavab göndərib.**

Bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin səlahiyyətli nümayəndəsi məlumat verib.

Onun sözlərinə görə, söhbət sülh müqaviləsi layihəsi ilə bağlı təkliflərin 8-ci redaksiyasından gedir.

Xatırladaq ki, Ermənistan bundan əvvəl 2024-cü il yanvarın 4-də sülh müqaviləsinin mətninin öz versiyasını Azərbaycana göndərmişdi. Fevralda Ermənistan Azərbaycandan sülh müqaviləsi ilə bağlı əlavə təkliflər alıb. Sülh müqaviləsinin mətni üzərində iş birbaşa Bakı ilə İrəvan arasında aparılır.

**XQ**

# Kim güclüdürsə, o da haqlıdır?

## Təkqütblülükdən çoxqütblülüyə keçid dövründə Türk dünyasının yeni güc mərkəzinə çevrilməsi reallıqdır

**Bu gün qloballaşan dünya, eyni zamanda, qlobal problemlərlə üz-üzə qalıb. Güclünün haqlı olduğu müasir dünya düzənində dəyərlərin və maraqların yenidən təmərküzləşməsi prosesi gedir. Bu proses forma və məzmun baxımından "soyuq müharibə" dövrünün, təkqütblü hökmranlıq uğrunda "böyük güclər" arasında mübarizənin getdiyi əvvəlki mərhələdən kəskin şəkildə fərqlənir. Əvvəllər qarşı duran tərəflər qismən də olsa, beynəlxalq hüquqa, diplomatik etiketə riayət edirdilərsə, indi yeni "güclər" bunlara məhəl qoymur, məqsədlərinə yalnız zor tətbiq etməklə çatmaq yolunu tuturlar.**



İkinci dünya müharibəsindən sonra dünyanın xəritəsində iki fərqli iqtisadi və siyasi zəmin formalaşdı. Bu, həm də beynəlxalq münasibətlərin yeni üstqurumunun təməli sayılırdı. Dünya ikiqütblü sistemin "meydan suladığı" həmin dövr ərzində ABŞ–SSRİ qarşıdurmasına fərqli platformlarda şahidlik elədi. "Soyuq müharibə" adlandırılan o dövrün özünəməxsus xüsusiyyəti ondan ibarət idi ki, beynəlxalq səhnədə bu iki gücdən savayı dünya düzənini dəyişdirmək qüdrətinə sahib üçüncü aktor mövcud deyildi.

### Dünyanın "ən demokratik" jandarmı

Yapon əsilli amerikalı filosof Frensis Fukuyama 1992-ci ildə qələmə aldığı "Tarixin sonu və sonuncu insan" əsərində liberal demokratiyanın bütün dünyada yayılmasının bəşəriyyətin sosial-mədəni təkamülünün axırı olacağını və güclərin hakimiyyətinin son formasına çevriləcəyini elan etmişdi. O vaxtdan çox sular axsa da, "qırmızı



imperiyanın" süqutu və başqa önəmli hadisələr baş versə də, Fukuyamanın irəli sürdüyü "tarixin sonu" konsepsiyası öz qüvvəsində qalır. Nə qədər acı qənaət olsa belə, indi bu siyasi–fəlsəfi düstur, yəni üstün iqtisadi və siyasi sistemin dünyanın qurtuluşu olacağı fikri ön plana çıxıb.

Hazırda müşahidə etdiyimiz qlobal geosiyasi konyuktura elədir ki, uzun əsrlərdən bəri ilk dəfədir aşkar güc amili dünya hegemonluğu vakuumunu doldurmağa qadir deyil. Nə ayrıca götürülmüş bir dövlət, nə də dövlətlər ittifaqı qlobal liderlik bir tərəfə, onu əldə etməkdən ötrü qoyacağı "sərmayənin" faydasını görə bilmir. Bu xüsusda postsovet məkanında yaranmış yeni dövlətlər güvənc yeri kimi baxdıqları, demokratiyanın və qloballaşmanın bayraqdarı hesab etdikləri ABŞ-ı indi daha çox dünyanın "ən demokratik" jandarmı qismində görürlər. ABŞ ona olan ümidləri doğrultmaması bir yana qalsın, əksinə, planetin müxtəlif guşələrində yeni təhdidlərə başladı. Bunun nəticəsində bir tərəfdən radikal fundamentalizmin körüklənməsi, lokal xarakterli asimmetrik hərbi münaqişələrin çoxalması, digər tərəfdən Rusiya, Çin, Hindistan, Türkiyə, İran kimi dövlətlərin ön plana çıxması, Şanxay Əməkdaşlıq Təşkilatının, BRICS-in yaranması, NATO-nun genişlənmə və yenidənqurma "fəaliyyətinə" keçməsi, Avrasiya məkanında yeni ittifaqların formalaşması beynəlxalq sistemdə fərqli baxışlara zəmin hazırladı.

### Mövsümi xarakterli lokal birliklər

Bu tendensiyanın geniş yayılmasının əsas səbəblərindən biri hazırda çeşidli dəyişikliyə uğrayan dünya güclərinin statusu, mövqeyi, eləcə də proseslərə təsir dairələrinin məhdudlaşmasıdır. Digər bir səbəb isə dünyanın parçalanması fonunda hər bir dövlətin siyasi arealına və milli maraqlarına yaxın tərəfdaşları ilə ittifaq yaratmaq cəhdidir. Buna misal olaraq, NATO-ya üzvlük fonunda birlik nümayiş etdirən Finlandiya və İsveçi göstərmək olar. Şimali Atlantika alyansına üzvlük yolunda Türkiyə səddini güc–bəla ilə aşan İsveç bu qurumda söz sahibinin kim olduğunu dərk etdi.

2021-ci il sentyabrın 15-də yaranan ABŞ və Böyük Britaniyanın Avstraliya ilə təhlükəsizlik məsələləri üzrə yeni əməkdaşlıq formatı da belə birliklərin sırasına daxildir. Bu üç dövlətin "AUKUS" çərçivəsində atom sualtı gəmi texnologiyasını birgə inkişaf etdirmək qərarından sonra Sakit okeanda güc balansı artıq yeni müstəvidə formalaşmağa başladı. Son illər ABŞ və Çin arasında yaşanan gərginlik dünya iqtisadiyyatının parçalanmasına və bu ənənənin "dost ölkələrə" tərəf yönəldilməsinə gətirib çıxarıb. Rəsmi Vaşinqton, London və Kanberra yeni razılaşma ilə bağlı bəyanatlarında Çinin adını çəkməsələr də, "artan regional təhlükəsizliklə bağlı narahatlığı" yekdilliklə vurğuladılar. Bu isə üçtərəfli razılaşmanın, istər-istəməz, Çinin bölgədəki hərbi gücünü tarazlaşdırmağı hədəfləyən hərbi pakt olduğu qənaətinə gəlməyə əsas verir.

İndi Yer uğrunda siyasi qarşıdurmadan əl çəkib, iqtisadi və hərbi yarışa, hətta Ay uğrunda mübarizəyə girişən ABŞ və Çin kimi "mehriban düşmənlərin" arasında son vaxtlar intensivləşən dialoqun kimə qarşı yönələ biləcəyini güman etmək çətin deyil. Bütün bunlar iqtisadi proseslərə də mənfi təsir göstərməklə yanaşı, regional, hətta, beynəlxalq böhranlara qapı açır.

Lokal və mövsümi birliklərin sonuncusu kimi, ABŞ–Aİ–Ermənistan "üçlüy"ünü göstərmək daha doğru olar. İlkin olaraq "Brüssel formatı", yaxud "Brüssel konfransı" adlandırılan və yalnız maliyyə–iqtisadi sövdələşmə kimi qələmə verilsə də, əsl məqsədin Ermənistanı "bölgənin qüdrətli və güclü" dövlətinə çevirmək deyil, kollektiv Qərbin Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxartmaq olduğu gün kimi aydındır.

### Səlibçilərin bütün cəhdləri puç olacaq

Hər şeydən göründüyü və əvvəllər olduğu kimi, bu dəfə də böyük geosiyasi oyunların strateji məkanı Avrasiya regionudur. Bu coğrafiyada istər regional, istərsə də qlobal miqyaslı proseslərin daimi iştirakçısına çevrilən yeni güc mərkəzinin yaranmasının şahidiyik. Yeni güc mərkəzi Türkiyə–Azərbaycan–Pakistan kimi güclü regional dövlətlərin ortaq dəyərlərin və güclü müttəfiqlik meyilləri nəticəsində ortaya çıxıb. Avrasiyada güc tarazlığını əldə etmək, bölgə ölkələri və xalqlarının taleyində əhəmiyyətli rol oynamaq baxımından bu alyans indiki mərhələdə perspektivə hesablanmış ən uğurlu addımlardan biri sayıla bilər. Bu uğurun zəmini kimi Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi Zəfəri göstərilməlidir. Üç il beş ay bundan əvvəlki nəticə bölgədə güc balansını kökündən dəyişdirdi. O vaxta qədər Cənubi Qafqazda təsir gücü məhdud olan Türkiyə rəsmi Bakının yaratdığı yeni reallıq kontekstində danılmaz təsir gücünə malik önəmli aktora çevrildi. Bununla paralel olaraq, Türkiyə–Azərbaycan–Pakistan arasında güclənən hərbi-siyasi əməkdaşlıq regionda özəl maraqlara malik bəzi dövlətlərin, eləcə də ermənipərəst güc birliklərinin qıcığına səbəb olur.

Dünyanın belə təlatümlü və böhranlı vəziyyətində çeşidli hərbi-siyasi güc mərkəzləri arasında vurnuxan, onlardan yardım diləyən Ermənistandan fərqli olaraq, Azərbaycan İkinci Qarabağ savaşında qazandığı Zəfərin üstünlüyü ilə diplomatik meydanda da regional gücə çevrildiyini isbatlamış oldu. İndi hansısa supergücün, yaxud dövlətlər blokunun siyasi təzyiqlərinə boyun əyməyən, özünün milli–suveren maraqlarından çıxış edən və bu prinsiplər uğrunda vuruşmağı bacaran Azərbaycan müstəqil geosiyasi və geoiqtisadi subyektə çevrilib. Məhz siyasi iradənin, bir də Türkiyə ilə hərtərəfli tərəfdaşlığın, işbirliyinin, strateji müttəfiqliyi təsdiqləyən Şuşa Bəyannaməsinin sayəsində Azərbaycan Qərbin iki qardaş xalq arasında münasibətlərə xələl gətirməyə yönəlik bütün cəhdlərini puça çıxardı.

### Yeni və real güc mərkəzi – TDT

Səlibçi Qərb, 2008-ci ildə olduğu kimi, Türkiyə–Ermənistan sərhədinin açılması üçün yenə cəhd göstərir. Yəni, kollektiv Qərb Ankaranı Ermənistanla sərhədləri açmağa məcbur etməyə çalışır. Amma unudur ki, artıq onun qarşısında 200 milyondan çox insanın yaşadığı geniş coğrafiyanı əhatə edən, böyük iqtisadi potensiala, enerji resurslarına, kommunikasiyaya və ən önəmlisi, müasir hərbi potensiala malik Türk Dövlətləri Təşkilatı (TDT) durur. Quruma üzv ölkələr, bütün məsələlərdə olduğu kimi, təhlükəsizlik və milli maraqlar müstəvisində də qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirirlər. Azərbaycan TDT-yə üzv dövlətlər arasında münasibətlərin hərtərəfli inkişafına xüsusi önəm verir, Türk dünyasının daha da güclənməsi üçün əlindən gələni edir. TDT-nin 2009-cu ildə məhz Naxçıvan sazişi ilə yaradılması bunun bariz ifadəsi sayılmalıdır. Prezident İlham Əliyev TDT ölkələri ilə bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri elan edib.

Şübhə yoxdur ki, Türk Dövlətləri Təşkilatının bundan sonra da beynəlxalq miqyasda nüfuzu və çəkisi getdikcə artacaq. Bu perspektivi şərtləndirən amillərdən biri təşkilatın özəyini bir-birinə tarixi, dini, milli-mənəvi köklərə əsaslanan müttəfiqliyin təşkil etməsidir.

Yazımızın məntiqi yekunu kimi, Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il noyabrın 20-də xalqa müraciətində dediyi aşağıdakı sözləri yada salaq: "Yəqin, Azərbaycan xalqı xatırlayır, son 3-4 il ərzində mən öz çıxışlarımda dəfələrlə demişdim ki, dünya dəyişir, münasibətlər dəyişir. Beynəlxalq hüquq işləmir, güc amili önə çıxır, "kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir. Bütün bunları mənim çıxışlarımda görmək olar. Çünki mən beynəlxalq vəziyyəti düzgün təhlil etmişəm. Demək istəmirəm ki, biz də bu yolla gedək. Yox, bizim yolumuz ədalət, beynəlxalq hüquq yoludur."

***İmran BƏDİRXANLI***
***XQ***




# Qardaş Türkiyəyə növbəti humanitar yardım

**Aprelin 8-də Azərbaycandan növbəti humanitar yardımı Türkiyənin Malatya əyalətinə çatdırılıb.**

Humanitar yükün qardaş Türkiyənin sakinlərinə təhvil verilməsi mərasimində Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev və qurumun digər məsul şəxsləri iştirak ediblər.

Jurnalistlərlə söhbətdə Valeh Hacıyev qeyd edib ki, aksiyanın məqsədi Ramazan bayramı ərəfəsində qardaş ölkədə zəlzələdən zərər çəkən bölgə sakinlərinə dəstəyin göstərilməsidir.

Dəstəyə görə Azərbaycan hökuməti və xalqına təşəkkürünü bildirərək Malatyadakı Battalgazi rayon administrasiyasının başçısı Erkan Savar deyib: "Azərbaycan genişmiqyaslı təbii fəlakətin ilk günündən bizə yardım əlini uzadıb. Azərbaycan hökuməti tərəfindən zəlzələdə zərər çəkmiş insanlara yardım bu gün də davam etdirilir, buna görə də biz qardaş ölkəyə səmimi-qəlbdən təşəkkürümüzü bildiririk".

**(əvvəli 1-ci səhifədə)**

# Atəşkəs niyə pozulur?

Altıncısı, Brüssel görüşünün Azərbaycan–Ermənistan sülh prosesini tamamilə arxa plana atdığını vurğuladıq. Mövzunu bir qədər də genişləndirək. Revanşist xətt yürüdən rəsmi İrəvan Qərbə arxalanaraq, sülh yolunda indiyədək müşahidə edilmiş müsbət dinamikanı arxa plana atmaq niyyəti güdür. Şərti sərhəddəki atəş səsləri həm də buna hesablanıb.

Yeddincisi, Qərb, konkret olaraq, Avropa İttifaqı və ABŞ aprelin 5-də keçirilmiş Brüssel görüşü barədə söz açarkən, onun hansısa tərəfə qarşı yönəlmədiyini, ancaq Ermənistanın müdafiəsi, onun geriliyini aradan qaldırmaq məntiqini qabardır. Əlbəttə, bu, diplomatik gedişdir. Hər bir halda, belə yanaşma, müəyyən mənada, pozitiv təqdimat təsiri bağışlayır.

Ancaq, demək olmaz ki, mövcud təqdimat Ermənistan və havadarları üçün keçərlidir. Onlar ölkənin vacibliyi məsələsinə kökləniblər. Nəyə görə vacibdir? Əlbəttə ki, Cənubi Qafqazda Rusiya ilə mübarizə aparmaq, onu regiondan uzaqlaşdırmaq üçün.

Əslində Bakı–İrəvan münasibətlərinin nizamlamasının Qərb patronajlığı, ümumən Rusiyanın vasitəçilik səylərinə qarşıdır. Qərbin indiyədək aparılmış danışıqlardakı rolunun hansısa üçüncü tərəfə yönəlməsinin yolverilməzliyi ritorikasını dəstəkləyən isə Azərbaycandır. Buna görə də rəsmi Bakı sözügedən rola etimad göstərmir, ona səmimi yanaşmır.

Ermənistana gəldikdə isə ölkə Brüssel formatını geopolitik anti-Rusiya cəbhəsinə çevirməkdə israrlıdır. Bunun üçün isə fövqəladə gərginlik mühiti, hətta, gerçək müharibə şəraitinin formalaşması şərtdir. Erməni silahlı qüvvələrinin sərhəd təxribatlarının sayı məhz bu səbəbdən də artmaqdadır.

Səkkizincisi, burada İran faktorunun üzərində dayanmaq lazımdır. Hazırda rəsmi Tehran susqun kimi görünür. Sanki, ölkə Ermənistanın dost və ya düşmən olduğunu müəyyənləşdirməkdə çətinlik çəkir. İslam respublikası, həmçinin Cənubi Qafqaz planlarını hansı istiqamətdə qurmaq məsələsində də tərəddüd içərisindədir. Ölkədəki şovinist və ermənipərəst dairələr Azərbaycanı mənfi yöndə təqdim etməyə başlayıblar. Onlar Bakını yer üzündən silmək və sair bu kimi sərsəm bəyanatlar səsləndirirlər. Ermənistan hakimiyyəti isə Tehranın qeyri-müəyyənliyi üzərinə köklənir ki, geopolitik ziddiyyət çevrəsi genişlənsin. Şərti sərhəddə sayı çoxalmaqda olan atəşkəsin pozulması hallarının daha bir səbəbi budur. Erməni iqtidarı mümkün genişmiqyaslı eskalasiya və Azərbaycanın adekvat tədbirlərinin İran tərəfindən "qırmızı cizgilər"in keçilməsi kimi dəyərləndiriləcəyi üzərinə hesablamalar aparır.



Sonda bildirdiklərimizi ümumiləşdirərək deyək ki, Brüssel görüşü və onun fonunda Azərbaycan–Ermənistan şərti sərhədində eskalasiya mühitinin formalaşması rəsmi İrəvanın Cənubi Qafqaz müstəvisində aparılan qlobal oyunlarda müstəsna dividend qazanmaq istəyidir. Görünür, Paşinyan öz məqsədinə çatmaq naminə regionu qan çanağına döndərməkdə israrlıdır. Bu isə tamamilə yeni reallıqlar formalaşdırmaq cəhdidir. Əlbəttə, avantürist məqsəd daşıyan bu cəhdin Ermənistan dövlətçiliyinin tamamilə itirilməsi perspektivi var ki, bu barədə ən az düşünən də erməni iqtidarıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Daşqınlar nəticəsində 64 min adam təhlükəsiz ərazilərə köçürülüb

**Bir neçə gündür ki, Qazaxıstanın Aktübə, Kustanay, Pavlodar, Akmola, Atırau və Şimali Qazaxıstan vilayətlərində daşqınlar davam edir və bu məkanlarda bir sıra fəsadlar əmələ gəlib.**



Bu barədə Qazaxıstanın fövqəladə hallar naziri Kaxraman Orazalin dünən Astanada keçirdiyi brifinqdə məlumat verib. O deyib ki, bu vilayətlərdə 3391 fərdi evi,1059 bağ sahəsini, 79 digər istiqamətli binanı su basıb, 64 min adam təhlükəsiz ərazilərə köçürülüb və müvəqqəti yaşayış sahələri ilə təmin olunub. Köçürülənlərin 15 min 283 nəfəri uşaqdır. Nazir qeyd edib ki, onlara hərtərəfli yardım göstərilib, evlərini tərk edənlər psixoloq xidməti ilə təmin olunub. Təbii fəlakət nəticəsində adı çəkilən yeddi vilayətdə respublika əhəmiyyətli 801 kilometr magistral yol qismən zədələnib. Yolların təmizlənməsinə 297 texnika, 385 adam cəlb edilib.

Daşqınlarla bağlı Qazaxıstan Prezidenti Kasımcomart Tokayev ölkə əhalisinə müraciət edib. Dövlət başçısı əhalini öz evlərindən köçürülənlərə yardım etməyə çağırıb. O bildirib ki, bu daşqınlar son 80 ildə öz əhatə dairəsinə və vurduğu zərərə görə ən böyük təbii fəlakətdir.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**
**Astana**

# Brüssel "tamaşa"sının pərdəsi qalxır

## Deyəsən, Qərb Paşinyanın göz yaşlarına inanmır

(əvvəli 1-ci səhifədə)

Yazıda qeyd olunurdu ki, buna görə də Moskva Ermənistandakı "beşinci kolonun iplərini çəkərək" onları uca səslə bəyanatlar verməyə, Paşinyanla mübarizə aparmaq üçün potensiallarını səfərbər etməyə çalışır: "Bütün bunların hamısı Brüsseldə ölkəmizlə bağlı keçiriləcək taleyüklü görüşün qarşısını almaq üçündür. Görüş isə bizim hamımız üçün həqiqətən taleyüklüdür. İclasın gündəliyinə diqqət yetirin: Ermənistan–ABŞ və Ermənistan–Aİ münasibətləri, ölkəmizin iqtisadi və enerji sahəsində potensialının inkişafı və Hayastanın üzləşdiyi humanitar problemlərin həlli ilə bağlı məsələlərin müzakirəsi. Aİ-yə üzvlüyə namizəd statusu almaq üçün Ermənistana təklifin veriləcəyi gözlənilir. Avropa Sülh Fondundan vəsaitin ayrılması, hərbi yardımın artırılması, Ermənistanın müdafiə qabiliyyətinin gücləndirilməsi üçün birgə treninqlər və hərbi təlimlərin keçirilməsi, təhlükəsizlik sektorunda islahatlar, Ermənistanın sərhədlərinə nəzarətin gücləndirilməsi, viza rejiminin liberallaşdırılması da müzakirə olunacaq. Əgər bütün bu məqamlar sənədləşdirilərsə, o zaman, şübhəsiz ki, aprelin 5-i Ermənistanın rəsmi olaraq, sivil dövlətlər ailəsinə daxil olduğu günə çevriləcək və buna uyğun olaraq ölkəmiz Qərbdən dəmir-beton təhlükəsizlik zəmanəti alacaq. Yeri gəlmişkən, Saakaşvilinin Gürcüstanı vaxtında belə dəstək almamışdı".

Ancaq göründüyü kimi, Hayastandakı qərbpərəstlərin ümid etdiklərinin əksəriyyəti reallaşmadı. Ekspertlərin qeyd etdikləri kimi, görüşün nəticəsi Paşinyan komandasının üzvlərini və onun sıravi tərəfdarlarını pərişan etdi. Hayların Qərbdən külli miqdarda maddi, həmçinin siyasi və hərbi-texniki dəstək almaq arzusu gözlərində qaldı. Brüssel və Vaşinqton İrəvana, müvafiq olaraq, 270 milyon avro və 65 milyon dollar verəcəklərini vəd etdilər. Onu da nəzərə almaq lazımdır ki, Avropa İttifaqının "yeni Ermənistan–Aİ tərəfdaşlığını gücləndirmək üçün" ayıracağı 270 milyon avro vəsait birdəfəlik ödənilməyəcək, 2024-2027-ci illərdə hissə-hissə (yəni, hər il 67,6 milyon avro) ayrılacaq. Bu məbləğlə isə çətin ki, nəsə etmək mümkün olsun.

Ölkənin müxalifətçi "Hayastan" blokunun parlament fraksiyasının üzvü Artur Xaçatryan aprelin 8-də jurnalistlərə bildirib ki, Brüssel görüşünün geniş reklamı gedirdi. Ancaq görüşün nəticəsi Aİ-nin hər il təxminən 70 milyon avro ayırması oldu ki, bu da hakimiyyətin görüş ərəfəsində vəd etdiyi iqtisadi bumu təmin etmək üçün cüzi bir məbləğdir.

Deputat deyib ki, təkcə cari ilin əvvəlindən Ermənistan hakimiyyəti ölkənin xarici borcunu göstərilən məbləğdən iki dəfə çox artırıb. Onun sözlərinə görə, nəticə və gözləntilər bir-birinə uyğun gəlmir. Xaçatryan Aİ-nin hələ 2021-ci ildə 2,6 milyard avro yardım ayırmağı vəd etdiyini xatırladıb. Ancaq vədin hələ də yerinə yetirilmədiyini vurğulayıb: "ABŞ-nin yardımı da, xüsusən 90-cı illərdəki müharibədən sonrakı dövrdəki yardımların həcmi ilə müqayisədə ürəkaçan deyil. Bütün bunları nəzərə alaraq, Brüssel görüşündə nəyinsə səhv getdiyini güman etmək olar. Bu məbləğdə yardım üçün yüksək səviyyədə görüşün keçirilməsi doğru deyildi. Güman edirəm ki, Ermənistan qarşısında sərt şərtlər qoyulub. Yəqin ki, bizim baş nazirimiz də şərtləri dəyərləndirərək, onların altından çıxmağın mümkün olmadığını anlayıb".

Enerji təhlükəsizliyi üzrə ekspert Vahe Davtyan isə fikirlərini belə ifadə edib: "Brüsseldə bizə konfet yox, onun kağızını verdilər. Çünki Avropa və ABŞ-nin 4 il ərzində verəcəyi vəsait Ermənistanda bir dənə də olsun ciddi məsələni həll edə bilməz. Ermənistanın suverenliyi və ərazi bütövlüyü hərraca çıxarılıb. 270 milyon avro+65 milyon dollar heç bir infrastrukturu inkişaf etdirə biləcək məbləğ deyil. Başqa sözlə, Avropanın Ermənistana iqtisadi marağı sıfırdır".

Enerji təhlükəsizliyinə gəlincə, Davtyan qeyd edib ki, Qərbin heç bir ölkəsində nüvə reaktoru və ya onların istismarı təcrübəsi yoxdur. Bu cür iki ölkə var: Rusiya və Çin. Ermənistan sınaq meydançasına çevriləcək, çünki təcrübəsi olmayan ölkələr bizə modul qurğular təklif edirlər. Burada Litvanın təcrübəsini tətbiq etmək istəyirlər, amma bu, cəfəngiyyatdır. Təbii ki, Paşinyana etimadsızlıq var, çünki Avropada axmaq yoxdur və onlar çox gözəl başa düşürlər ki, Ermənistan tamamilə anti-Rusiya yolu ilə gedə bilməz. Avropada onlar çox gözəl başa düşürlər ki, İrəvan Rusiyadan tamamilə asılıdır və Avrasiya İqtisadi İttifaqından çıxmaqla Ermənistan iqtisadi cəhətdən iflasa uğrayacaq, ictimai-siyasi böhran yaranacaq və onların siyasi planlarının heç biri reallaşa bilməyəcək. Avropa onu da çox gözəl anlayır ki, Paşinyan iqtidarı sırf öz hakimiyyətini saxlamaq üçün manevr edir. Avropalılar üçün Ermənistanın Aİİ-dən çıxdığını və Rusiya



hərbi bazasının çıxarılacağını elan etməsi mühüm addım olacaq. Ancaq, göründən odur ki, bu, İrəvanın planlarında yoxdur. Başqa sözlə, iqtisadi və siyasi komponentləri nəzərə almaq lazımdır. Bəli, Qərb Paşinyanın göz yaşlarına inanmır.

Ekspert bildirib ki, Qərb Paşinyanın anti-Rusiya baxışlarına malik olduğunu qəbul etsə də, onun Moskvaya qarşı avantüraya gedəcəyini zənn etmir. Ona görə də ABŞ və Aİ Ermənistanın təşəbbüslərinə ehtiyatla yanaşırlar. Ayrılan vəsaitin azlığı da həmin ehtiyatlı yanaşmanın göstəricisidir.

"Alternativ" araşdırmalar mərkəzinin rəhbəri, professor Tatul Manaseryan "Sputnik Ermənistan"a müsahibəsində də bildirib ki, Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlükdən imtina etməsi, iqtisadi baxımdan intihar olardı: "Hakimiyyət nümayəndələri həm nazirlər, həm də deputatlar səviyyəsində dəfələrlə bəyan ediblər ki, bu gün Aİİ-yə alternativ yoxdur. 2023-cü ildə xarici ticarət dövriyyəsindəki 46 faizlik artımın təxminən 40 faizi Aİİ-yə üzv ölkələrlə, ilk növbədə, Rusiya ilə bağlıdır. Aydındır ki, Ermənistan Aİİ-yə üzvlükdən və ya inteqrasiya proseslərindən imtina edərsə, bu, iqtisadi baxımdan intihar olacaq. Həm ərzaq, həm enerji təhlükəsizliyi, həm də maliyyə təhlükəsizliyi baxımından çox ciddi problemlər yaranacaq. Çünki Rusiyadan köçürmələr bizim ümumi daxili məhsulumuzun dörddə bir hissəsini təşkil edir".

Eyni zamanda, Manaseryan vurğulayıb ki, həmin Qərb ölkələri, hətta Rusiya ilə siyasi münasibətlərdə aşkar gərginliyin mövcud olduğu şəraitdə belə, bu ölkə ilə ticarət əlaqələrindən tam imtina etməyiblər. Bəzi Qərb şirkətləri Rusiya bazarında həm özəl, həm də dövlət səviyyəsində fəaliyyətlərini davam etdirirlər. Onun fikrincə, Ermənistanın gələcəyi bu münasibətləri bir geosiyasi vahidlə digərinin hesabına inkişaf etdirməkdə deyil, bütün ölkələrlə yaxşı münasibətlərdədir.

**Mövzu üzrə söhbətləşdiyimiz Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev bildirdi ki,** görüşdən



əvvəl Azərbaycanın ifadə etdiyi narahatlıqların özünü doğrultduğunu birmənalı şəkildə söyləmək mümkündür. Onun sözlərinə görə, biz aprelin 5-də Aİ-nin yanaşmasının Fransanın təsiri altına düşdüyünü müşahidə etdik.

Eyni zamanda, Qərbin Cənubi Qafqaz siyasətindəki ikili standartlara bir daha şahid olduq: "Mən Qarabağdan 90-cı illərdə qaçqın düşən azərbaycanlılara və 2023-cü ildə bölgədən öz xoşu ilə çıxıb gedən ermənilərə münasibətdə fərq qoyulmasını nəzərdə tuturam. Avropanın bu yanaşması ikili standartların bariz nümunəsidir. Görüşdən sonra keçirilən mətbuat konfransında azərbaycanlı qaçqınlarla bağlı heç bir ifadə səsləndirilmədiyi halda, Qarabağdan xoşluqla gedən ermənilər barədə addımların atılması qəbuledilməzdir".

C.Vəliyev qeyd etdi ki, Azərbaycan görüşdən öncə mövqeyini açıq ifadə etmişdi. Ölkəmiz İrəvana hərbi dəstəyin göstərilməsindən narahatlıq duyduğunu vurğulamışdı: "Biz bunu Aİ-nin xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrelin də görüşdə iştirak etməsində gördük. Borrell Ermənistanı hərbi cəhətdən dəstəkləməyi Qərbdə ən çox müdafiə edən şəxslərdən biridir. O, keçən ilin oktyabr-noyabr aylarından etibarən bu ideyanı qızğın şəkildə müdafiə edir və Aİ-dən hərbi yardım alan dövlətlərin siyahısına Ermənistanı da daxil etməyə çalışır".

Politoloq Brüssel görüşünün Hayastanda revanşizmin, radikalizmin artmasına xidmət edəcəyini güman edir: "Özü də bunu təkcə müxalifətdə axtarmaq lazım deyil. Brüssel görüşü Paşinyan hökumətinin Azərbaycanla apardığı sülh danışıqlarına da pis təsir edəcək. Dünyanın hər yerində belədir. Özünə arxa-dayaq tapan dövlət davam edən danışıqlarda daha çox nələrsə əldə etməyə can atır. Azərbaycan isə təbii ki, Ermənistanın əsassız tələblərini rədd edəcək. Nəticədə, danışıqlarda ciddi mənfi nəticələr yaranacaq".

Göründüyü kimi, Paşinyana yaxın şəxslərin hay-küylə reklam etdikləri Brüssel görüşündə Ermənistanın bir dövlət kimi inkişafına, onun əhalisinin rifahına, təhlükəsizliyinə və sabitliyinə xidmət edəcək heç bir xüsusi hadisə baş vermədi. Halbuki, ermənilər bu tarixdə onların siyasi-iqtisadi taleyində ciddi dönüş olacağına ümid edirdilər. Bu faktın özü bir daha ondan xəbər verir ki, Ermənistan iqtisadi inkişafı, rifahı və sabitliyi bölgədən min kilometrlərlə uzaqda deyil, elə bölgədə axtarmalıdır. İrəvan ləngimədən Azərbaycanla sülh istiqamətində danışıqlara impuls verməli, regional kommunikasiyaların açılması istiqamətində addımlar atmalıdır. Çünki bundan qazanan həm də Ermənistan və onun əhalisi olacaq. Əks-təqdirdə ölkənin iqtisadiyyatındakı durğunluq davam edəcək, əhalinin həyat səviyyəsi isə gündən-günə aşağı düşəcək.

*Səxavət HƏMİD*
*XQ*

---

# 24 ermənipərəstin "nağılı"

## Yaxud Avropa Parlamentinin növbəti "həyasızlıq simfoniyası"nın akkordları

**Aprelin 5-də Brüsseldə keçirilmiş ABŞ – Avropa İttifaqı – Ermənistan üçtərəfli təmasına xaricdəki ermənipərəst dairələrdən dəstək var. Əlbəttə, buna dəstək demək bir o qədər yerinə düşmür.**

Məqsəd aydındır: Görüşə anti-Azərbaycan fonu qazandırmaq. Daha doğrusu, həmin görüşə bilavasitə ölkəmizlə bağlı mənfi çalarlar gətirmək. Bəli, qatı erməniperəst mövqeyi ilə seçilən Avropa Parlamentinin deputatlarının istəyi budur. Söhbət başda fransız Natali Luazo olmaqla, onların 24-nün Birləşmiş Ştatların Dövlət Departamentinin rəhbəri Antoni Blinkenə və Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenə ünvanladıqları müraciətdən gedir.

Beləliklə, AP-nin müxtəlif fraksiyalarından olan deputatları N.Luazonun rəhbərliyi altında A.Blinkeni və Ursula Fon der Lyayeni Ermənistanın təhlükəsizliyini təmin etməyə çağırıblar. Bəlkə Azərbaycanla döyüşmək üçün Birləşmiş Ştatların qoşun yeritməsini nəzərdə tuturlar? Onlardan nə desən gözləmək mümkündür. "Köhnə qitə"nin erməni lobbi və diaspor təşkilatlarının pulu bu "pensionerlər klubu"nun üzvlərinin gözünü o qədər tutub ki, Ermənistan üçün hər cür avantürizmi qabardar və bu zaman beynəlxalq hüquq normalarını çox asanlıqla ayaqaltı edə bilərlər. AP-nin təkcə son altı ayda qəbul etdiyi anti-Azərbaycan xarakterli qətnamələr də fikrimizin təsdiqidir.

Əlqərəz, haqqında söz açdığımız müraciət barədə N.Luazo özünün "X" sosial şəbəkəsindəki hesabında məlumat yayıb. Müraciətdə vurğu onun üzərinə qoyulub ki, Avropa İttifaqı və ABŞ İrəvana dəstəyini artırır, amma indi mövcud xüsusda həyata keçirilənlər azdır. Sənəddə Brüssel görüşü Aİ-nin və Birləşmiş Ştatların Ermənistana, onun demokratiyasına, təhlükəsizliyinə və ərazi bütövlüyünə dəstəkdə konkret iştirakının başlanğıcı olaraq qiymətləndirilib və alqışlanıb. Orada, həmçinin beynəlxalq ictimaiyyətə ünvanlanmış ittiham motivləri də yer alıb. Bildirilib ki, guya, xarici aləm 2020-ci ilin



AP

Qarabağ müharibəsinə, "Azərbaycanın Qarabağa qarşı (bölgədəki keçmiş separatçı rejim nəzərdə tutulur – red.) qəddarlığına və "Ermənistan ərazilərinin bir hissəsinin işğalına" passiv yanaşıb.

Ümumən, avroparlamentarilər, necə deyərlər, köhnə havalardadır. Onlar, Azərbaycana qarşı ənənəvi sərsəm ritorikanı işə salıblar. Bu ritorikada ölkəmizi hər cəhətdən haqsız çıxarmaq və İrəvanın manipulyasiyalarını Bakının üzərinə yıxmaq məntiqi var. AP deputatları Azərbaycan – Ermənistan şərti sərhədində ikincinin törətdiyi təxribatlara və eskalasiyalara da eyni prizmadan yanaşırlar.

AP deputatları Blinkenə və Lyayenə birgə müraciətlərində bildirirlər ki, Azərbaycan Ermənistanı, guya, uydurma təxribatlarda ittiham edir və ona qarşı döyüşkən ritorika yaradır. Müraciətin daha bir özəlliyi isə sənəddə Rusiyanın adının çəkilməsidir. Bu, Moskva ilə Bakının eyni cəbhədə olduğuna dair təəssürat yaratmağa hesablanmış gedişdir. "Rusiya Ermənistanı Avropaya yönəldiyinə görə cəzalandırmaq üçün səbəb axtarır" kimi fikrin qabardıldığı müraciətdə daha bir ənənəvi manipulyativ məqam diqqətdən yayınmır. Sözügedən motiv Ermənistanı demokratik ölkə kimi göstərməyə əsaslanır. Belə rəy formalaşdırılır ki, guya, Kreml Bakının köməyi ilə erməni demokratiyasına qarşı qəsd reallaşdırmaq niyyətindədir.

Əslində, demokratik cəmiyyət həm də güclü cəmiyyətdir. Lakin Ermənistanla bağlı məsələlərdə bu deyim işləmir. Bu baxımdan onu da yada salaq ki, barəsində söz açdığımız üçtərəfli təmas məsələsində qəbul edilmiş razılaşmada gülməli müddəa da yer almışdır. Söhbət erməni xalqının öz demokratiyasına etimad göstərməsi tezisindən gedir. Sən demə, sadə erməniləri hökumətin demokratikliyinə inandırmaq lazım imiş. Bu da tam absurddur, AP deputatlarının müraciətlərindəki oxşar məqam da həmçinin. Guya ki, onlar Ermənistan demokratiyasına qarşı təhdidlərə reaksiyasız qala bilmirlərmiş...

Üstəlik, müraciətdə Ermənistandan məzlum obrazı formalaşdırmaq cəhdləri də var ki, belə yanaşma ənənəvi xarakter daşıyır. Avroparlamentarilər bildirirlər ki, Ermənistan qonşuları ilə sülh şəraitində yaşamaq və öz yolunu seçməkdən başqa heç nə axtarmır. Elə bil, mühüm dövlət sənədlərində qonşu ölkələrə qarşı ərazi iddiasının yer aldığı ölkə Ermənistan deyil. Belə çıxır ki, otuz ilə yaxın müddətdə Azərbaycanın torpaqlarını işğalda saxlayan da Ermənistan yox, hansısa başqa dövlət imiş.

Avroparlamentarilərin müraciətlərinin sonu əsl tragikomediyadır. AP deputatları müraciətlərində Blinkeni və Lyayeni "sadə bir jest etməyə – Ermənistana getməyə və erməni xalqına yaşamaq və azadlıq uğrunda mübarizədə tək olmadıqlarını" göstərməyə çağırıblar. Hiss olunur ki, "pensionerlər klubu"nun üzvlərinin erməni lobbi və diaspor təşkilatlarından aldıqları pulun miqdarı həddən artıq çoxdur. Bu adamların sentimentallığı "zəngulələri" tragikomediya üçün bəstələnmiş tam bir həyasızlıq simfoniyasının akkordlarıdır.

*R.ƏVƏZ*
*XQ*

# Liderin gücü: şəxsi keyfiyyətlərlə xalq-lider birliyinin sintezi

## (fəlsəfi-politoloji təhlil)

**IV MƏQALƏ**

**Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

III məqalədə gəldiyimiz yekun qənaət güclü uğurlu liderliyin Azərbaycan nümunəsinin sabit deyil, sürətlə dəyişən mühitdə yeniləşməyə açıq dinamik bir fenomen olması ilə bağlı idi. Onun konkret ifadəsi Prezident İlham Əliyevin fəaliyyətində özünü göstərməkdədir.

Burada ayrıca yeri olan faktorlar şəxsi keyfiyyətlər, siyasi məharət və cəmiyyətin liderlə həmrəyliyi və ya lider-xalq birliyidir. Buradan şərti olaraq güclü liderliyin Azərbaycan nümunəsinin üç baza faktorunu müəyyən edə bilərik.



### Üç baza faktoru

Liderin şəxsi keyfiyyətləri, siyasi məharət və lider-cəmiyyət həmrəyliyi müasir mərhələdə güclü liderliyin üç baza faktoru kimi qəbul edilə bilər. XXI əsrdə uğurlu liderlik üçün şəxsi keyfiyyətlər daha aktual göstərici olmuşdur. Politoloji təlimlərdə bu aspektə getdikcə daha çox diqqət yetirilir. Liderin ünsiyyət qabiliyyəti, bütövlükdə, kommunikabelliyi dayanıqlı dünya nizamının mövcud olmadığı və çox sayda güclü geosiyasi qüvvələrin liderlik uğrunda amansız mübarizə apardığı bir dövrdə həlledici faktor rolunu oynaya bilir. Müstəqil dövlət başçıları şəxsi ünsiyyətləri sayəsində başqa liderlərlə konstruktiv əlaqələr qura bilir və eyni zamanda, yad təsirlərə qarşı müqavimət göstərirlər.

Son illər bu kontekstdə dünya miqyasında kifayət qədər nümunələr özünü göstərir. Bir sıra böyük dövlətlər digərlərini təsirləri altına almaq üçün dövlət başçılarına təzyiqlər göstərməyə meyil edirlər. Şəxsi keyfiyyətləri yüksək olan müstəqil dövlət başçıları öz mövqelərini saxlaya bilir, rəhbərlik etdikləri ölkələrin maraqlarını təmin edirlər. Zəiflər isə oyuncağa çevrilirlər.

Məsələn, Ermənistanın rəhbərləri ilə uzun illərdir ki, güclü dövlətlərin başçılarının “oyuncağı” kimi davranırlar. Onlar gah Rusiyanın, gah da Qərb dövlətləri başçılarının göstərişlərini yerinə yetirirlər. Son olaraq Nikol Paşinyan Rusiya liderinin təsirindən canını qurtarıb Fransanın prezidentinə sığınmağa çalışır. Lakin kənardan siyasi liderlik kriteriyaları ilə onun vəziyyətinə baxanda, zavallı və başqalarının iradəsindən asılı siyasətçi təsiri bağışlayır. Bu növ siyasi liderdən güclü siyasətçi ola bilməz.

Başqa nümunələr də vardır. Məsələn, bir zamanlar güclü görünən lider indi ya fəaliyyət göstərə bilmir, ya da məhbus həyatı yaşayır. Onlara da güclü lider demək çətindir. Nəhayət, rəhbərlik etdiyi dövləti müharibə ocağına ataraq, bol-bol vədlər verən liderlər də var ki, indi məğlub ola bilmə ehtimalından bəhs edir və ya ona yardımçı olan başqa dövlətləri qınamağa çalışır. Bu növ liderlik də güclü lider adlandırıla bilməz. Baxmayaraq ki, onun lider kimi əsas şüarı “xalqa xidmət” olub. Deməli, “xalqa xidmət” adı altında başlanğıcda effektli və cəsarətli addım ata bilərsən, lakin şəxsi keyfiyyətlərdəki nöqsanlar və siyasi məharətin yetərli olmaması tam mənada güclü lider olmağa imkan verməyə bilər.

Bunlar XXI əsrdə güclü liderlik üçün şəxsi keyfiyyətlərin vacibliyini göstərməklə yanaşı, onun yetərli faktor olmadığını da təsdiq edir. Bu təsdiqin əsas adekvat kriteriyası isə əldə edilən konkret nəticələrdir. Liderin milli maraqlara uyğun, dövlətçiliyə xidmət edən uğuru varsa, o, güclü liderdir. Şəxsi keyfiyyətlər məhz bu nəticəyə nail olmağa yetərlidirsə, siyasətçi güclü şəxsiyyətdir!

Siyasi məharət burada olduqca əhəmiyyətli rol oynayır. Artıq liderin siyasi-diplomatik qüdrəti çox böyük faktordur. Situasiya tez-tez dəyişirsə, geosiyasi şərtlər yeniləşir və bir sıra hallarda ciddi ziddiyyətlər meydana gətirirsə, lider məharəti sayəsində çətin vəziyyətlərdən ölkəni çıxara bilər.

Məsələn, Mixeil Saakaşvili qonşu və dost Gürcüstanı çətin vəziyyətdən çıxara bilmədi. Gürcüstanın torpaqları işğal olundu və üstəlik, M.Saakaşvilinin prezident kimi karyerasına son qoyuldu. İndi isə hətta sağlamlığının necə olacağı məlum deyildir.

Digər nümunə kimi, V.Zelenskinin Ukraynanı çox çətin vəziyyətə salmasını göstərmək olar. V.Zelenski öncələr qələbədən danışırdı, indi isə dünya miqyasında müzakirələr əsasında sülh imkanlarından bəhs edir. Deməli, öncəki proqnozlarında, strateji görüşlərində yanlış olmuşdur. Bu yanlışlıqları isə indi siyasi məharəti belə düzəldə bilmir. Bu növ siyasətçiləri güclü lider kimi qəbul etmək olarmı? Cavab vermək çox çətindir.

Biz Avrasiya miqyasında başqa nümunələr də göstərə bilərik. Lakin, bütövlükdə, hazırkı tarixi mərhələdə müstəqil dövlətin güclü uğurlu lideri olmağın zəruri şərtləri haqqında təsəvvür formalaşdırmaq olar. Yuxarıda vurğuladığımız şəxsi keyfiyyətlər və siyasi məharətə lider – cəmiyyət həmrəyliyini də mütləq əlavə etmək gərəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin nümunəsində bu tezisi təsdiq etmək olar.

İlham Əliyev şəxsi keyfiyyətləri ilə dövlət başçısı olandan diqqətləri çəkmişdi. Qətiyyətli, qərarlı, təmkinli, hər atdığı addımı öncədən dərindən düşünən və konkret nəticəyə fokuslanmış proqramlar həyata keçirən lider olaraq fəaliyyət göstərmişdir. Bu keyfiyyətləri sayəsində Azərbaycanın enerji strategiyasını dönmədən və ardıcıl inkişaf etdirmişdir. Ən çətin mərhələlərdə belə İlham Əliyev Gürcüstana tez-tez səfərlər edir, Türkiyə ilə münasibətləri inkişaf etdirir, Qərb və Çin istiqamətində qarşılıqlı faydalı əməkdaşlıq üçün tutarlı addımlar atırdı. Qısa müddət ərzində Gürcüstan “əsrin müqaviləsi” çərçivəsində enerji layihələrində əsas kommunikasiya marşrutuna çevrildi, Avropa İttifaqının bir neçə dövləti Azərbaycanın strateji tərəfdaşı oldu, Çinlə əlaqələr keyfiyyətcə yeni səviyyəyə yüksəldi və “Bir kəmər, bir yol” layihəsində Bakının iştirak fəallığı sabitləşdi.

Paralel olaraq, Rusiya ilə əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəldi. İranla münasibətlərdə bir sabitlik yarandı. Türkiyə ilə strateji müttəfiqlik tarixdə görünməmiş səviyyəyə yüksəldi.

Ən başlıcası isə İlham Əliyev ərazi bütövlüyünün təminini milli ideya kimi reallaşdırdı. Bu zaman 44 gün ərzində gərgin vəziyyətdə yüksək şəxsi keyfiyyətləri ilə siyasi məharətinin sintezində qarşıya çıxan bütün maneələri aşdı. Azərbaycan Prezidenti 44 günlük savaşın gedişində təkbaşına dünyanın çox sayda dövlət başçısı və KİV nümayəndələri ilə informasiya müharibəsinə girişdi və qalib gəldi. İlham Əliyev yüksək zəkası, strateji düşüncə və proqnozlaşdırma qabiliyyəti, diplomatik məharəti, milli maraqlara sadiqlik qətiyyəti, yenilməz iradəsi və yüksək savadı ilə rəqiblərini, sözün həqiqi mənasında, diz çökdürdü. Bu zaman, Azərbaycan liderinin məşhur lakonik kəlamları Azərbaycan tarixi ilə yanaşı, müasir politologiyanın da səhifələrinə əbədi yazıldı.

Məsələn, “Qarabağ Azərbaycandır!” kəlamı şəxsi keyfiyyətlərlə siyasi-diplomatik məharətin sintezində məşhurlaşdı. “Sən azadsan, Şuşa!” kəlamı milyonların dilində səsləndi. Şuşa Bəyannaməsi isə “Bir millət, iki dövlət” kəlamının konkret hüquqi təzahürlərindən biri oldu. Bütün bunlar İlham Əliyevin qısa müddətdə üstün şəxsi keyfiyyətlərini siyasi-diplomatik məharət və yenilməz iradə ilə birləşdirərək, uğur qazanmasına imkan verdi. Azərbaycan Prezidenti XXI əsrin ən uyğun güclü lider obrazıdır!

Və burada İlham Əliyevin başqa bir liderlik qabiliyyəti özünü göstərir. Biz Azərbaycan Prezidentinin “Biz birlikdə güclüyük!” kəlamını nəzərdə tuturuq.

### Xalq – prezident birliyi: güclü liderliyin əsas parametrlərindən biri kimi

Azərbaycan üçün XXI əsrdə liderlə cəmiyyətin həmrəyliyinin təmini strateji əhəmiyyət kəsb edir. Bunu İlham Əliyev bacardı. Özü də hər yeni situasiyaya kreativ yanaşaraq, öhdəsindən gəldi. Belə ki, xarici qüvvələr tez-tez Azərbaycan cəmiyyəti ilə onun dövlət başçısı arasında müxtəlif üsullarla (məsələn, hibrid təsirlərlə) uçurum yaratmağa çalışırdılar. Müxtəlif qondarma arqumentlərlə Azərbaycanda dövlət başçısının xalqın maraqlarına uyğun siyasət yeritmədiyini ortaya atır, buradakı əlaltıları ilə bu yalançı rəyi cəmiyyətə sırımağa cəhd edirdilər. Bu proses indi də davam edir.

Bütün bunlara İlham Əliyev konkret siyasəti ilə cavab verdi. İslahatlar apardı, iqtisadiyyatı gücləndirdi, cəmiyyətdə multikultural dəyərləri tam oturuşdurdu, yeni nəsil tərbiyəsinə ciddi diqqət yetirdi, ordunu tam modernləşdirdi və dövlətin beynəlxalq miqyasda nüfuzunu diplomatik qətiyyəti və məharəti ilə yüksəltdi. Bu kimi praktiki addımların fonunda İlham Əliyevin təcavüzkar Ermənistanın torpaqlarımızdan birdəfəlik qovulması prosesinə başlaması bir çoxları üçün şok effekti yaratdı. Yəni ərazi bütövlüyünün təmini əməliyyatı, sözün həqiqi və tarixi mənasında, İlham Əliyevin həm yeni lider kimi özünütəsdiqi, həm də bütün dünyaya güclü liderliyin Azərbaycan nümunəsinin əyani nümayişi idi.

Mümkündür ki, dünyanın bir çox güclü dövlətləri öncə buna inanmadılar, sonra isə qısqanclıqdan qəbul etmək istəmədilər. Yəni XXI əsrdə bir müstəqil müsəlman dövlətinin liderinin bu qədər uğurlu olmasını psixoloji və faktiki həzm edə bilmədilər! Bizim anlamımızda XXI əsrdə əsl güclü uğurlu liderlik nümunəsi məhz bundan ibarətdir.

Özlərini güclü sayanlar cəmi 44 gündə gördülər ki, onlardan güclü lider vardır. O lider Cənubi Qafqazın şərəfli dövlətçilik ənənəsi olan xalqının – azərbaycanlıların Prezidentidir. O, “Azərbaycan” adlı əsrlərlə bu regionda ədalətli, hünərli, qüdrətli liderlər yetişdirmiş bir xalqın övladı olan İlham Əliyevdir. Azərbaycanı əbədi müstəqillik yoluna çıxaran, faktiki olaraq müasir müstəqil Azərbaycan dövlətçiliyinin nümunəsinin memarı olan güclü və uğurlu ulu öndər Heydər Əliyevin siyasi varisidir. Məhz Heydər Əliyev siyasi məktəbini keçmiş bir azərbaycanlıdır!

İlham Əliyevin güclü liderlik nümunəsinin başqa bir çox əhəmiyyətli aspekti də vardır. Həmin özəllik postmüharibə mərhələsində İlham Əliyevin nümayiş etdirdiyi şəxsi keyfiyyətlər, siyasi-diplomatik məharət və lider – xalq birliyidir. Bu komponentlər üzrə Azərbaycan Prezidenti kifayət qədər etibarlılıq və inklüziv legitimlik “kreditinə” sahibdir.

İlham Əliyev yeni güclü liderliyi indi eksklüziv olaraq fəaliyyəti ilə yaratmaqda davam edir. Dövlət başçısının həm ölkənin inkişafı, həm də Cənubi Qafqazla əlaqədar özünü göstərən yeni gözlənilməz geosiyasi-hərbi proseslərə reaksiyası postsovet məkanında postmüharibə mərhələsinin yeganə güclü lideri olduğunu sübut etməkdədir!

İndi Bakıda Qərbin, Rusiyanın və başqa güclü geosiyasi qüvvələrin siyasiləri və diplomatları qaynaşırlar. Əgər keçən əsrin 90-cı illərində onlar burada öz maraqlarını Azərbaycanı nəzərə almadan təmin etməyin izində idilərsə, indi Azəbaycanın maraqlarının fonunda özlərinə “Qafqaz Günəşi altında yer” axtarırlar.

Hər birinin Azərbaycandan xahişi belədir: bizimlə əməkdaşlıq edin! Bu, güclü siyasi varisin güclü uğurlu liderliyə yüksəliş yolunun davam etməsidir. Bu, həm də bütün dünyaya yeni bir mesajdır: kim nə qədər gözlənilməz davransa da Azərbaycan xalqı öz güclü lideri ətrafında daha güclü birləşərək, yeni həmrəylik nümunəsi ortaya qoyacaqdır!

Nəhayət, İlham Əliyev daim yeniləşən situasiyada yeni kreativliyə uyğun fəaliyyət göstərən potensiala və gücə malik lider olduğunu təsdiq etməkdədir.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# İrəvanın “dilənçilik diplomatiyası”

## “Sabun köpüyü” ilə manipulyasiya

**Aprelin 5-də Brüsseldə keçirilmiş ABŞ–Avropa İttifaqı–Ermənistan görüşünün nəticəsi İrəvana yardım ayrılması oldu. Başqa, böyük ölçüdə, ortada heç nə yoxdur. Hər halda, rəsmi məlumatlara əsasən belə söyləyə bilərik. Ortada, eyni zamanda, bu da var ki, erməni iqtidarı həmin yardımı müstəsna uğur kimi qələmə verir.**



Deməli, Ermənistanın təhlükəsizliyi və sair bu kimi yüksək səslənən məsələlərin başı pul imiş. Pul çox şeydir, amma hər şey deyil. Məsələ ondadır ki, hazırda kollektiv Qərbin Ermənistana ayırdığı maliyyə heç nədir. Fikrimizin əsaslandırılması üçün bəzi məqamların diqqətə çatdırılmasına ehtiyac var. Həmin məqamlardan söz açanlardan biri isə Ermənistanın Milli Tərəqqi Partiyasının koordinatoru Levon Zurabyandır.

L.Zurabyanın facebook səhifəsində yazdıqları onu deməyə əsas verir ki, ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenin və baş nazir Nikol Paşinyanın Belçikanın paytaxtında reallaşmış üçtərəfli görüşündə çıxarılmış qərar Ermənistana yalnız dilənçi payının ayrılmasıdır. Bu, həm də, o deməkdir ki, rəsmi İrəvanın yüksək notlarla təqdim etməsinə baxmayaraq, Brüssel təması, hətta, ortada olan konkret nəticə baxımından da mənasızdır. Hələ başqa məsələlər bir yana qalsın…

L.Zurabyan yazır ki, 1991-ci ildə götürülmüş və indiki iqtidar tərəfindən “yanlış oriyentasiya” kimi qələmə verilmiş kurs (Qərb və Rusiya ilə balanslaşdırılmış siyasət təsiri bağışlayan – red.) nəticəsində Ermənistan Qərbdən yalnız 5 il ərzində Qərbin 2021-ci ildən başlayaraq, ölkəyə qarşıdakı səkkiz il üçün vəd etdiyindən 10 dəfə çox dəstək alıb. “Yaxşı, bu, bizim üçün geriləmədir, yoxsa görünməmiş tarixi dönüşdür? Məncə, cavab aydındır”– deyən siyasətçi əlavə edib ki, 9 iyul 2021-ci ildə Avropa İttifaqı növbəti 5 il ərzində Ermənistana 2,6 milyard avro (3,1 milyard dollar) yardım göstərməyə hazır olduğunu bəyan edib. Aprelin 5-dəki görüş zamanı məlum olub ki, bu qərardan üç il sonra Aİ və ABŞ birlikdə Ermənistana müvafiq olaraq 270 milyon avro və 65 milyon dollar verəcəklərini vəd edirlər. Yəni, ümumilikdə, yardım təxminən 360 milyon dollar təşkil edəcək.

L.Zurabyan bildirib ki, Qərb nəinki əvvəllər verdiyi vədləri yerinə yetirməyib, həm də vədlərin məbləğini də 10 dəfədən çox azaldıb. O, bu məqamda Paşinyanın və tərəfdarlarının 1991-ci ildən Ermənistanın “yanlış oriyentasiya” kursu qəbul etməsi və bu səbəbdən Qərbdən adekvat dəstək almadığı iddiasına diqqət çəkib. Siyasətçinin sözlərinə görə, ötən əsrin 90-cı illərində, yəni konkret olaraq prezident Levon Ter-Petrosyan administrasiyasının dövründə Ermənistan ABŞ-dan və Dünya Bankının vasitəçiliyi ilə birbaşa hökumət yardımı alırdı. Zurabyan həmin yardımların statistikasını da açıqlayıb: 1992-ci ildə müvafiq olaraq 75 və 22 milyon dollar, 1993-cü ildə – 172 və 110 milyon dollar, 1994-cü ildə – 160 və 191 milyon dollar, 1995-ci ildə – 115 və 217 milyon dollar, 1996-cı ildə – 135 və 299 milyon dollar, 1997-ci ildə – 99 dollar və 166 milyon dollar. Avropa İttifaqının TACIS proqramı çərçivəsində Ermənistana ayırdığı 49 milyon avro yardımın ümumi məbləği isə 1,8 milyard dollar təşkil edib.

L.Zurabyan 90-cı illərdə Ermənistana edilən yardımı 2024-cü ildə verilən vədlə müqayisə edərkən, 1993-1997-ci illərdə ABŞ dollarının gücünə də diqqət yetirib və bildirib ki, həmin vaxtkı bir dollar bugünkü iki dollara bərabər idi. Yəni, hazırda elan edilmiş vədlər gerçəkləşsə belə, Qərb növbəti 4 il ərzində Ermənistana 180 milyon dollar yardım edəcək ki, bu da qeyd edilən dövrlə müqayisədə azdır: “Nə baş verir? Yaxşı, bu, bizim üçün geriləmədir, yoxsa görünməmiş tarixi dönüşdür? Məncə, cavab aydındır”, – deyən partiya koordinatoru söylədiklərinin heç də Qərbin tənqidi olmadığını vurğulayıb. Onun fikrincə, indiki məqamda Qərb əlindən gələni, məqsədəuyğun hesab etdiyini həyata keçirir. Amma...

Onu da deyək ki, baş nazir N.Paşinyan və onun komandasının üzvləri tez-tez çıxışlarında ölkənin diversifikasiya siyasəti kimi göstərdikləri kursun əhəmiyyətindən söz açarkən, hazırda Rusiyanın imkanlarının Ermənistana dəstək baxımından yetərli olmadığını vurğulayırlar. Onlar bu baxımdan Ukrayna müharibəsinə köklənir və bildirirlər ki, Moskva bütün potensialını savaşa cəmləşdirdiyindən, onun İrəvana kömək göstərməsi mümkünsüzdür. Ancaq o da məlumdur ki, belə tezislər Kreml tərəfindən həmişə inkar olunub və Rusiyanın bütün istiqamətlər üzrə ayrıca fəaliyyət planının mövcudluğu önə çəkilib. L.Zurabyan isə Ermənistan iqtidarının Rusiyanın yardım potensialının yetərsizliyi tezisini Qərbin üzərinə gətirir. Yazır ki, indiki məqamda Qərbin imkanlarını və kömək göstərmək niyyətini ayıq şəkildə qiymətləndirmək lazımdır. Rəsmi İrəvanda isə belə bir qiymətləndirmə yoxdur.

Bəli, partiya koordinatoru Qərbin Ermənistana dəstək göstərmək, lakin bu dəstək məramının ifadəsi üçün resursların çatışmadığına diqqət çəkir. Nəticədə ortada yalnız boş və mənasız görüntünün olduğunu vurğulayır. Ən əsası bu görüntü Paşinyan administrasiyası tərəfindən təbliğ olunur. Təbliğat erməni iqtidarına uğursuzluqlarını ört-basdır etmək imkanı yaradır. Zurabyan mövcud təbliğatı həm də xalqı aldatmaq və onun mənafeyini satmaqla, hakimiyyətdə qalmaq şansı kimi dəyərləndirir. Buna görə siyasətçi hazırda Ermənistanda baş verənlərə görə heç kəsi deyil, birbaşa N.Paşinyanı və onun siyasi ardıcıllarını günahlandırmağın zəruriliyi üzərində dayanır.

Sonda onu deyək ki, N.Paşinyan Qərbin adamıdır və onunla Qərbin idarəçiləri arasında yazılmamış saziş var. Nikol həmin saziş üzrə hərəkət edir. Sazişdə ən əsas vəzifə Cənubi Qafqazda rus təsirini yoxa çıxarmaqdır. Prosesin başlıca aləti qismində erməni avantürizmi çıxış edir. Hazırda Ermənistana yardımlar üzrə müxtəlif təyinatlar açıqlansa da, əslində, bunların hamısı boş şeydir. Qərb İrəvanın anti-Rusiya xəttini maliyyələşdirir. Avantürizmə gəldikdə isə bunun Moskvaya qarşı çıxmaqla yanaşı, digər vacib komponenti var – Azərbaycana ərazi iddiası, 44 günlük müharibə və ondan sonra itirilmişlərin bərpası.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Allahşükür Paşazadə müsəlmanları təbrik edib

**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Ramazan bayramı münasibətilə Azərbaycan və dünya müsəlmanlarını təbrik edib.**



Təbrikdə şeyxülislam Allah-Taaladan hər kəsin oruc ibadətlərinin qəbul, dualarının müstəcab olmasını diləyib.

A.Paşazadə təbrikində, həmçinin bildirib: “Builki Ramazan bayramı bizim üçün daha dəyərli və əlamətdardır. Azərbaycan xalqı bu mübarək ayı Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfər sevinci ilə yanaşı, separatçı rejimin süqutu - müqəddəs bayrağımızın Xankəndidə dalğalanması qüruru ilə qarşılayır. Müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərində qalib Xalq - qalib Lider seçiminin qələbə sevinci bu Ramazanda xeyir-dualarla yad edilib. Azərbaycan tarixində Qarabağ Fatehi və Böyük Qayıdışın müəllifi adı qazanan, ölkəmizin bütün ərazisində suverenliyimizin tam bərpası kimi tarixi vəzifəni yerinə yetirən və prezidentliyinin yeni mərhələsinə qədəm qoyan dövlətimizin başçısı İlham Əliyevə, eləcə də bu çətin yolda yaxın sirdaşı və yoldaşı olan Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və bütün ailə üzvlərinə dindarlarımız adından dərin minnətdarlığımızı bildirir, bu mübarək günlərdə onlara ən böyük İlahi nemət olan cansağlığı, fədakar zəhmətlərinə uğurlar diləyirik”.

Diqqətə çatdırılıb ki, Şamaxı Astrofizika Rəsədxanasının məlumatına görə, bu il Ramazan bayramı aprelin 10-na təsadüf edir. Orucun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günü - Bayram axşamı şam namazından sonradır. Qazılar Şurasının fətvasına görə adambaşına 10-15 manat fitrə zəkatının verilməsi tövsiyə olunur.

Qeyd olunub ki, Azərbaycanın bütün məscidlərində bayram namazları qılınacaq. Bakıda Əjdərbəy məscidində bayram namazının vaxtı saat 08:00, Təzəpir məscidində 09:00-a təyin edilib.

# Bu Ramazan xalqımız üçün düşərli oldu

> **Öz milli və dini dəyərlərinə, tarixi ənənələrinə həmişə sadiq qalmış Azərbaycan xalqı da bütün dünya müsəlmanları ilə həmrəylik göstərərək müqəddəs Ramazan bayramını böyük təntənə ilə qeyd edir. İnanıram ki, müsəlman bacı və qardaşlarımız sülh, əmin-amanlıq, bərabərlik rəmzi olan Ramazan bayramı günlərində mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi yolunda daha böyük əzmkarlıq nümayiş etdirəcəklər.**
>
> **Heydər ƏLİYEV,**
> **Ümummilli lider**
> **5 dekabr 2002-ci il**

**Həqiqətən də, həyatda hər sözün-söhbətin öz yeri və xatırlanmalı məqamı var. Bir sözün yeri aqil yanındadırsa, o birinin yeri də danışanın adına layiq insanların yanında olur. Bir ifadə unudulursa, o biri deyim on illər boyu yaddaşlarda yaşayır. Sanatoriyada tanış olduğum tovuzlu Hacı Yolçu Qəhrəmanovdan eşitdiyim sözlər məhz belə, ömrüm boyu yadımdan çıxmayacaq dəyərə malikdir. O demişdi ki, dünyanın ən məşhur siyasətçilərindən olan Prezident İlham Əliyevin nə zamansa usta və ya fəhlə kimi işlədiyini kiminsə gördüyünə inanmıram: “Amma cənab Prezident işğaldan azad edilmiş Zəngilan şəhərində vəhşi qonşularımızın dağıtdığı məscidin divarlarına daş hörərək, həm usta, həm də fəhlə kimi işlədi. Bilirsiniz bu, nə deməkdir? Bu, bizim liderimizin İslami dəyərlərə verdiyi önəmin zirvəsidir. Mən inanıram ki, Heydər Əliyev siyasəti kimi Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizə olan ləyaqətli münasibəti də elə dinimizin ömrü kimi əsrlərlə davam edəcək”.**



... Azərbaycan xalqının İslami dəyərlərə sədaqətini, göstərdiyi ehtiramın miqyasını sübut etmək üçün xatırladılmalı, saymalı olduğumuz faktlar yüzlərlədir. Yəni sayıb qurtarmaq olmaz. Ancaq bir neçəsini xatırlada bilərik. Görkəmli tarixi şəxsiyyətlərimizdən olan Abbasqulu ağa Bakıxanov və İsmayıl bəy Qutqaşınlı on illər boyu başqa dinin hökmran olduğu ölkənin dövlətinə xidmət etsələr də, sonda hərbi mundiri soyunaraq, Məkkə ziyarətinə gediblər. Ulu öndər Heydər Əliyev isə hətta, allahsızlar, dinsizlər tərəfindən idarə edilən dövlətdə on illər boyu ən yüksək məqamlarda çalışsa da, sonda Məkkəni ziyarət etmişdir. Ümummilli liderimiz dəfələrlə demişdi ki, mən imanımı heç vaxt itirməmişəm, mənsub olduğum millətin İslam dini ilə həmişə fəxr etmişəm. Fikrimcə, bu, ayrı-ayrı fərdlərimizin xüsusi keyfiyyətləri olsa da, bütövlükdə, xalqımızın qanındakı, ürəyindəki İslam sevgisinin təzahürüdür.

Elə Prezident İlham Əliyev də həm atası – mərhum Heydər Əliyevlə birgə, həm də sonradan özü dövlət başçısı seçiləndən sonra dəfələrlə Məkkə ziyarətində olmuşdur. Bəzi statistikalara üstünlük verən həmkarlarımız yazırlar ki, Prezident İlham Əliyevin bir ildə dörd dəfə səfər etdiyi ölkə məhz Səudiyyə Ərəbistanı olmuşdur. (Həmin səfərlərdən biri beynəlxalq tədbirdə, biri mərhum kralın dəfnində iştirak etmək üçün, ikisi isə rəsmi səfər olmuşdu).

Yadımdadır, 1998-ci il iyulun 12-də Bibiheybət Məscid – Ziyarətgah Kompleksinin birinci hissəsinin açılış mərasimində nitq söyləyən Ulu öndər həmin tədbirdən məmnunluğunu dilə gətirməklə yanaşı, xalqımızın mənəvi dəyərlərə verdiyi önəmlə də fəxr etdiyini söyləmişdi: “Biz fəxr edirik ki, İslamı təmsil edən müqəddəs yerlərdən Azərbaycanda da vardır. Bu müqəddəs yerlərdən ən əzizi bu gün bizim toplaşdığımız yer – həzrəti Hökumənin qəbri, bu qəbrin üzərində vaxtilə ucaldılmış məscidin olduğu yerdir. Allaha, İslama sadiq olan insanlar 700 il bundan öncə bu yerdə böyük məscid qurub-yaradıblar və bura Allah evi, İslam məbədi kimi daha da geniş vüsət alıbdır, ziyarətgah olubdur. Müsəlmanlar, azərbaycanlılar 700 il həmin məsciddə, bu müqəddəs yerdə Allaha dua ediblər, mənəvi arzularını yerinə yetiriblər, öz dininə, əxlaqına, mənəviyyatına sadiq olduqlarını nümayiş etdiriblər. İslam dini insanlarda ən yüksək keyfiyyətləri tərbiyə etməyə, formalaşdırmağa çalışıbdır”.

Həmin ziyarətgah kompleksinin on il sonra – 2008-ci il iyulun 13-də tamamilə yenidən qurulub istifadəyə verilməsi mərasimində çıxış edən Prezident İlham Əliyev isə xatırlatmışdı ki, 1993-94-cü illərdə bizim dövlət büdcəmiz çox məhdud idi, əlavə imkanlarımız da yox idi, xəzinədə 1 manat vəsait də yox idi. Buna baxmayaraq, 1994-cü ildə Qurban bayramında Heydər Əliyev buranı ziyarət etmişdi və göstəriş vermişdi ki, burada məscidin binası tikilsin. Ondan sonra layihələndirmə işləri başlamışdır, layihə hazırlanmışdır və 1997-ci ildə Məhəmməd Peyğəmbərin (s.) mövludu günündə Heydər Əliyevin iştirakı ilə məscidin bünövrəsi qoyulmuşdur.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, İslam dini Azərbaycan xalqının formalaşmasında çox mühüm rol oynamışdır və bu gün bizim dini abidələrimiz bərpa olunur. Dövlət başçımız 2013-cü il mayın 17-də Şamaxı Cümə məscidinin əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilmə mərasimindəki nitqində demişdir ki, Azərbaycanın hər bir rayonundan din xadimləri bu gün buradadırlar: “Əslində, bu gün bütün Azərbaycan buradadır, Şamaxıdadır, Şamaxı Cümə məscidinin açılışında iştirak edir”.

Xatırladaq ki, həmin məscidin Azərbaycan tarixində xüsusi yeri var. Çünki, Azərbaycanın ən qədim məscididir. Bu məscid 743-cü ildə tikilmişdir. Azərbaycanda, bütün Qafqazda İslam dininin yayılmasında Şamaxı Cümə məscidinin çox böyük rolu olmuşdur. Dövlət başçımız xatırladır: “Əfsuslar olsun ki, təbii fəlakətlər nəticəsində məscid iki dəfə dağıntılara məruz qalmışdır. 1859-cu və 1902-ci illərdə Şamaxıda baş vermiş güclü zəlzələlər nəticəsində məscidin böyük hissəsi dağılmışdır. Ondan sonra 1918-ci ilin mart ayında soyqırımı zamanı bu məscid vəhşi erməni quldur dəstələri tərəfindən yandırılmışdır. Bu məsciddə sığınacaq tapmaq istəyən mindən yuxarı günahsız insan – onların arasında uşaqlar və qadınlar da olmuşdur – ermənilər tərəfindən yandırılmışdır”.

Prezident əlavə etmişdi ki, son 10 il ərzində ( yəni 2013-cü ilə qədər olan dövrdə) Azərbaycanda 200-dən çox məscid tikilmiş, 80-dən çoxu təmir edilmişdir: “Hazırda xalqımız üçün böyük əhəmiyyət daşıyan İmamzadə Dini-Tarixi Memarlıq Abidəsi bərpa edilir. Bakının Binəqədi rayonunda Azərbaycanın ən böyük məscidi inşa olunur... İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini sahədə aparılan işləri çox yüksək qiymətləndirir”.

Prezident İlham Əliyev İslami dəyərlərə olan ehtiramını təkcə ölkə daxilində göstərmir. Heç kəsin yadından çıxmayıb, 2012-ci ilin sentyabr ayında dünyanın ən böyük muzeyi olan Parisdəki Luvr muzeyində İslam mədəniyyəti bölməsinin açılışı olmuşdur. Azərbaycan bu bölmənin yaradılması üçün öz dəstəyini vermişdir. Prezident xatırladır ki, bu, əslində, bizim bütün İslam mədəniyyətinə olan töhfəmizdir. Eyni zamanda, Vatikanda ilk dəfə olaraq müsəlman ölkəsinin sərgisi keçirilmişdir.

Təbii ki, bütün bunlar bizim üçün fəxr etməli faktlar və məqamlardır. Ancaq iş elə gətirib ki, biz xalqımıza bu faktlardan üç dəfə, beş dəfə artıq sevinc gətirən, hətta on milyonlarla soydaşımızı qürrələndirən faktlara da şahidlik edə bildik. Bu, işğaldan azad edilən – qüdrətli dövlətimizin üçrəngli bayrağı qaldırılan şəhər və kəndlərimizdə azan səsləndirilməsi idi. Qeyd etdiyim kimi həmin tədbirlər bütün soydaşlarımız üçün qürur mənbəyidir. Mən isə ayrılıqda ona görə fəxr edirəm ki, Şuşa azad ediləndən sonra orada qılınan ilk namazın İmam xütbəsi anamın əmisi nəvəsi Elgün Mehrəliyev olmuşdur. Ancaq daha böyük fəxr etməli olduğumuz arqument odur ki, bu il Xankəndi və Xocalıda da Ramazan bayramı namazları qılınacaq. Allah qəbul eləsin!

İslami dəyərlərdə gözəl əxlaq əsas götürülür, dini etiqad və adətlər adamları pis işlərdən çəkindirir. Bunu nəzərə alan ulu öndər tövsiyə edirdi ki, İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı səmərəli istifadə etməli və xüsusən, cəmiyyətdə davranışda şəriətimizin tələblərinə uyğun olaraq özünü göstərməlidir. Yəni hər birimiz kamil əxlaqa sahib olmalıyıq. Çəkinmədən deyə bilərik ki, xalqımız həmin kamil əxlaqın nümunəsini 44 günlük İkinci Qarabağ müharibəsi günlərində nümayiş etdirdi.

Sonda onu da xatırladaq ki, bəzi dövlətlərin dindən alət kimi istifadə edərək, müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın daxili işlərinə qarışmaq cəhdləri bizim siyasi-diplomatik addımlarımızla tamamilə puç edilir. Çünki həm müqəddəs dinimiz, həm də Azərbaycan dövləti başqa dinlərə qarşı heç zaman düşmən münasibəti bəsləməyib və bəsləməyəcək. Əksinə, dövlətimiz dəfələrlə bütün dinlərin təmsilçilərini bir araya gətirərək, sivilizasiyalararası dialoqlara evsahibliyi edir. Bu isə, ilk növbədə, bizim öz dinimizə verdiyimiz töhfələrdir.

Ramazan bayramımız mübarək olsun!

**İttifaq MİRZƏBƏYLİ**

**D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının yaranma ideyası bu qurumun 1996-cı il oktyabrın 22-də İstanbulda keçirilən ilk toplantısında irəli sürülüb. 1997-ci il iyunun 15-də isə həmin şəhərdə reallaşan dövlət və hökumət başçılarının Zirvə görüşündə adıçəkilən format təsis edilib.**

Hazırda D-8 qurumuna Türkiyə, İran, Pakistan, Banqladeş, Malayziya, İndoneziya, Misir və Nigeriya daxildir. Təşkilata daxil olan Türkiyə və İndoneziya “Böyük iyirmilər”in (G-20) üzvüdür. D-8-in fəaliyyətinin əsas məqsədi isə üzv ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək, iqtisadi və sosial sahələrdə əlaqələri gücləndirməkdir.

Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 2017-ci il oktyabrın 20-də qurumun İstanbulda “Əməkdaşlıq yolu ilə imkanları artırmaq” devizi altında keçirilən IX Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib.

# Türkiyə Azərbaycanın D–8-ə üzvlük müraciətini dəstəkləyir

## Bəs bu təşkilata daxil olmaq ölkəmizə nə vəd edir?




Həmin görüşdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında üç qitədə yerləşən ölkələri əhatə edən D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının son 20 ildə fəaliyyətinin uğurlu olduğunu vurğulayaraq dünyada baş verən gərginliklər fonunda Zirvə görüşünün keçirilməsinin önəmini qeyd edib. Daha sonra isə son illər müsəlmanların yaşadıqları bölgələrdə baş verən münaqişələrin, təbii fəlakətlərin ciddi fəsadlarla nəticələndiyini deyən qardaş ölkənin Cümhurbaşqanı qlobal ədalətsizliyin azalmaq əvəzinə, daha da genişləndiyini təəssüflə bildirib. Eyni zamanda, dünyada İslamla terrorizmin əlaqələndirilməsi cəhdlərinin, islamofobiyanın və ksenofobiyanın artdığını, miqrant böhranının dərinləşdiyini vurğulayıb.

Türkiyə Prezidenti çıxışında, eyni zamanda, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı dövlətlərinin dinamik artan əhaliyə, zəngin təbii sərvətlərə, sürətli inkişafa malik olduqlarını, sözügedən quruma üzv ölkələrin bu potensialdan tam səmərəli istifadə etmələri nəticəsində qarşılıqlı ticarət dövriyyəsinin hazırkı 100 milyard dollardan qısa müddətdə 500 milyard dollara çatdırıla biləcəyini deyib. Cümhurbaşqanı, həmçinin iqtisadiyyat, ticarət, nəqliyyat, müdafiə sənayesi, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulayaraq D-8 üzvlərinin sayının artırılmasının, qarşılıqlı ticarətin milli valyutalarla aparılmasının təşkilatın daha da güclənməsinə imkan yarada biləcəyini diqqətə çatdırıb.

Dövlətimizin başçısı isə çıxışında Azərbaycanın D-8-in üzvü olmamasına baxmayaraq, Prezident Rəcəb Tayyib Ərdoğanın ölkəmizi bu tədbirə dəvət etdiyinə görə öz qardaşına dərin təşəkkürünü bildirib və bunu Azərbaycan-Türkiyə qardaşlıq və dostluğunun bariz nümunəsi kimi dəyərləndirib.

Yeri gəlmişkən, Azərbaycan bu təşkilata üzvlük məsələsini həmin vaxtdan diqqətdə saxlayıb. Lakin indiyədək real nəticə əldə olunmayıb. Bu il fevralın 19-da Ankarada dövlətimizin başçısı İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşündə Cümhurbaşqanı üzvlüklə bağlı sözügedən məqama aydınlıq gətirərək deyib: “İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və D8 formatı iqtisadi və ticarət sahəsindəki əməkdaşlığımızı taclandıran digər önəmli regional təşkilatlardır. Xüsusilə İqtisadi Əməkdaşlıq Təşkilatının malik olduğu potensialdan daha çox istifadə edəcəyimizə inanıram.

Azərbaycanın D8-ə üzvlük müraciətini də ən güclü şəkildə dəstəkləyirik. Bəzi tərəddüdləri olan Misir başda olmaqla, D8 üzvləri arasında bu istiqamətdə təşəbbüslər irəli sürdüm və irəli sürməkdə də davam edəcəyik”.

Maraqlıdır, görəsən, Misirin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sözləri ilə desək, Azərbaycanın D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olmasında tərəddüdləri nə ilə bağlıdır? Ekspertlərin fikrincə, Misirin Azərbaycanı bu təşkilat daxilində görmək istəməməsi, ilk növbədə, bu dövlətin ölkəmizə olan qısqanclığından irəli gələ bilər. Çünki Azərbaycan zəngin neft-qaz ehtiyatlarına malikdir. Həmçinin D-8 üzvü olan Pakistanla da güclü dostluq əlaqələrinə malikdir. Digər tərəfdən, Misir liderində Azərbaycanla Türkiyənin strateji əməkdaşlığının bu təşkilatın daxilində aparıcı mövqeyə çevrilə biləcəyi narahatlığı da ola bilər. Başqa sözlə, Misir bəlkə də Türkiyə–Azərbaycan və Pakistan arasında sıx dostluq və əməkdaşlıq münasibətlərinin mövcudluğu nəticəsində bu təşkilatda dominantlığın sözügedən üçlüyə keçə biləcəyindən əndişələnir. Çox şübhəsiz ki, bu məsələdən Misirlə bərabər təşkilata üzv olan İran da qayğılanır.

Bu məqamda Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin 2024-cü il fevralın 21-də dövlətimizin başçısı İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubunda yer alan sözləri diqqətə çatdırmaq istərdik: “İnamlı qələbəniz Azərbaycan xalqının Sizin müdrik rəhbərliyinizə göstərdiyi etimadın və dəstəyin sübutudur. Bu, həm də Azərbaycan xalqının Sizin ölkəni inkişaf və tərəqqi yoluna aparmaq bacarığınıza inamını bir daha təsdiq edir. Əminəm ki, yenidən prezident seçilməyiniz Azərbaycanın regional və beynəlxalq nüfuzunu daha da möhkəmləndirəcək.

Cənab Prezident, mən Sizinlə əməkdaşlıq və koordinasiya sayəsində qarşıdakı dövrdə Misir-Azərbaycan münasibətlərinin yüksəlişinin şahidi olacağımı səbirsizliklə gözləyirəm”.

Bax, iki ölkə arasında münasibətlərin bu şəkildə dəyərləndirilməsindən sonra respublikamızın D8-ə üzvlük müraciətində Misirin bəzi tərəddüdlərinin arxasında hansı amillərin dayandığı anlaşılmır.

Ekspertlərin sözlərinə görə, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının adındakı “D” ingilis dilindəki “Developing” (inkişaf etməkdə olan) sözünün baş hərfidir, yəni bu format 8 dövləti adıçəkilən qurum daxilində bir araya gətirən təşkilatdır. Onun üzvləri İslam Əməkdaşlıq Təşkilatında yer aldıqlarından və müsəlman ölkələri olduqlarından D-8 bir sıra hallarda, həm də “İslam İttifaqı” da adlandırılır. Azərbaycanın isə bu təşkilatda təmsil olunmasına isə, necə deyərlər, tam haqqı çatır. Əvvəla, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasına geniş həcmdə investisiyalar yatırır. Belə bir sərmayə qoyuluşu isə Avrasiyanın, o cümlədən D-8 ölkələrinin iqtisadi inkişafını şərtləndirir.

Yeri gəlmişkən, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı tərəfindən “2020-2030 D-8 10 illik Yol Xəritəsi” adlı sənəd qəbul edilib. Sənəddə 3 mərhələli inkişaf strategiyasının gerçəkləşdirilməsi nəzərdə tutulub. Birinci mərhələdə, yəni 2020-2022-ci illərdə ticarət, kənd təsərrüfatı, qida təhlükəsizliyi, sənaye əməkdaşlığı və kiçik biznesin inkişafı, nəqliyyat, turizm, səhiyyə sahəsində əməkdaşlığı əhatə edən yol xəritələrinin hazırlanması, həmçinin dəyişən dünyanın şərtlərində mövcud beynəlxalq mexanizmlərin yenidən gözdən keçirilməsi planlaşdırılıb. Sonrakı dövrdə–2023-2027-ci illərdə (ikinci mərhələdə) üzv ölkələr arasında ticarət əlaqələrinin dərinləşməsi və daha əvvəlki dövrdə müəyyən olunan 6 istiqamətdə əlaqələrin inkişafının reallaşdırılması nəzərdə tutulub. Nəhayət, sonuncu mərhələdə–2028-2030-cu illər ərzindəki isə həyata keçirilən layihələrin dəyərləndiriləcəyi və üzv ölkələrin daxili ticarət dövriyyəsinin ümumi ticarət dövriyyəsinin 10 faizinə çatdırılacağı qarşıya mühüm vəzifə kimi qoyulub.

Bəs Azərbaycan bu təşkilata qoşulması ilə nə əldə bilər? İqtisadçı Samir Heydərovun sözlərinə görə, D-8 dünyada böyük iqtisadi potensiala malik bir təşkilat kimi tanınır. Üzv ölkələrdə, təqribən, 1,1 milyard insan yaşayır. 8 ölkənin iqtisadiyyatının həcmi, təxminən, 3, 8 trilyon dollar təşkil edir. Üzv ölkələrin ticarət dövriyyəsi isə 1,6 trilyon dollar səviyyəsindədir. Yəni dünya ticarət dövriyyəsinin 4,5 faizini təşkil edir.

Azərbaycanın D-8 ölkələrinin böyük əksəriyyəti ilə həm ikitərəfli, həm də beynəlxalq qurumlar çərçivəsində yüksək səmərəliliyi il diqqət çəkən münasibətləri mövcuddur. Ölkəmizin adıçəkilən quruma üzv olacağı təqdirdə isə bu əməkdaşlıq daha da güclənəcək. Eləcə də, ölkəmiz təşkilatın potensialından qarşılıqlı əməkdaşlıq üçün səmərəli istifadə edəcək.

Beləliklə, son illər tarixi uğurları ilə dünyada böyük nüfuz qazanan, bir sıra güc mərkəzlərinin isə məhz bu inkişafa görə qısqanclıqla yanaşdığı Azərbaycanın bu təşkilata üzv seçilməsi onun həm iqtisadi yüksəlişində, həm də regional problemlərinin həllində bəzi üstünlüklər, xüsusilə manevr imkanları əldə edə bilər.

**Vaqif BAYRAMOV**
**XQ**

# Bakı-Tbilisi-Qars dəmir yolunda tranzit gömrük prosedurları asanlaşdırılır

*Bununla bağlı Azərbaycan, Türkiyə və Gürcüstan arasında imzalanan sənəd təsdiqlənib*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan, Gürcüstan və Türkiyə hökumətləri arasında Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsi çərçivəsində tranzit gömrük prosedurlarının asanlaşdırılması məqsədilə ilkin məlumat mübadiləsini nəzərdə tutan sazişi təsdiqləyib. Mediada yayılan məlumata əsasən, sənəd Türkiyə Respublikasının "Rəsmi qəzet"ində dərc olunub.**



Xatırladaq ki, adıçəkilən sazişin məqsədi Azərbaycan, Türkiyə və Gürcüstanın ərazisindən keçməklə BTQ dəmir yolu layihəsi çərçivəsində tranzit qaydada daşınan yüklərə dair gömrük prosedurlarının asanlaşdırılması üçün ilkin məlumatların elektron mübadiləsinin həyata keçirilməsidir.

Saziş Trans-Avropa və Trans-Asiya dəmir yolu dəhlizlərini birləşdirən BTQ dəmir yolu vasitəsilə yüklərin fasiləsiz, vaxtında və səmərəli şəkildə daşınması baxımından mühüm imkanlar yaradacaq. Belə ki, mallar haqqında ilkin məlumatların elektron mübadiləsi təşkil edilməklə gömrük prosedurları sadələşdiriləcək, sərhədkeçmə prosesləri sürətlənəcək. Eyni zamanda, qarşılıqlı razılaşdırılmış müasir gömrük nəzarəti metodları hesabına vaxta qənaət ediləcək ki, bu da yüklərin rahat keçidinə şərait yaradacaq. Nəqliyyat dəhlizlərinin cəlbediciliyinin artırılması baxımından da mühüm əhəmiyyət daşıyan saziş iqtisadi operatorlar, eləcə də limanlar üçün logistika imkanlarının artmasına müsbət təsir göstərəcək, ölkəmizin və regionun tranzit potensialının daha da genişləndirilməsində mühüm rol oynayacaq.

Qeyd edək ki, dövlətimizin başçısının Azərbaycanın tranzit potensialının artırılması ilə bağlı son illərdə verdiyi sərəncam və tapşırıqlara əsasən, gömrük xidməti bu sahədə üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi üçün hazırda bütün zəruri addımları atır, bu istiqamətdə genişmiqyaslı layihələr gerçəkləşdirir. Hər üç ölkənin iştirakı ilə imzalanan sözügedən saziş də beynəlxalq ticarət-təchizat zəncirinin davamlılığının təmin olunmasına, tarixi İpək yolunun əhəmiyyətinin artmasına, yeni çağırışlar əsasında gömrük nəzarətinin həyata keçirilməsinə əlavə imkanlar yaradır. Belə şərait isə polad magistral vasitəsilə daşınan yüklərin sərhəd-buraxılış məntəqələrində ləngiməsinin qarşısını alır, nəqliyyat dəhlizlərinin cəlbediciliyi artırır, əvvəlcədən aparılan ilkin məlumatların elektron mübadiləsi hesabına gömrük prosedurlarını asanlaşdırır və mallar vaxtında təyinat nöqtəsinə çatdırılır.

Bir sözlə, sözügedən saziş BTQ dəmir yolunun potensialının genişlənməsi, region ölkələrinin ticarət əlaqələrinin artırılması, yükdaşımalarda vaxta və vəsaitə qənaət baxımından mühüm əhəmiyyətə malikdir. BTQ dəmiryolu vasitəsilə yükdaşımaların artması Asiya ilə Avropanı birləşdirən Orta Dəhlizin cəlbediciliyinin və rəqabətqabiliyyətliliyinin də gücləndirilməsində mühüm rol oynayır.

Yeri gəlmişkən, Türkiyənin ticarət nazirinin müavini, Gömrük İdarəsinin rəhbəri Rıza Tuna Turagay yuxarıda adıçəkilən sazişin imzalanma ərəfəsində bildirmişdi ki, ölkələr arasında sadələşdirilmiş gömrük xidmətinin tətbiqini həyata keçirməklə, həmçinin əvvəlcədən məlumat mübadiləsini təmin etməklə risk analizlərinin paylaşılması planlaşdırılır: "Risk analizlərinin paylaşıldığı zaman isə nəzarət təkrarlanmayacaq, ancaq səmərəli və yerində nəzarət gücləndiriləcək. Azərbaycan, Gürcüstan və Türkiyənin gömrük idarələri isə eyni nəzarəti həyata keçirir. Bu isə bir sıra hallarda vaxt itkisinə səbəb olur.

Hazırda hər üç ölkənin gömrük nəzarəti infrastrukturu qurulur, bununla bağlı müəyyən layihələr reallaşdırılır. Bundan əsas məqsəd isə ticarətdə uğurlar əldə etməkdir".

Ümumiyyətlə, Azərbaycan-Türkiyə-Gürcüstan arasında imzalanan sözügedən saziş BTQ dəmir yolu xəttində yükdaşımaların həcminin artırılmasını nəzərdə tutur. Türkiyənin Ticarət və İnfrastruktur nazirlikləri bu məsələyə çox önəm verir. BTQ dəmir yolu xəttinin daha səmərəli şəkildə istifadə edilməsi qarşıda mühüm vəzifə kimi durur. Gün ərzində 40-45 konteynerin daşınması kifayət etmir. Azərbaycanla Türkiyə arasında ticarətdə quru yollar əsas rol oynayır. Ölkəmizlə həyata keçirilən ticarət əlaqəsinin 80 faizi quru yollarla reallaşır.

Xatırladaq ki, BTQ dəmir yolu xətti 2017-ci il oktyarın 30-da istifadəyə verilib. Polad magistral Asiya və Avropanın dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu, təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. BTQ dəmir yolu yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir. Bu polad magistral Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

Ümumi uzunluğu 846 kilometr olan xəttin 504 kilometrlik hissəsi Azərbaycan ərazisindən keçir. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstandan keçir, 79 kilometri isə Türkiyə ərazisindədir. Polad magistral vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, nəhatət, daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur.

***V.BAYRAMOV***
***XQ***



## Birinci rübdə 6 milyon ton neft və 6,4 milyard kubmetr qaz ixrac olunub

**Operativ məlumatlara əsasən, cari ilin yanvar-mart aylarında ölkə üzrə neft-kondensat hasilatı 7,3 milyon ton, ixraca nəql edilən həcmlər isə 6 milyon ton təşkil edib.**

Bu barədə energetika naziri Pərviz Şahbazov özünün "X" sosial şəbəkəsindəki paylaşımda qeyd edib. Nazir bildirib ki, bu dövrdə 400 milyon kubmetr artımla hasil edilmiş 12,6 milyard kubmetr qazın 6,4 milyard kubmetri ixrac olunub.

P. Şahbazovun dediyinə görə, cari ilin birinci rübündə Avropaya 3,2 milyard kubmetr, Türkiyəyə 2,3 milyard kubmetr, Gürcüstana isə 0,9 milyard kubmetr qaz ixrac edilib. O bildirib ki, hesabat dövründə TANAP-la Türkiyəyə 1,3 milyard kubmetr qaz nəql olunub.

## Laçın şəhəri və Zabux kəndində 748 sakinin məşğulluğu təmin edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi və Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə Laçın rayonunda fəaliyyət göstərən işəgötürənlərlə növbəti görüş keçirilib.**



Görüşdə Laçın şəhərində və rayonun Zabux kəndində məskunlaşan 748 nəfərin məşğulluğunun təmin edildiyi bildirilib. Həmin şəxslərdən bir qrupu öz özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar qurulduğu diqqətə çatdırılıb.

Tədbirdə iştirakçılara Dövlət Məşğulluq Agentliyinin fəaliyyət istiqamətləri, rəqəmsal layihələri, işəgötürənlərlə bağlı proqramlar barədə məlumat verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***XQ***



## "Yaşıl enerji" ehtiyatları 567 meqavat artıb

**Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) 2024-cü il üzrə hesabatına əsasən, Azərbaycan 2014-2023-cü illər ərzində "Yaşıl enerji" ehtiyatlarını 567 meqavat artıraraq 1688 meqavata çatdırıb.**

Sənədə görə, 2023-cü ildə respublikada hidroenergetika gücü 2014-cü illə müqayisədə 224 meqavat artaraq 1302 meqavata çatıb. Hesabat dövründə külək enerjisinin gücü 2014-cü ildəki 3 meqavatdan 2023-cü ildə 67 meqavata, günəş enerjisi 2 meqavatdan 282 meqavata yüksəlib. "Yaşıl enerji"nin digər hissəsi isə bərk bioyanacaq, bərpa olunan tullantılar, bioqazla işləyən güclərdən alınan bərpaolunan ehtiyatın payına düşüb.

Azərbaycanın enerji sistemində bərpaolunan enerji mənbələrinin (o cümlədən su elektrik stansiyaları) payı 2014-cü ildəki 15,2 faizdən 2023-cü ilin sonuna 20,3 faizə yüksəlib.

## Dövlət zəmanəti ilə 3 milyard manatdan çox kredit verilib

**İpoteka və Kredit Zəmanət Fondu (İKZF) tərəfindən ölkədə indiyədək 49 min 276 borcalana 3 milyard 8 milyon manat məbləğində kredit verilib. İKZF-nin bununla bağlı yaydığı açıqlamada bildirilib ki, ötən müddətdə 439 milyon 716 min manat məbləğində biznes kreditlərinə zəmanət verilib, 4427 mənzil isə kirayəyə vermək yolu ilə realizə edilib.**



Qeyd edək ki, İKZF 2017-ci ilin sonunda "Azərbaycan İpoteka Fondu" və "Kredit Zəmanət Fondu" açıq səhmdar cəmiyyətlərinin birləşməsi nəticəsində yaradılıb.

Həmin qurumların hüquqi varisi olan fond milli maliyyə təsisatlarına uzunmüddətli subsidiyalaşdırılmış ipoteka kreditlərinin verilməsi və ucuz maliyyə resurslarına çıxışın təmin edilməsi ilə bağlı likvidlik dəstəyini verən dövlət agenti kimi fəaliyyət göstərir.

***XQ***

# Arıçılıq məhsullarının istehsalında artım gözlənilir

**2024-cü ildə Azərbaycanda arıçılıq sahəsində məhsuldarlığın ötən ilə nisbətən təxminən 50 faiz çox olması gözlənilir. Bu barədə Azərbaycan Arıçılar Assosiasiyasının sədr müavini Rəşad Rəşidov məlumat verib. Onun sözlərinə görə, 2023-cü ildə arıçılıq məhsullarının istehsalı əvvəlki ilə nisbətən 50 faiz azalsa da, bu il məhsuldarlığın yenidən 2022-ci il səviyyəsinə çatacağı proqnozlaşdırılır.**

Məlum olduğu kimi, arıçılıq kənd təsərrüfatının ən gəlirli sahələrindən biridir. Özü də Azərbaycanda istehsal olunan bal keyfiyyəti ilə seçildiyi üçün bazar problemi ilə üzləşmir. Bu səbəbdən də son illər ölkəmizdə arıçılığın inkişaf etdirilməsi ilə bağlı mühüm tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin müvafiq fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə əsasən, kənd təsərrüfatının ənənəvi sahələrindən olan arıçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi, kənd əhalisinin sosial rifahının daha da yaxşılaşdırılması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən zəruri işlər görülür.

Bundan əlavə, "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" ölkə Prezidentinin 2018-ci il 5 mart tarixli sərəncamı da sözügedən sahəyə marağı xeyli artırıb. Belə ki, sənədə əsasən, ölkədə arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə 10 manat subsidiya müəyyən edilib ki, bu da arıçılığın inkişafını stimullaşdırmaqla yanaşı, kənd yerlərində kiçik sahibkarlığın dəstəklənməsi və məşğulluğun təmin edilməsinə şərait yaradıb, bu sahədəki potensialdan istifadə imkanlarını bir qədər də genişləndirib. Təkcə onu qeyd etmək kifayətdir ki, 2000-2005-ci illərdə ildə Azərbaycanda 600 ton bal istehsal edilmişdisə, sonrakı illərdə bu sahədə kəskin artım baş verib. Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə ölkədə 2,6 min ton, 2017-ci ildə 3 min ton bal istehsal olunub. 2021-ci ildə 2017-ci illə müqayisədə arı ailələrinin sayı 2,3 dəfə, bal istehsalı isə 2,2 dəfə artıb. Bütövlükdə, "Arıçılıq haqqında" qanunun qəbul edildiyi dövrdən sonrakı illərdə ölkədə arı ailələrinin sayı 4,4 dəfə, bal istehsalı 4,8 dəfə artıb. Bununla yanaşı, ötən müddətdə arıçılıqla məşğul olan təsərrüfatların hər birinə orta hesabla düşən arı ailələrinin sayı 11,1-dən 18,8-dək yüksəlib. 2022-ci ildə isə ölkədə mövcud olan 32 min 933 təsərrüfatda cəmləşən 656,1 min arı ailəsi hesabına 7 min 446 tona yaxın bal istehsal edilib ki, bu da əvvəlki ilə nisbətən 9,5 faiz çoxdur. Bu, həm də müstəqillik illərində arıçılıq sahəsi üçün rekord göstərici sayılır.

Bununla belə, 2023-cü ilin əvvəllərində Azərbaycanda arı ailələrinin sayı 2022-ci ilə (620 min) nisbətən artaraq 650 minə çatsa da, bal istehsalında kəskin azalma qeydə alınıb. Belə ki, ötən il ölkədə cəmi 3500 ton məhsul istehsal olunub ki, bu da son illərdə qeydə alınmış ən aşağı göstəricidir. Mütəxəssislər bunun əsas səbəbini havaların arıçılıq üçün son dərəcə əlverişsiz keçməsi ilə əlaqələndirirlər. Onların fikrincə, ötən il yaz aylarından yayın əvvəlinə qədər hava şəraitinin soyuq və yağıntılı keçməsi səbəbindən arıların nektar toplaması gecikib.

Ötən ilin arıçılıq üçün münasib dövr olmaması ölkədə arı ailələrinin sayına da təsirsiz ötüşməyib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü il yanvar ayının 1-nə Azərbaycanda 597 min 336 arı ailəsi mövcud olub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 54,8 min və ya 8,4 faiz azdır. Mövcud arı ailələrinin 3314-ü kənd təsərrüfatı ilə məşğul olan müəssisələrin,



499-u fərdi sahibkarlıq təsərrüfatlarının, 593 min 523-ü isə ailə və ev təsərrüfatlarının payına düşüb. Yeri gəlmişkən, haqzırda ən çox arı ailəsi Kəlbəcər (41 min 234), Zaqatala (34 min 414), Balakən (30 min 884) və Qax (30 min 823) rayonlarında yerləşir.

Arı ailələrinin sayının bir qədər azalmasına baxmayaraq, 2024-cü ildə ölkədə arıçılıq məhsullarının istehsalında artım gözlənilir. Arıçılar Assosiasiyasının sədr müavini R. Rəşidovun dediyinə görə, bu il iqlim şəraitinin ötən ilə nisbətən əlverişli olması arıların daha yaxşı inkişaf etməsinə, bu isə öz növbəsində, məhsuldarlığın artması üçün münbit şəraitin yaranmasına səbəb olub. Bununla belə, arıcılıq sahəsində əldə edilmiş göstəricilər mövcud potensialı tam əks etdirmir. Ekspertlərin fikrincə, Cənubi Qafqazda nektar verən bitki örtüyünün 61 faizi məhz Azərbaycanın payına düşür. Eyni zamanda, ölkəmizdə 640-dan çox dağ-çəmən və yaylaq bitkisi mövcuddur ki, bu da keyfiyyətli arıçılıq məhsullarının yetişdirilməsinə imkan yaradır. Elə ekspertlər də Azərbaycan balının keyfiyyətinə görə dünya bazarında bir çox bal növləri ilə rəqabət apara biləcəyi qənaətindədirlər.

Ölkədə arıçılığın daha da inkişaf etdirilməsi üçün arı ailələrinin sayının artırılması ilə yanaşı, məhsuldarlığının yüksəldilməsi, damazlıq-seleksiya işlərinin yaxşılaşdırılması hədəf seçilib. Bununla yanaşı, son illər ölkədə ənənəvi xarakter almış arıçılıq məhsullarının sərgi-satış yarmarkalarının təşkili təsərrüfat sahiblərinin maddi imkanlarının yaxşılaşmasına şərait yaradır.

Yeri gəlmişkən, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində də arıçılığın inkişaf etdirilməsi üçün əlverişli imkan var. Buna görə də son illər arıçılar təsərrüfatlarını həmin ərazilərə köçürməyə daha çox maraq göstərirlər. Bu məsələdə dövlət dəstəyi də onlara əlavə stimul yaradır. Məhz bunun nəticəsidir ki, son illər təsərrüfat sahibləri arı ailələrini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərinə köçürürlər. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, 2023-cü ilin yaylaq mövsümündə işğaldan azad olunmuş ərazilərə 125 minə yaxın arı ailəsi aparılıb. Bu da öz növbəsində keyfiyyətli bal istehsalı ilə yanaşı, məhsuldarlığın artırılmasına geniş imkanlar yaradır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Böyük qəlbli insanlar

***(Görkəmli hüquqşünas Əli Məhərrəmovun anadan olmasının 100 illiyinə ithaf)***

**O, 1924-cü il aprelin 12-də qədim Oğuz yurdu füsunkar Göyçədə dünyaya gəlib. Yetkinlik yaşına çatana qədər Əli Hüseyn oğlu Məhərrəmovun həyatının necə keçdiyi haqqında heç bir məlumatım yoxdur. Ancaq 17 yaşdan sonrakı həyatı məlumdur. 1942-ci ildə nəhəng Sovetlər ölkəsinin ucqar əyalətində yaşayan gənc Əli Hüseyn oğlu Göyçə gölünün sahilindəki balaca Dərə kəndindən çıxıb, dəliqanlı kənd uşaqları ilə birgə Rusiyanın geniş çöllərinə, faşizmə qarşı döyüşə yollanıb. Cəbhədə müharibənin bütün məhrumiyyətlərini yaşayıb, boğazından ağır qəlpə yarası alıb, səhra hospitalında uzun müddət ölümlə çarpışıb, müalicədən sonra həkimlərin israrına baxmayaraq, tərxis olunmaq istəməyib. Tam qələbəyədək müharibənin içində qalıb, zenit batareyasında topçu yoldaşları ilə birgə döyüşə-döyüşə Ukraynadan, Belarusdan, Polşadan keçərək Almaniya sərhədlərinə qədər gedib. "Qvardiyaçı" ordeninə, "Döyüşdə göstərdiyi şücaətə görə", "Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" və b. medallara layiq görülüb.**

Ölüm mələyinin rəqs elədiyi cəbhə bölgələrində nələr görüb, səngərlərdə nələr yaşayıb, üzərlərinə gələn düşmən tanklarının nəriltisindən necə həyəcanlanıb, yaxınlıqda partlayan minanın tikə-tikə etdiyi döyüşçülərin faciəsindən nə sarsıntılar keçirib, komandirlərin hansı haqsızlıqları ilə üzləşib – bunları dəqiq bilmirəm. Amma bilirəm ki, nəhayət, cəbhədən qələbə ilə geriyə, Göyçə gölünün sahilindəki gözəl Dərə kəndinə qayıdandan az sonra, atası Hüseyn babamla, anası Qüdrət nənəmlə sağollaşıb Bakıya yollanıb. Sənədlərini universitetin hüquq fakültəsinə verib və bütün qalan ömrünü insanların yaşamaq hüququnu, əmin-amanlığı, haqq-ədaləti qorumaq üçün cinayətkarlıqla mübarizə işinə həsr edib.



1950-ci ildə ilk təyinatla Ağdam rayonunda prokuror köməkçisi işlədikdən bir il sonra Şuşanın prokuroru vəzifəsinə təyin edilib (yeri gəlmişkən, mən də həmin vaxt Şuşada doğulmuşam). Sistemin qaydalarına görə hər üç-beş ildən bir iş yeri dəyişdirilib, müxtəlif bölgələrdə müstəntiq, prokuror vəzifələrində çalışıb. Ailəsini, beş uşağını, evinin iki cüt bir tək əşyasını, bir neçə dəst yorğan-döşəyini müharibədən sonrakı Sovetlərin sınıq-salxaq "polutorka" yük maşınına yığıb özü ilə o rayondan-bu rayona, o şəhərdən-bu şəhərə aparıb. Qarabağda Ağdam rayon prokurorunun köməkçisi (1950-51) və Şuşanın prokuroru (1951-54) işlədikdən sonra, Qubadlıda (1954-55), Zəngilanda (1955-57), Zaqatalada (1957-62), Lənkəranda (1962-66), Bakıda (1966-77) xidmətini davam etdirib.

İstintaqçı kimi böyük təcrübəyə, biliyə və əlbəttə, peşə intuisiyasına malik Əli Məhərrəmov 1966-cı ildə Respublika Prokurorluğunda (indi Baş Prokurorluq adlanır) mühüm işlər müstəntiqi vəzifəsinə irəli çəkilib. Zona prokuroru olub. 1975-ci ildə zəngin həyat və fəaliyyətini nəzərə alan respublika rəhbərliyinin tövsiyəsi ilə Ali Məhkəmənin üzvü seçilib. Uzun illər hüquq-mühafizə orqanlarında səmərəli fəaliyyətinə görə dəfələrlə Respublika Prokurorluğunun yüksək mükafatlarına layiq görülüb, cinayətkarlığa qarşı mübarizədə xüsusilə fərqləndiyinə görə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunub və...

...Və qarşısında daha geniş xidməti inkişaf üfüqləri açıldığı bir dönəmdə, 1977-ci ilin oktyabrında 53 yaşında "qəflətən ürək tutmasından" vəfat edib. Qəflətən!..

Qəflətənmi?...

*

...Atamın işi ilə bağlı bizim evdə həmişə çoxlu kitablar, sənədlər, fotolar, protokollar, ekspert rəyləri, qəzet-jurnal topaları olardı. Yaşadığımız yerlərdə darısqallıq ucbatından nəinki ayrıca iş otağı, hətta yazı masası belə olmayan atamız gündüzlər idarədəki kabinetində, gecələrsə evdəki yemək masasının arxasında işləyərdi. İşi həddindən çox olurdu, hətta bitib-tükənmək bilmirdi; rəsmi sovet təbliğatı etiraf etməsə də, ölkədə cinayət-cinayətə calanırdı. Hər bölgədə, hər kənddə, şəhərdə irili-xırdalı kriminal hadisələrin sayı-hesabı yox idi. Ən ağır, məsuliyyətli işləri gərgin zəhmət bahasına araşdırıb sistemləşdirən, cinayətin motivini şərh edən, cinayətkarı müəyyənləşdirən, haqlını haqsızdan ayıran, əyri əmələ hökm çıxaran atamızın əlyazmalarına, dəstə-dəstə rəngbərəng qələmlərinə (qələm – onun ən çox sevdiyi və ən çox topladığı dünya malı idi) təbii, biz uşaqların əl vurması yasaq idi. Bəlkə də kimlər üçünsə uzaq, sirli aləm olan cinayət işlərinin araşdırılması prosesi, hadisələrin məntiqi ardıcıllıqla çözülüb açılma mexanizmi bizim üçün atamızın gördüyü gündəlik adi işi idi.

O vaxtlar təsadüfən gözümüzə sataşan, amma xüsusi məhəl qoymadan keçib getdiyimiz həmin işləri, fotoşəkilləri indi yada saldıqca, gözümün önündə fraqmentlər birbir işıqlanır: ...yandırılmış bazar piştaxtaları, ...dağıdılmış mağaza vitrinləri, ...talan edilmiş anbarlar, ...başı-qolu-qıçı doğranıb çamadana yığılmış bədən, ...sifəti kislota turşusu ilə eybəcər hala salınmış körpə, ...maşının altında qalıb əzilmiş meyit, ...güllə ilə deşik-deşik edilmiş kişi, ...xənçərlə doğranmış qadın, ...ağacdan asılmış qız, ...çayda boğulmuş oğlan...

60-cı illərin dərsdən başqa bir "əyləncəsi" olmayan internetsiz, kompütersiz, televizorsuz, maqnitofonsuz biz uşaqlar üçün ciddi əhəmiyyət kəsb etməyən bu sənədlərin hər biri bir insan aqibəti idi. Və bu insanların həyat hekayətini, taleyini atamız bir əlində qələm, bir əlində siqaret daim düşünür, araşdırır, yazır, qiymətləndirir, sübutlar toplayır, qərar verirdi. Biz isə o şəkilləri göründə nə indiki kimi dünyanın faniliyi, nə insanların vəhşiliyi, nə ədalətin varlığı-yoxluğu, nə cinayətkarın cəzası barədə düşünərdik. Biz sadəcə ötüb keçər və bütün yaşıdlarımız kimi ata-ana himayəsində dünyanın pisliklərindən xəbərsiz xoşbəxt uşaqlığımızı yaşayardıq...

Atamın şəxsi arxivində çoxlu belə materiallar, əlyazmalar, sənədlər, qeydlər, maraqlı (əslində dəhşətli) hadisələrin təsviri, fotolar, çoxlu dəftər-kitab, qəzet-jurnal kəsikləri vardı. Ömrünün sonlarında (kimin ağlına gələrdi ki, bu - sondur!) tez-tez deyərdi: indi işim çoxdur, vaxtım yoxdur, inşallah pensiyaya çıxanda bu qeydlərdən yaxşı bir roman yazacam...

Təəssüf, atamız pensiyaya çıxa bilmədi.

*

Uzaq uşaqlıq dövründə atamın yanında gördüyüm hüquqşünaslar nəsli yaddaşımda mərd, qorxmaz, gözütox, ağayana kişilər kimi qalıb. Məmməd, Yelmar, Şükür, Rəşid, Hacəli, Ramazan, Yaqub... Məsul vəzifə daşıyıcıları olan həmin prokurorluq, polis, məhkəmə işçilərini heç vaxt qaşqabaqlı, qəzəbli, əsəbi vəziyyətdə, özünü əhəmiyyətli şəxs kimi göstərmək üçün sifətinə "zəhmli" görkəm verdiyi halda görməzdik. Əksinə, onlar həmişə gülərüz, zarafatçıl, deyib-gülən, nikbin adamlar idi. İstirahət saatlarında, gəzintidə, məclislərdə çoxlu maraqlı söhbətlər edər, yeyib-içər, danışıb-gülərdilər. Öz praktikalarından maraqlı hadisələr danışar, bir-birinin apardığı istintaq işlərini müzakirə edər və bu zaman onlar da "hamı kimi" adi, sadə, zəhmsiz-filansız gözəl azərbaycanlı kişiləri olaraq qalardılar. Əlbəttə, onların öz dünyaları, həyata baxışları, anlayışları, heç kəsə bəlli olmayan şərti işarələri, danışıq kodları da vardı. Öz aralarında deyib güldükləri lətifələri başa düşmək, duzunun, məzəsinin nədə olduğunu anlamaq asan deyildi.

Bu peşəkar dövlət qulluqçuları dünyanın incəliklərini, təbiətin gözəlliklərini həssaslıqla duyan, qiymətləndirən, həyata fəlsəfi münasibət bəsləyən zərif, kövrək qəlbli mükəmməl şəxslər idi. Onlar mərdliyi, cəsarəti, hünəri görk üçün göstərmirdilər. Onların bəlkə də hər anı, günü risqlər altında, təhlükə qarşısında keçirdi (nahaq yerə dövlət bu peşə sahiblərinə silah gəzdirmək səlahiyyəti vermir!). Çox vaxt da hüquq-mühafizə sistemində çalışanların mərdliyindən, mətanətindən, hətta qəhrəmanlığından nəinki sağlığında, bəlkə heç vəfat edəndən sonra da heç vaxt heç kimin xəbəri olmur. Çünki onlar öz xidməti vəzifə borclarını təmkinlə, layiqincə, sakit və reklamsız-afişasız yerinə yetirirlər. Bəlkə də hansısa xidməti fəaliyyət zamanı onlar kimisə məzəmmət edir, sərt davranır, əsəbiləşir. Amma bu, ancaq iş naminə, xalq, dövlət naminə, ədalətin bərpası naminə ola bilərdi və şəxsi-qərəzə, kinə çevrilməzdi.

Məhkəmə zalında ittihamçı prokurorun sərt, "amansız" nitqi, "zalım" hakimin qərarı, ağır hökmü çoxlarını (əsasən də maraqlı tərəfi) lərzəyə salır, heyrətləndirir və talelər həll edən bu "qəddar adamlara" kənardan baxıb deyinirlər. Ancaq mahiyyətə varanda hüquq-mühafizə işçilərinin bir növ cəmiyyətin cərrahları olduğu bilinər. Cərrahiyyə əməliyyatı ağrısız, acısız, qansız, əziyyətsiz keçməz. Cəmiyyətdəki xəstəliyin profilaktikası, sağlamlaşdırılması naminə çalışan adamların fəaliyyətini hirslə, hikkəylə, acıqla yox, anlayışla qiymətləndirmək doğru olar. Bəzən öz doğmalarına lazımi qədər diqqət, qayğı göstərməyə imkan tapmayan hüquqşünaslar dövlətin tapşırıqlarını sözsüz icra edir, gecəni-gündüzə qatıb qanun pozucularını aşkara çıxarır, zərərsizləşdirir, ictimai dinclik, əmin-amanlıq naminə cəmiyyətdən təcrid edirlər.

*

Mehriban bir kollektiv kimi yaşayıb-işləyən o hüquqşünasların həyat yoldaşları – bizim analarımız da, necə deyərlər, ərləri ilə eyni havanı udan, eyni ruhda yaşayan dəyanətli qadınlar idi. Onlar məşğən təsəvvürlərdən uzaq sadə həyatı, uca amalları, mənəviyyatı üstün tuturdular. Klassik azərbaycanlı ailələrinin bu ləyaqətli xanımları xoş gündə də, dar gündə də mərd-mərdanə ərlərinin yanında olur, kişilərin peşələrinin ağırlığını, xidmətlərinin məsuliyyətini, vəzifələrinin mühümlüyünü dərk edərək daim ailədə, məişətdə rahatlıq, dinclik qayğısına qalırdılar. Ev işləri ilə yanaşı, təbii, uşaqların da bütün təlim-tərbiyəsi, təhsili, istirahəti, yemək, geyməK qayğıları anaların çiynində idi.

Adətən kiminsə evinə axşam saat on birdən sonra zəng gələndə hamı təşvişlə, həyəcanla telefona, qapıya qaçır ki, görən nolub? Bizim evimizdə isə gecə zəngləri adi hal idi. Gecə saat 3-də, səhər saat 5-də zəng gəlirdi, atam kiminləsə astadan qırıq-qırıq danışır, sonra cəld qalxıb geyinir, silahı belinə bağlayıb tələm-tələsik çıxırdı. Beləcə bizə bivaxt zəng gələndə, gecə qapımız döyüləndə, kandarda milis nəfəri göründə hamımız, beş uşağın beşi də bilirdik ki, yenə hardasa cinayət baş verib, atamı hadisə yerinə çağırırlar, arxasınca maşın göndəriblər... O gedəndən sonra biz sakitcə yıxılıb yatırdıq. Anamızsa səhəri dirigözlü açırdı...

Bir də oyanırdıq ki, artıq səhərdir, atamız indicə gəlib, yuyunur və arada hadisəni qısaca anama nəql edir: "...meyidi tapa bilmədik, təkcə meşədən qanlı bir dəhrə tapmışıq..."; "...yeyinti izini itirmək üçün məncə obyektə bazarkom özü od vurub, qolunda təzə sıyrıntı yeri gördüm, güman ki divardan aşıb qaçanda olub..."; "...kişini tutduq, dindirmə zamanı birdən başladı ağlamağa ki, uşağı yerə yıxanda uşaq biləyimdən yapışıb dedi – dədə, mənim başımı xıx eləyirsən?..."

Bəli, məsul işlər heç vaxt yüngül başa gəlmir. Məsul işlər məsuliyyətli insanların ömrünü, həyatını aparır...

*

Humanizm amalı qanında olan atam haqqı, ədaləti, qanunları təkcə sakit kabinetdə, məhkəmə, prokuratura divarları arasında, səlahiyyət kreslosunda yox, ən adi ev, ailə-məişət şəraitində, qohum, dost yanında, ictimaiyyət arasında da qoruyurdu. Onun adil mahiyyətinə, ədalətli düşüncə tərzinə dair bəlkə də kiməsə xırda, əhəmiyyətsiz görünəcək bir misal çəkim. Bir dəfə makinaçı qız sözün birində eyni hərfi iki dəfə dalbadal yazmışdı ("canni") və mən dərhal kamil savad nümayişi olaraq "n" hərfinin birini, daha doğrusu birincisini qələmlə pozmaq istəyəndə atam əlimi tutub saxladı. Dedi birinci yox, ikincini poz. Təəccübləndim, nə fərqi var dedim. Dedi fərqi ondadır ki, birinci "n" hərfi növbəsinə görə öz yerində, öz sırasındadır, onun günahı yoxdur, pozmaq insafsızlıq olar; burda səhv düşən, yerində olmayan ikinci "n" hərfidir, onu pozmaq lazımdır... Bu kiçik detalda böyük hüquqşünas vərdişi, ədalətli təfəkkür tərzi, miqyasından asılı olmayaraq həyata, hadisələrə həssas insani münasibət, haqsızlığa etiraz, insaf, vicdan, düşüncə sayıqlığı var idi.

*

Ali Məhkəmənin hakimi işləyəndə bir dəfə uzaq bölgələrin birindən ezamiyyətdən qayıtmışdı. Orada ictimaiyyətin iştirakı ilə bir cinayət işinin səyyar məhkəmə prosesini keçirmişdi. Cinayətkar narkotik maddə qəbul edərək beyni dumanlanmış, qoşalülə tüfəngi götürüb küçəyə çıxmış və həyət-bacada, balkonda, damda gördüyü bütün adamları səbəbsiz yerə güllləyə tutmuşdu; nəticədə üç günahsız adam ölmüş, bir neçəsi ağır yaralamış, şikəst qalmışdı... Atam danışırdı ki, ağzına qədər dolu salonda dövlət ittihamçısının tələb etdiyi ən yüksək cəza hökmünü təsdiqləyib elan edəndə, birdən gözüm caninin ön cərgələrdə oturmuş anasına sataşdı. Öz anam Qüdrət xanım yadıma düşdü, onun kimi yaşmaqlanıb susmuşdu, əli qoynunda gözlərini barmaqlıqlar arxasındakı oğluna dikib qupquru qurumuşdu. Hiss elədim ki, ürəyində yana-yana "Oğul, oğul, ay oğul..." – deyə fəryad edir. Dönüb qatilə baxdım; dünya vecinə deyildi... Duruxdum. Hökm verəndə tutan əllərim əsdi, bütün bədənim titrədi, məni soyuq tər basdı. Ürəyim az qalırdı çırpınıb yerindən çıxsın... Nəhayət, özümü ələ alıb günahsız ölən, yaralanan, şikəst qalan adamların aqibətini düşünə-düşünə birtəhər hökmü elan elədim... (Yəqin bu zaman zaldakılardan kimlərsə onu "qəddar", "zalım", "daşürəkli" də adlandırırmış.)

*

Budur, 1924-cü il aprelin 12-də qədim Oğuz yurdu füsunkar Göyçədə dünyaya gələn və qısa ömür yolunda öz işi, peşəsi, fəaliyyəti, xeyirxahlığı, ədaləti və insanlığı ilə bu dünyada dərin iz qoyub qəflətən dünyadan köçən görkəmli hüquqşünas Əli Məhərrəmovun indi 100 yaşı tamam olur. Bütün həyatı boyu elin-obanın, xalqın, yurdun təəssübünü çəkən, vətəndaşların hüququnu qoruyan son dərəcə təmiz, təmənnasız, təvazökar və zəhmətkeş İnsan olan atamın məzar daşında həkk olunmuş bu sözlər onun taleyi idi: "Böyük qəlblər əzabı dinməz çəkər!"

...Əlbəttə böyük, həssas ürəklər birdən-birə, qəfildən dayanmır. O dinməz-söyləməz, tədricən üzülüb heydən düşür. Günbəgün, aybaay, ilbəil damla-damla için daman ağrılara, əzablara dözə-dözə, yaşadığı sarsıntılara tab gətirə-gətirə sakitcə, kimsəyə bildirmədən, inləyib-sızlamadan, şikayətlənmədən mərd-mərdanə yaşayır; ağrısa da, sıxılsa da işləyir və günlərin bir günü toplam əzabın, gərgin həyatın, ağrı-acının, qəm-kədərin yükünə tab gətirə bilməyib susur. "Öz qövmünün başına əngəl-kələf olanların" (M.Ə.Sabir) arasında gəl də yaşa... Daha nə zərbələr dəymir ki bu həyatda həssas ürəklərə?! Ürək neyləsin?!

**100 yaşın mübarək, böyük qəlbli İnsan! Ruhun şad olsun, Ata!**

***Akif ƏLİ,***
**Əməkdar jurnalist, fəlsəfə doktoru, yazıçı-publisist**

# Ağdaban qətliamı–ermənilərin insanlıq əleyhinə qanlı cinayəti

**Ağdaban ictimaiyyəti və Azərbaycanın QHT təmsilçiləri beynəlxalq ictimaiyyətə açıq məktubla müraciət ediblər. Məktubda deyilir: "Biz – 1992-ci il aprelin 7-8-də Kəlbəcərin Ağdaban kəndində Ermənistanın hərbi birləşmələrinin soyqırımına məruz qalan dinc azərbaycanlı sakinlər, kütləvi qırğının canlı şahidləri, həmin hadisədə ailə üzvlərini, doğmalarını, evlərini itirən şəxslər və Azərbaycanın vətəndaş cəmiyyətinin təmsilçiləri olaraq, sizə Açıq məktubla müraciət edərək ədalət tələb edirik!**



Xocalı soyqırımının ardınca – 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Kəlbəcərin Ağdaban kəndində Ermənistan tərəfindən dinc əhaliyə qarşı törədilən kütləvi qırğın zamanı 130-dan çox ev yandırılıb, 779 nəfər kənd sakininə divan tutulub. Faciə zamanı 32 nəfər amansızcasına qətlə yetirilib, 8 nəfər qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılıb. 2 nəfər itkin düşüb, 5 nəfər isə girov götürülüb.

Faciə zamanı Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndələri – Aşıq Şəmşirin və onun atası Ağdabanlı şair Qurbanın əlyazmaları, külliyyatı məhv edilib, Aşıq Şəmşirin nəvəsi diri-diri tonqalda yandırılıb.

Azərbaycanın işğal edilmiş ərazilərində törədilən soyqırımı aktları, cinayətlərin nəticəsidir ki, bu gün azad edilmiş ərazilərdə onlarla kütləvi məzarlıqlar aşkarlanmaqdadır.

Fransanın, Avropa İttifaqının Avropa sülh mexanizmi adı altında Ermənistanı silahlandırması, revanşizmin baş qaldırmasına hər cür dəstək verməsi bizi hiddətləndirir. Biz bu hərəkətləri, ərazi bütövlüyü məsələsinə ikili standartlarla yanaşmaları qəbul etmir, bu addımları Azərbaycan xalqına və dövlətinə qarşı fəaliyyət hesab edirik!

**XQ**

# Sərbəst güləşçilərimiz Olimpiya Oyunlarına 6 lisenziya qazanıblar

**Azərbaycanın sərbəst güləşçiləri Bakıda doğma divarlar arasında təşkil edilən Avropa Olimpiya Təsnifat Turnirini maksimum nəticə ilə başa vurublar.**









İndiyədək Paris Olimpiadasına sərbəst güləş üzrə cəmi 1 lisenziya qazanan komandamız qitənin ən iddialı idmançılarının mübarizə apardığı bu nüfuzlu yarışda 5 vəsiqəyə sahib olub. Bununla da, sərbəst güləş üzrə Azərbaycan yığması "Paris-2024"də tam heyətlə – 6 çəki dərəcəsində təmsil olunmaq hüququ qazanan ilk ölkə olub. Bundan əvvəl Maqomedxan Maqomedov (97 kq) Paris Oyunlarında iştirak üçün vəsiqəyə sahib olmuşdu. İndiyədək cəmi 28 ölkənin təmsilçiləri Paris Oyunlarında iştirak üçün lisenziya əldə edə biliblər.

Bakıdakı yarışda Olimpiadaya lisenziya qazanan üççqat dünya çempionu Hacı Əliyevin (65 kq) aktivində Olimpiya Oyunlarının bürünc və gümüş medalı var. Bu dəfə o, qızıl medal üçün oyunlara yola düşəcək. "XQ"yə açıqlamasında təcrübəli pəhləvan əsas hədəfin baş mükafat olduğunu bildirib.

Digər lisenziyaçımız Turan Bayramov (74 kq) yarışın Bakıda keçirilməsinin ona əlavə stimul verdiyini deyib. Ötən il dünya çempionatında son saniyələrdə məğlub olaraq lisenziyanı əldən verən güləşçi budəfəki şansdan yararlana bilib. Avropa çempionatının mükafatçısı "Paris-2024"də uğurla çıxış etmək üçün var gücü ilə hazırlaşacağını vurğulayıb.

125 kiloqram çəki dərəcəsində Giorgi Meşvildişvilinin də çıxışı uğurlu alınıb. Yarımfinalda Alen Xubulov (Bolqarıstan) üzərində qələbə qazanan 31 yaşlı güləşçi Paris Olimpiadasına özü üçün "yaşıl işıq" yandırıb. Ağırçəkili pəhləvan açıqlamasında qeyd edib ki, komanda, federasiya, məşqçi korpusu qarşısında məsuliyyətlə yanaşı, doğma divarlar arasında azarkeş dəstəyi də onları qələbəyə kökləyib. Yarışda lisenziya qazanmış digər güləşçilər Osman Nurmaqomedov (86 kq), eləcə də Əliabbas Rzazadə (57 kq) komanda yoldaşları kimi, indi əsas hazırlığın Paris Olimpiadasına yönəldəcəklərini bildiriblər.

**Sərbəst güləş üzrə Azərbaycan millisinin baş məşqçisi Xetaq Qazyumov jurnalistlərə müsahibəsində belə bir nəticəyə görə qürur hissi keçirdiklərini bildirib:**

– Ümidləri doğrultduq. Uşaqlar gücləirndən maksimum şəkildə istifadə etdilər. Şadam ki, qarşıya qoyduğumuz vəzifənin öhdəsindən layiqincə gəldik.

Yarışda mübarizə aparan 5 idmançının hər birinin olimpiadaya lisenziya qazanmasından məmnun olduğunu söyləyən baş məşqçi qeyd edib ki, indi əsas məqsəd oyunlara yaxşı hazırlaşmaqdır.

Qeyd edək ki, Tokio Olimpiadasında Azərbaycanı 5 sərbəst güləşçi təmsil edib. Onlardan yalnız Hacı Əliyev gümüş medal qazanıb.

Avropa Olimpiya Təsnifat Turnirində, həm yunan-Roma, həm də qadın güləşi üzrə yığmalarımız qənaətbəxş nəticələr qazana bilməyiblər. İlk görüşlərdə yaxşı təsir bağışlayan qadın yığmasının lideri Mariya Stadnikin (50 kq) lisenziyanın bir addımlığında büdrəməsi, son saniyələrdə məğlub olmasını heç kim gözləmirdi. Dördqat Olimpiya mükafatçısı həlledici qarşılaşmada ukraynalı Oksana Livaça uduzaraq mübarizəni dayandırdı. Daha əvvəl isə yığmanın digər üzvləri Elnurə Məmmədova (53 kq), Jalə Əliyeva (57 kq), Birgül Soltanova (62 kq) və Elis Manolova (68 kq) da təsnifat mərhələsində məğlub olmuşdular. Onu da xatırladaq ki, qadın güləşində hələlik lisenziyamız yoxdur.

Qaldı yunan-Roma güləşi. İndiyədək dördilliyin baş yarışına cəmi 2 lisenziya əldə edən "klassiklərimiz" də Bakıdakı şansdan yetərincə yararlana bilməyiblər. Amma millimiz Parisə Olimpiadasında iştirak edəcək heyətin tərkibini artırmaq şansını hələ itirməyib. Onlar üçün son şans İstanbuldakı Dünya Olimpiya Təsnifat Turniri olacaq. Yunan-Roma güləşçilərimiz də bütün çəkilərdə Olimpiadada təmsil olunmaq üçün mayın 9-dan 12-dək qardaş ölkədə keçiriləcək yarışda gücləirndən maksimum istifadə etməlidirlər. Onu da xatırladaq ki, ötən Olimpiya Oyunlarında "klassiklərimiz" 2 nəfərlə təmsil olunmuşdular və yekunda Rafiq Hüseynov (77 kq) bürünc medal qazanmışdı. Daha bir "bürünc"ü Mariya Stadnik komandamızın aktivinə əlavə etmişdi.

**L.AZAD**
**XQ**

Zəfər qəhrəmanlarımız

# “Qarabağ” ordenli cəngavər

**O, İkinci Qarabağ müharibəsində xalqının başını ucaldanlardandır. Vətən müharibəsinin əfsanəvi qəhrəmanlarından sayılır. Sinəsini “Qarabağ”, həmçinin çox sayda digər orden və medallar bəzəyir. Hörmətli oxucu! Redaksiyamızın budəfəki qonağı Daxili Qoşunların xüsusi təyinatlısı, Vətən müharibəsi qazisi, kapitan Vüsal Həsənovdur. Onunla “Xalq TV”-də yayımlanan müsahibədən bəzi məqamları diqqətinizə çatdırırıq.**



Onu redaksiyanın dəhlizində qarşıladıq. Uca boyu, məğrur yerişi var. El arasında bir ifadə var: lay divar! Qonağımız da belə əzəmətli idi. Əvvəlcə Kəmalə xanım heyrətlə dilləndi:

***– Maşallah olsun! Vətənin belə qamətli, qürurlu igidləri var!***

O isə gülümsəyərək sakitcə cavab verdi:

***– Maşallah gününüz olsun! Təki, xalqımız, milətimiz daim başı uca yaşasın!***

Beləcə, hörmətli qonaqla geniş söhbətə başladıq.

***–Sizə cəngavərmi, qəhrəmanmı deyək, redaksiyamıza təşrif buyurduğunuzdan şərəf duyuruq. Oxucularımız çox istərdilər ki, sizi daha yaxından tanısınlar...***

–Mən 1982-ci ildə Qarabağda, Füzulinin Mahmudlu kəndində həyata göz açmışam. 1993-cü ilin avqustunda Füzuli rayonu işğal olunanda 4-cü sinifdə oxuyurdum. Yadımdadır, Birinci Qarabağ müharibəsinin ağır günlərində kəndimizə qara tabutlarda şəhidlər gəlirdi. Analar, gəlin və bacılarımız gözü yaşlı idilər. 1993-cü ilin 23 avqustunda isə Füzuli rayonu süqut etdi. Düz 27 il bu ağır yara qəlbimizi didib-parçaladı.

Mən gələcəkdə hansı peşəni seçməli idim? Tale özü mənim üçün seçim etmişdi. Doğma Füzulinin, bütün Qarabağın azad olunması üçün hər an döyüşə hazır olmalı idim. Bu müqəddəs savaş qaçılmaz idi. Mən həmin günü həsrətlə gözləyirdim.

Bu arzu və niyyətlə hərbi xidmətimi başa vurandan sonra Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsinə qəbul olundum. Qardaş Türkiyədə 11 aylıq hərbi təlimlərdə iştirak etdim. Nəhayət, o gün gəlib çatdı...

***–27 sentyabr gəldi və siz torpağın şərəfi uğrunda döyüşə başladınız...***

–Həmin gün sübh tezdən biz artıq cəbhənin Füzuli istiqamətində ağır döyüşlərə başlamışdıq. Çox gərgin və həyəcanlı anlar idi.

Amma söhbətə şəhidlərimizdən başlamaq istərdim. Düşmən səngərlərini yarıb keçərkən bir-birindən igid oğullar qurban verdik. Onların hər birinin xatirəsi mənim üçün çox əzizdir və bütün ömrüm boyu onların heç birini unuda bilmərəm.

Şəhidlər torpağı Vətənə çevirən igidlərdir. Onlar şəhadətləri ilə müqəddəslik zirvəsinə yüksəldilər. Ruhları qarşısında baş əyirəm.

***–Vüsal, müharibənin ilk günləri arxa cəbhədə də hamımız çox narahat idik. Savaşın ağırlığı, təbii ki, əsgər və zabitlərimizin üzərinə düşürdü...***

–Döyüşün ilk anlarından bəlli oldu ki, qalibiyyət bizim olacaq. Ona görə ki, Azərbaycan Ordusu vahid komandanlıq altında sarsılmaz qələbə əzmi ilə döyüşürdü. Biz Zəfər ruhu ilə silahlanmışdıq. Sinəmizdə Vətən həsrəti, Qarabağ sızıltısı var idi.

Əmr almışdıq. Füzulinin 5 kəndini azad edərək, Əhmədbəyli yolunun açılmasını təmin etməli idik. Şiddətli döyüşlər gedirdi. Düşmən təchizat yolumuzu kəsmişdi. Hərbçilər yaxşı bilirlər ki, bu, döyüş zamanı nə qədər böyük çətinlik yaradır. Lakin biz Əhmədbəyli yolunu açıb, düşməni darmadağın etdik.

***–Döyüş dostlarınız bizə deyiblər ki, siz ilk hücumların birində yaralansanız da, döyüş meydanını tərk etməmisiniz...***

–Rəhbərliyə bildirdim ki, yaram yüngüldür, döyüş qabiliyyətimi aşağı salmır. Sağ olsunlar, sözümü yerə salmadılar.

Bilirsinizmi, Vətən müharibəsinin əzəməti nədədir? Hətta yaralılar belə döyüş meydanından çıxmaq istəmirdilər, hamı Qələbəni tez bir zamanda görmək istəyirdi. Yemək, su içmək belə yadımızdan çıxmışdı.

Düşünürəm ki, Azərbaycan Ordusunun qəhrəmanlığından tarix boyu yazılmalıdır. Gələcək nəsillər Qarabağ uğrunda müqəddəs döyüşlərin əfsanəyə çevrilməsinin səbəblərini bilməlidirlər.

***–Vüsal, sən ata-baba yurdun olan Füzuliyə qələbə bayrağı sancmısan. Bundan böyük xoşbəxtlik ola bilərmi?***



–Görünür, Füzuli şəhərinə qələbə bayrağını sancmaq xoşbəxtliyi taleyimə yazılıb. Rayon mərkəzindəki Mərkəzi Poçtun binasından bayrağımızı dalğalandıranda, gözlərim dolmuşdu. Əllərim həyəcandan əsirdi.

Şəhidlərimizin ruhu qarşısında borcumu yerinə yetirirdim. Onlar sanki mənə deyirdilər: Möhkəm dayan, müqəddəs bayrağı sənə etibar etmişik.

Yeri gəlmişkən, Vətən müharibəsində iştirak edən bütün döyüşçülərin çantasında 3 rəngli bayrağımız var idi.

***–Hərbi ekspertlər bu qənaətdədirlər ki, məhz Füzuli uğrunda döyüşlərdə düşmənin beli qırılıb. Siz necə düşünürsünüz?***

–Həqiqətən, elədir. Ermənilər uzun illər ərzində orada bir neçə müdafiə səddindən ibarət istehkamlar qurmuşdular. Lakin düşmən əsgər və zabitlərimizin qələbə əzmi, iradəsi qarşısında aciz duruma düşdü.

Füzuli istiqamətində parlaq qələbəmizdən sonra ermənilər dərk etməyə başladılar ki, Ali Baş Komandanın növbəti tapşırığı Şuşa istiqamaətində hücum əmri olacaq. Onlar artıq vahilənməyə başlamışdılar. Ümumiyyətlə, Füzuli döyüşlərinə qədər erməni ordusu nizami ordu formasında döyüşürdüsə, bundan sonra düşmən ordusu parçalandı və pərakəndə halda döyüşməyə başladı.

***–Bizim cəngavərlər artıq Hadrut istiqamətindən Şuşaya tərəf irəliləməyə başlamışdılar. Siz Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsinin komandir müavini, qərargah rəisi idiniz. Gücümüzə güc qatan nə oldu?***

–Yalnız və yalnız qələbə əzmi! Biz, doğma torpaqlarımız uğrunda vuruşurduq. Bir ölür, min dirilirdik. Qəlbimizdə, beynimzidə yalnız bir hiss, bir arzu vardı: Şuşaya çatmaq və nəyin bahasına olursa-olsun, onu azad etmək!

Çox çətin və mürəkkəb relyefi olan ərazilərdə düşmənin müqavimətini qıra-qıra Şuşa qalasına doğru gedirdik. Daşaltıya çatanda başa düşdüm ki, biz Şuşa üçün darıxdığımız kimi, o da səbirsizliklə bizi gözləyir. Hamımız birlikdə bir daha and içdik: Öldü var, döndü yoxdur! Şuşanı azad etməliyik!

Daşaltı Şuşanın giriş qapısıdır. Burada əsas yüksəkliyi ələ keçirəndən sonra oranın sol tərəfindən, yəni Şuşa–Xankəndi–Laçın yolunun arxa hissəsindən Şuşa istiqamətinə doğru hərəkət etməyə başladıq.

Sizə bir mühüm faktı deyim. Ermənilər Şuşada müharibə aparmaq üçün 3 illik ərzaq, silah-sursat, hərbi texnika ehtiyatı yığmışdılar. Düşmən hesab edirdi ki, Şuşanı əllərində saxlamaları üçün silah-sursatları və ərzaqları uzun müddət kifayət edəcək. Lakin onlar və havadarları bir həqiqəti unutmuşdular: Şuşanın əsl sahibləri var!

***–Şuşanın fəthi dünya hərb tarixinin ən uğurlu hərbi əməliyyatlarından biri sayılır. Oradakı sıldırım qayalara dırmaşan cəngavərlərin şücaəti hər kəsi heyrətə gətirir.***

– Bu, əsl ölüm-dirim savaşı idi! Bu, türkün qədim və şərəfli tarixində Çanaqqala döyüşü qədər şanlı döyüşdür. Azərbaycanın igid əsgər və zabitləri, həqiqətən, Şuşada əbədi qəhrəmanlıq dastanı yazıblar.

Düşmən Laçın istiqamətindən bizi artilleriya atəşinə tuturdu. Erməni işğalçıları Şuşanı öz əllərində saxlamaq üçün hər cür ağır silahlardan istifadə edirdilər. Noyabrın 2-si və 3-ü artıq Şuşanın tam yaxınlığında idik. Bir çox xüsusi əmr və tapşırıqları uğurla icra etdik, noyabrın 5-i Şuşanın tam yaxınlığında – İsa bulağına yaxın ərazidə dəhlizdən düşüb (orada bir meşə massivi vardı), yolu keçərək Şuşaya doğru getməli idik. Bu zaman düşmənin tank mərmisindən atdığı atəş nəticəsində yaralandım.

...Qələbə xəbərini noyabrın 8-də Füzuli Rayon Mərkəzi Xəstəxanasında eşitdim. Hamı bizi təbrik edirdi. Ağrılarım çox olsa da, qələbə sözünü eşidəndə hər şeyi unutmuşdum.

Bir ona heyfslənirdim ki, kaş qələbəmizə 3 gün qalmış yaralanmazdım, çünki son anadək Şuşada olmaq arzusundaydım.

Mən atamı erkən yaşlarımda itirmişəm. Anam bizi min bir əziyyətlə böyüdüb. Şuşa uğrunda döyüşlərdə ağır yaralandığım üçün bir müddət ailəm ilə əlaqəm olmayıb. Anam həlak olduğumu düşünərək, çox ağır anlar yaşayıb. O təlatümlü günlər onun sağlamlığına ciddi təsir göstərdi. Qələbəmizdən 3 ay sonra, 2021-ci il yanvarın 31-də anamın ürəyi qəfil dayandı. Bu acı itki qəlbimi daim sızladır. Düzdür, övladlarım, həyat yoldaşım, doğmalarım mənə təskinlik verməyə çalışırlar. Görünür, həyat belədir. İnsanın bir gözü güləndə, o biri ağlayır.

***–Qəm yemə, Vətən oğlu! Sənin kimi oğullar böyüdən anaların əbədi məkanı cənnətdir! Bu torpağın qeyrətini çəkən oğulların anaları da şəhiddirlər.***

–Haqlısınız. Analar müqəddəsdir. Mən bu gün bütün şəhid analarını öz anam bilirəm. Bu xalq, həqiqətən, böyük və yenilməz xalqdır. Biz əl-ələ verib güclü dövlət və ordu yaratmalıyıq. Qoy heç vaxt heç bir düşmən Azərbaycan torpağına göz dikməyə cəsarət etməsin!

***–Vüsal, sizin cənab Prezidentlə birlikdə şəkliniz var. Bu barədə də söhbət açmağınızı xahiş edirik...***

– 2021-ci il aprelin 12-də möhtərəm Ali Baş Komandan, Prezident İlham Əliyev “Qənimətlər Parkı”nda biz döyüşçülər qarşısında çıxış etdi. İkinci Qarabağ müharibəsində qazandığımız qələbə münasibətilə bizi təbrik etdi. Şəhidlərimizin ruhuna rəhmətlər dilədi, qazilərimizin tezliklə sağalmasını arzuladı. Cənab Prezident bildirdi ki, dövlətimiz şəhid ailələrinə, qazilərə diqqət və qayğısını heç vaxt əsirgəməyəcək. Həmin görüşdə xatirə şəkli çəkdirdik.

2023-cü ilin sentyabrında antiterror tədbirlərindən sonra suverenliyimizi tam bərpa etdik. Ötən ilin payızında biz hərbçilər Xankəndidə “Qarabağ” futbol komandasının oyununu cənab Prezident və onun ailəsi ilə birgə izlədik.

Həmin oyundan sonra Ali Baş Komandanın gəlib bizimlə söhbət etməsi, birlikdə şəkil çəkdirməsi bizi daha da ruhlandırdı.

Bir daha öyündüm ki, Azərbaycanda dövlət və xalq birliyi polad kimi əyilməzdir, əbədidir. Yaşasın Azərbaycan!

***Söhbəti qələmə aldılar:***
***Kəmalə ABDİNOVA,***
***Məsaim ABDULLAYEV***
***XQ***

# MEDİA və DTX vətəndaşları əsassız informasiyalara inanmamağa çağırıb

**Son günlər bəzi sosial şəbəkələrdə Azərbaycan–Ermənistan sərhədində gərginliyin artması, Azərbaycan Ordusunda şəhidlərin və yaralıların olması, qoşun birləşmələrinin və ağır artilleriya silahlarının hazırlıq vəziyyətinə gətirilməsi, Laçın rayonu ərazisində komendant saatının tətbiq edilməsi ilə bağlı bir sıra şəxslər tərəfindən əsassız məlumatlar, reallığı əks etdirməyən saxta xəbərlər yayımlanır.**




Bu barədə Medianın İnkişafı Agentliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin məlumatında bildirilib.

Məlumatda, həmçinin qeyd olunur ki, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aparılan araşdırmalar nəticəsində cəmiyyətdə narahatlığın yaranmasına səbəb olan bu kimi məlumatları yayan şəxslərin Azərbaycan Respublikasının vətəndaşları – 1977-ci il təvəllüdlü Əliyev Rəşad Balağa oğlu və 1973-cü il təvəllüdlü Məlikov Pərviz Ramiz oğlu olduğu müəyyən edilib, onların belə məlumatları yaymalarının qarşısı alınaraq zəruri hüquqi prosedur tədbirlər həyata keçirilib.

Medianın İnkişafı Agentliyi və Dövlət Təhlükəsizliyi Xidməti sözügedən əməllərin törədilməsinin ciddi hüquqi məsuliyyətə səbəb olduğuna dair xəbərdarlıq edərək media subyektlərini və jurnalistləri sosial şəbəkələrdə yayımlanan qeyri-dəqiq, mənbəyi bilinməyən məlumatlardan istifadə etməməyə, vətəndaşları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, sosial şəbəkələrdə yayılan, rəsmi mənbələrə söykənməyən əsassız informasiyalara inanmamağa çağırır.

Epidemioloji durum

**BMT-nin sabiq baş katibi Ban Ki Mun, Yeni Zelandiyanın sabiq baş naziri Helen Kark, Böyük Britaniyanın sabiq baş nazirləri Qordon Braun və Toni Bleyr, Malavinin sabiq prezidenti Coys Banda, Perunun sabiq prezidenti Fransiso Saqasti və BMT Baş Assambleyasının 3 sabiq prezidenti, bütün qitələrin siyasət, iqtisadiyyat və səhiyyə idarəçiliyi sahələrini əhatə edən 100-dən çox qlobal lider birgə açıq məktub yayaraq, pandemiyaya hazırlıq və onun qarşısının alınması üzrə dünyada ilk çoxtərəfli sazişə nail olmaq üçün sürətləndirilmiş tərəqqiyə çağırıblar. Bu barədə ÜST-ün Azərbaycan ofisinin mətbuat xidmətindən XQ-yə bildirilib.**

# Pandemiyalarla bağlı qlobal çağırış




Liderlər birgə məktubda qeyd ediblər ki, pandemiya razılaşması kollektiv gələcəyimizi qorumaq üçün çox vacibdir. Yalnız belə güclü qlobal pakt gələcək nəsilləri milyonlarla insanın ölümünə səbəb olan, kifayət qədər beynəlxalq əməkdaşlığın olmaması üzündən geniş sosial və iqtisadi dağıntılara səbəb olan COVID–19 böhranının təkrarlanmasından qoruya bilər.

Rəsmi olaraq 7 milyon insanın həyatına son qoyan və dünya iqtisadiyyatına 2 trilyon dollar ziyan vuran COVID–19 fəlakətinin təsirlərini hələ də hiss etdiyimiz bir zamanda, 2021-ci ilin dekabrında dünyanın 196 ölkəsindən 194-ü arasında gələcək pandemiyanın qarşısının alınması ilə bağlı beynəlxalq razılaşmanın əldə edilməsi üçün hökumətlərarası danışıqlara başlanılıb. Ölkələr dünyanın ilk Pandemiya Sazişinə dair razılığa gəlmək üçün son tarixi 2024-cü ilin may ayına təyin ediblər. Pandemiya Sazişi danışıqlarının doqquzuncu raundu mart ayının sonunda keçirilib.

Açıq məktubu imzalayanlar ümid edirlər ki, onların bu birgə addımları 194 ölkəni COVID–19 illərindəki cəsarətlərini qorumağa və sazişin Ümumdünya Səhiyyə Assambleyasının 2024-cü ilin may ayında keçiriləcək sessiyasında təsdiqlənməsini təmin etmək üçün nəzərdə tutulan tarixə qədər beynəlxalq pandemiya protokoluna dair öz kollektiv ambisiyalarını reallığa çevirməyə təşviq edəcək. Onlar tərəfləri yaxınlaşan məqsədə yetişmək üçün səylərini ikiqat artırmağa və fəaliyyətlərini yeni sazişi həyata keçirmək öhdəliyi verəcək ÜST-ə qarşı təbliğat kampaniyası aparan zərərli dezinformasiyaya yol verməməyə çağırırlar.

İctimai səhiyyə üçün irəliyə doğru atılan bu böyük beynəlxalq addımla milli suverenliyin zədələnə biləcəyinə yanlışlıqla inananları sərt şəkildə tənqid edən bu sənədi imzalayanlar “boş yerə sərf etməyə vaxt yoxdur”– deyirlər. Onlar hazırkı danışıqlarda iştirak edən 194 dövlətin liderlərinə çağırış edirlər.

Qordon və Sarah Braun ofisinin internet saytında yerləşdirilmiş məktubda daha sonra deyilir: “Ölkələr bunu danışıqlarda olduğu kimi ÜST-nin hansısa hökmünə görə etmir. Hər hansı bir sənəddə iştirak tamamilə könüllü olacaq, lakin onlar sazişin təklif edə biləcəyi və etməli olduğu fəaliyyətlərə ehtiyac duyurlar. Əslində, pandemiya sazişi dünyanın başqa yerlərində aşkar edilmiş yeni və təhlükəli patogenlər haqqında məlumat əldə etmək, testlərin, müalicələrin, peyvəndlərin və digər həyat xilasedicilərin vaxtında və ədalətli şəkildə çatdırılması da daxil olmaqla, geniş və universal faydalar verəcəkdir”.

Bildirilir ki, ölkələr danışıqların son mərhələsinə qədəm qoyduqca, hökumətlər sazişlə bağlı yalan iddiaları təkzib etməyə çalışmalıdırlar. Eyni zamanda danışıq iştirakçıları sazişin pandemiya ilə bağlı risklərin qarşısının alınması və azaldılması ilə bağlı vədə əməl olunmasını təmin etməlidirlər. Bu, məsələn, başqa bir pandemiya təhlükəsi yarandıqda bütün müvafiq cavab tədbirlərinin – riskli patogenlərin müəyyən edilməsi barədə hesabat verməkdən tutmuş testlər və peyvəndlər kimi alətlərin ədalətli əsaslarla çatdırılmasına qədər – tez və effektiv şəkildə həyata keçirilməsini tələb edir. COVID–19 pandemiyası sübut etdi ki, ictimai rifahı inkişaf etdirməyə yönəlmiş dövlət və özəl sektorlar arasında əməkdaşlıq da vacibdir.

Məktubda ciddi narahatlıqla deyilir: “Yeni pandemiya təhlükəsi yaranacaq; buna hazır olmamaq üçün heç bir bəhanə yoxdur. Beləliklə, pandemiyanın qarşısının alınması, hazırlığı və cavab tədbirləri üçün çoxsahəli və çoxtərəfli yanaşmanın qurulması zəruridir. İctimai səhiyyə risklərinin dəyişkən xarakterini nəzərə alaraq, qlobal strategiya yeniliklərə açıqlıq və inklüzivlik ruhunu təcəssüm etdirməlidir. Biz bütün yerli liderləri may ayına qədər sazişi başa çatdırmaq üçün səylərini artırmağa çağırırıq”.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Sumqayıt teatrının növbəti uğuru




**Əgər dünya teatr festivallarında ən çox göstərilən, ən çox mükafat alan tamaşaların siyahısı tutulsaydı, yəqin ki, görkəmli Polşa ədibi Slavomir Mrojekin "Mühacirlər"i ilk sırada yer tutardı. Ötən bazar günü Sumqayıt Dövlət Dram Teatrında Mrojekin "Mühacirlər" pyesi əsasında gənc rejissor Ümid Abbasın hazırladığı "-1" tamaşasının premyerası da göstərdi ki, bu, çox parlaq bir səhnə əsəridir və aktuallığını heç zaman itirmir.**

Bu pyesin Azərbaycanda ilk səhnə həyatı bir zamanların Gənclər teatrı ilə başlayıb. Sonralar əsərin adı digər teatrlarımızın afişalarında da görünüb. Bəs bu əsərə marağın böyüklüyünə səbəb nədir? Onun uğur böcəyi kimi müvəffəqiyyətə, nailiyyətə inam yaratması, yoxsa Mrojek soyadının uğur qarantı olması? Məlum məsələdir ki, heç biri. Sadəcə, iki aktyorun ifası üçün nəzərdə tutulmuş bu pyesin dramaturji materialı zəngin olub, quruluşçu rejissor fantaziyasına səhnə çərçivəsində geniş imkanlar açır.

Bütün bu deyilənlərdən sonra inamla bildirək ki, Sumqayıt səhnəsində premyera uğurla keçdi. Tamaşanın musiqi tərtibatçısı İbrahim Əliyev, bədii tərtibatçısı isə Nizami Dadaşovdur. Əslində, iki teatr mövsümü öncə rejissor "Mühacirlər" tamaşası ilə Azərbaycan Teatr Xadimləri İttifaqının festivalında uğurla çıxış etmişdi. Sadəcə, o zaman tamaşanı seyr edə bilməmişdik. İndi isə inamla deyə bilərik ki, "-1" ilə ölkə xaricindəki festivallara da çıxmaq olar.

Əsər vətənindən didərgin düşüb xarici ölkədə ömrünə həyatın dibindən davam etməyə məcbur olan iki mühacirin taleyindən bəhs edir. Maraqlıdır ki, bu mühacirlərin konkret adları da yoxdur. Eləcə AA və XX. Bu yerdəcə oxucunun zəndini azdırmamaq üçün məlumat verək ki, tamaşada AA rolunda Kamran Muradlı, XX rolunda isə Elay Xasıyev çıxış edir.

Onlardan biri – AA savadlı, təmizkar, vətənində yaxşı günlər yaşamış, amma gizli saxladığı səbəblər üzündən didərgin düşmüş adam, ikinci – XX isə tamam fərqli şərtlərlə yad ellərə üz tutmuş, sadəlövh, hətta dar düşüncəli, hələ desən, elə həyatın dibində də özünü rahat hiss edən, yerli əhalinin imtina etdiyi ən ağır əməyə qatlaşan, yaşam rahatlığını vecinə almayan birisi… Yəni ilk baxışdan bu təəssürat yaranır.

Amma… Hadisələr inkişaf etdikcə görürsən ki, ali təhsilli, dünyagörüşlü, təmizkar kimi tanıdığımız AA lazım gəldikdə pislik etməyə də qabildir: məsələn, bir zirzəmini paylaşdığı otaq yoldaşını ondan donos yazmaqla hədələyir. Və bu məqamda tamaşaçı artıq 2-ci mühacirin – XX-in halından duyuq düşür ki, deyəsən, bu sadəliyin, ailə, ikimərtəbəli ev ilə bağlı arzuların arxasında gizlənən mühacir heç də adi qara fəhlə deyil, axı… Onun çox sevdiyi yumşaq oyuncağın içindən xeyli əskinasın tökülməsi artıq AA-nı deyil, tamaşaçını da şübhəyə salır: bu qədər pulu adama çirkli, ağır işdə çalışdığı üçün verməzlər axı?!

Hadisələr cərəyan etdikcə, şübhələr özünü doğruldur. Gerçəkdən də XX siyasi səbəbdən ölkəsindən qaçaq düşmüş AA-nı güdmək üçün onun yanındadır. AA bu məsələdən o zaman xəbər tutur ki, artıq onlar bir-birinə isinişiblər, çörək kəsiblər, bir-birləri üçün doğma adama çevriliblər. Sadəcə, AA üçün ələ keçməmək, sağ qalmaq, XX üçün də alınmış tapşırığı yerinə yetirmək məqamı yetişib; onlar ikilikdə bu məngənədən xilas ola bilməzlər. İkisindən biri zirzəmini tərk etməlidir. Bəs, kim? Necə? Bu sualların cavabı son səhnələr yetişincə tamaşaçıya məlum olur. Biz də tamaşanı seyr etmişik və cavabı bilirik. Amma oxucumuza bunu açıqlamaq istəmirik… Çünki "-1" baxılmalı tamaşadır.

Aktyorlardan güclü emosionallıq, yaxşı plastika, obrazın içində obraza girmək bacarığı tələb edən "-1"in hər iki qəhrəmanı – Kamran Muradlı və Elay Xasıyev rollarının öhdəsindən gələ bildilər. İstedad və zəhmətin bəhrəsi isə tamaşaçı alqışı oldu.

Ümid edirik ki, "-1" tamaşası beynəlxalq əhəmiyyətli teatr festivallarında da tamaşaçı alqışı qazanacaq.

**GÜLCAHAN**

**Azərbaycan Yazıçılar Birliyi və Mahmud Kaşqari adına Beynəlxalq Fondun "Ulu çinar" jurnalının son nömrəsi 60 yaşı tamam olan filosof alim, Milli Məclisin deputatı, "Şöhrət" ordenli Cavanşir Feyziyevə həsr edilib. Birliyin Natəvan klubunda bununla bağlı təqdimat mərasimi keçirilib.**

Görüşü AYB-nin sədr müavini Rəşad Məcid açaraq, yubilyarın türk birliyi ideyasının yorulmaz təbliğatçısı olduğunu bildirdi.

AYB sədri, Xalq yazıçısı Anar Cavanşir Feyziyevi yubileyi münasibətilə təbrik etdi, onun Azərbaycan–Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə yeni yaranan işçi qrupunun rəhbəri seçildiyini və bundan sonra türk birliyi naminə daha fəal çalışacağına inamını ifadə etdi. Anar, həmçinin Cavanşir Feyziyevi AYB-nin Fəxri diplomu ilə təltif etdi.

# Türk mədəni-ictimai birliyinin yorulmaz carçısı



Sonra məclisin aparıcısı, fondun yaradıcısı və "Ulu çinar" jurnalının baş redaktoru Elxan Zal Qaraxanlı qələm dostunun ictimai və elm xadimi kimi mədəniyyətimizin inkişafına göstərdiyi xidmətləri yada salaraq bildirdi ki, AYB rəhbərliyinin təklifi ilə Cavanşir Feyziyev Mahmud Kaşqari adına Beynəlxalq Fonda prezident təyin olunub və özünün indiyədək daşıdığı bu vəzifədə son missiya olaraq, Fondun "Mahmud Kaşqari" medalını yubilyara təqdim etdi.

Milli Məclisin deputatları Səməd Seyidov, Hikmət Babaoğlu və Etibar Əliyev, Şimali Kipr Türk Respublikasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Ufuk Turqaner, Asif Məhərrəmov adına Milli Qəhrəmanlar İnkişaf Fondunun sədri Ədalət Məhərrəmov öz çıxışlarında yubilyarın fəaliyyəti və yaradıcılığını yüksək dəyərləndirdilər və ona ən xoş arzularını çatdırdılar.

Daha sonra "Ulu çınar" jurnalının yubiley sayında Cavanşir Feyziyev haqqında yazıları dərc olunan tanınmış qələm sahibləri və alimlər – "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, AMEA Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya elmləri doktoru Mərziyyə Nəcəfova, kulturoloq alim Rahid Ulusel, tanınmış tənqidçi Əsəd Cahangir, jurnalist Aida Eyvazlı, şair Əkbər Qoşalı və başqaları ürək sözlərini söylədilər, onun ictimai xadim, filosof, yazıçı, tərcüməçi, yüksək amallı ideya daşıyıcısı kimi yaradıcı məziyyətlərindən danışdılar. Qeyd olundu ki, Cavanşir Feyziyevin beşcildlik "Türk dünyası" toplusu, bir neçə dildə çap edilmiş "Türk dövlətləri birliyi", "Sülh fəlsəfəsi", digər monoqrafiya və kitabları yetərincə sanballı nəşrlərdir. Natiqlər jurnalın təqdim olunan sayını Cavanşir Feyziyevin yubileyinə layiqli töhfə kimi yüksək dəyərləndirdilər.

C.Feyziyev mərasimin sonunda fəaliyyətinə və yaradıcılığına verilən qiymətə görə hər kəsə dərin minnətdarlığını bildirdi və bundan sonra da Vətən elm və mədəniyyətimizin tərəqqisi naminə əlindən gələni edəcəyini vurğuladı.

**Ə.DOSTƏLİ**
**XQ**

# "Qobustan"ın Türkiyə sayı

**Bahar sayı işıq üzü görən "Qobustan" sənət toplusunun Türk Ədəbiyyatı Vəqfi və onun mətbu orqanı olan "Türk ədəbiyyatı" dərgisi ilə qarşılıqlı razılaşmaya əsasən, Türkiyəyə həsr olunub.**




Dərgidə Xalq yazıçısı Anar, akademik İsa Həbibbəyli, professor Vilayət Quliyev, filologiya üzrə fəlsəfə doktoru Pərvanə Məmmədli, şair-publisist Fərid Hüseyn, Aysel Xanlarqızı, Pərvin, sənətşünaslar Natiq Əfşar, Dürdanə Qurbanova və başqa müəlliflərin məqalə-esselərində böyük türk mədəniyyətinin müxtəlif istiqamətləri təhlil olunub.

Bu sayda, həmçinin yazıçı-tərcüməçi İmdat Avşarın timsalında qardaş Türkiyənin ədiblərinin də yazılarına yer verilib. Türk və Azərbaycan mədəniyyətini vəhdətdə göstərən dərgi qardaşlığın sənətdəki əksini də önə çəkib.

Toplunun bu sayında sosial şəbəkələrin sürəti ilə ayaqlaşan redaksiya heyəti bir yeniliyə də imza atıb. Belə ki, dərginin mündəricatında QR kodunu oxutmaqla yeni başlayan "Baş redaktor təqdim edir" rubrikasını video-formatda izləmək imkanı yaranır.

Jurnalın baş redaktoru Pərvin Nurəliyeva "XQ"-yə açıqlamasında dərginin bu sayı ilə bağlı digər yenilikləri də bölüşüb: "Bu ildən qarşımıza yeni hədəflər qoymuşuq. Görünən odur ki, zaman internet və sosial şəbəkələr zamanıdır və bu vasitələrlə oxucuya çatmaq, ona xitab etmək daha doğrudur. Əlbəttə ki, bizdən ötrü bu, yeni bir yoldur, buna görə də onlayn təmasın incəlikləri öyrənməyə çalışırıq"

**XQ**

# Lənkəranda kitab sərgisi

**Ötən ay da "Cənub mirvarisi"ndə kitabsevərlər bir araya gəlmişdilər. İlk sərgi çərçivəsində təqdimatlar, şeir gecələri, tanınmış yazıçıların imza saatları, konsert proqramları, uşaqlar üçün nağıl saatları və ustad dərsləri keçirilmişdi.**



Bir ay keçməmiş Lənkəranda II Kitab Sərgisinin də təşkil edilməsi təqdirəlayiqdir. Heydər Əliyev Mərkəzində keçirilən sərgi Mədəniyyət, Gənclər və İdman nazirliklərinin, Azərbaycan Nəşriyyatları Assosiasiyasının birgə hazırladıqları layihə Elm və Təhsil Nazirliyi və Lənkəran Şəhər İcra Hakimiyyətinin təşkilati dəstəyi ilə həyata keçirilib.

Kitab bayramında ölkənin 30-a yaxın aparıcı nəşriyyatı, 70 nəfərə yaxın yazıçı və ziyalılar iştirak ediblər. Tədbir çərçivəsində maraqlı proqram və çoxçeşidli kitabların 20–90 faiz endirimli satışı iştirakçıların razılığı ilə qarşılanıb. Bu dəfə də tanınmış ədiblərin oxucularla görüşləri, konsert proqramları, şeir gecələri, uşaqlar üçün nağıl saatları hər kəsə unudulmaz təsir bağışlayıb.

*

***Lənkəran II Kitab Sərgisi çərçivəsində Azərbaycan Ədəbiyyat Fondu AYB-nin bölmə təşkilatının dəstəyi ilə "Region ədəbiyyatı. Problemlər və perspektivlər" mövzusunda dinləmə keçirib.***



Tədbiri açıq elan edən Fondun baş direktoru, Əməkdar jurnalist Varis Yolçuyev qurumun son bir ildə gördüyü işlərdən danışıb. Qeyd edib ki, fond öz fəaliyyətini bərpa etdiyi bu qısa müddətdə Milli Elmlər Akademiyası, Milli Məclisin Mədəniyyət Komitəsi, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Ümumdünya Yazıçılar Təşkilatı (WOW) və TÜRKSOY kimi mötəbər təsisatlarla birgə onlarca tədbirlər keçirib. Bu tədbirlərdə məqsəd ədəbiyyatımızın geniş təbliği, böyük yazarların yubileylərinin təşkili və yaradıcılığına dəstək göstərməkdir. Fond regionlarda keyfiyyətli ədəbiyyatın yaranması, xüsusən gənc istedadların üzə çıxması üçün də səylərini əsirgəmir.

AYB Lənkəran bölməsinin sədri Qafar Cəfərli çıxışında yerli ədəbi prosesin geniş icmalını verib. Digər natiqlər bölgədə yaradıcılıq prosesinin özəlliklərindən danışıb, çətinliklərin birgə səylərlə aradan qaldırılması zərurətini önə çəkiblər.

**XQ**

# Ürəklərə yol tapan sənətkar



**Tanınmış Azərbaycan aktyoru, Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü, Mingəçevir Dövlət Dram Teatrının quruluşçu rejissoru Valeh Kərimov yaratdığı parlaq obrazlar qalereyası və səhnə həyatı verdiyi dram əsərləri ilə milyonların sevimlisinə çevrilib. Görkəmli sənətkarın 80 illik yubileyi münasibətilə Mingəçevir Dövlət Dram Teatrında aprelin 1 – 6-da keçirilən "Valeh Kərimov həftəsi" bunun daha bir sübutu idi.**

Mingəçevir Dövlət Dram Teatrında bir həftə ərzində hər gün Valeh Kərimovun quruluş verdiyi tamaşalar nümayiş olunub. Təqdimatlarda qeyd edilib ki, "Bəxt üzüyü" tamaşası və filmində Moşu, "Müsibəti Fəxrəddin"də Fəxrəddin, "Müfəttiş"də Xlestakov, "Hamlet"də Hamlet, "Toy"da Surxay və sair rolları, həmçinin quruluş verdiyi "Tamahkar", "Gəl, qohum olaq", "Sehrli yaylıq", "Lotereya" kimi tamaşaları ilə sənətsevərlərin qəlblərinə yol tapmış Valeh Kərimov illərlə Sumqayıt, Gəncə və Mingəçevir teatrlarında məhsuldar fəaliyyət göstərib.

Mərasimdə Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, MDU-nin rektoru Şahin Bayramov, aktyorun sənət dostları ona xoş arzularını çatdırıb, xatirə hədiyyələri təqdim ediblər.

Yubiley həftəsinin təmtəraqlı yekun mərasimində Aran Regional Mədəniyyət İdarəsi, Azərbaycan Akademik Milli Dram Teatrı, Dövlət Akademik Musiqili Teatrı, Bakı Uşaq və Gənclər Teatrı, eləcə də Sumqayıt, Gəncə və Şəki teatrlarından da çoxsaylı nümayəndələr iştirak ediblər. İdeya rəhbəri və aparıcısı Əməkdar artist İntiqam Soltan, ssenari müəllifi yazıçı Elçin Məhərrəmli, quruluşçu rejissoru Vüsal Mehrəliyev olan yaradıcılıq gecəsi hər kəsə unudulmaz təsir bağışlayıb.

Sonda Valeh Kərimov göstərilən diqqətə görə minnətdarlıq edib və bundan sonra da mədəniyyətimizin əsas qolu olan milli teatrımızın inkişafı üçün səylə çalışacağını bildirib.

***İlqar HƏSƏNOV***
***"XQ"-nin bölgə müxbiri***

Beynəlxalq həyat

# Ekvadorun basqısı “diplomatik burulğan” yaradıb



**Meksikanın Ekvadordakı səfirliyinə basqın edilməsi dünya miqyasında qalmaqala səbəb olub. Artıq bir çox ölkə rəsmi Kitonun bu addımını Vyana Konvensiyasının kobud pozulması kimi qiymətləndirir. İddialar şəxsən Ekvadorun 36 yaşlı prezidenti Daniel Noboaya qarşı irəli sürülür. Siyasi müşahidəçilərin sözlərinə görə, Kito üçün yaranmış bu xoşagəlməz vəziyyət tək üzr istəməklə düzəlməyəcək.**

Xatırladaq ki, aprelin 5-də Ekvador polisi sabiq vitse-prezident Xorxe Qlası həbs etmək üçün Meksikanın Kitodakı səfirliyinin binasına basqın həyata keçirib. Meksikalı diplomatlar basqın zamanı səfirlik əməkdaşlarının yaralandığını bildiriblər. Ekvator hüquq-mühafizə orqanlarının əməkdaşlarının hərəkətlərini onunla izah edib ki, X.Qlas istənilən vaxt ölkəni tərk edə bilərdi. O, 2023-cü ilin dekabrında diplomatik missiyaya daxil olan kimi dərhal siyasi sığınacaq üçün müraciət edib. Meksika sabiq vitse-prezidentin sığınacaq təklifini aprelin 5-də təmin edib. Bundan sonra Kito qəti addım atmaq qəraına gəlib.

Ancaq Ekvador hakimiyyətinin bu qərarı prezident Daniel Noboa üçün böyük və heç də xoş olmayan rezonans doğurub. Latın Amerikasının ən böyük ölkəsi Braziliya Ekvador hakimiyyətinin hərəkətlərini pisləyib. ABŞ daha təmkinli olsa da, eyni tonda bəyanat verib. Nikaraqua isə daha uzağa gedib. O, Meksika kimi Ekvadorla diplomatik əlaqələri dayandırıb. Doğrudur, Meksika və Nikaraquanın Ekvadorla münasibətləri bu hadisəyədək yaxşı deyildi. Hələ 2020-ci ildə Nikaraqua hakimiyyəti Ekvadorun ovaxtkı hakimiyyət orqanlarının hərəkətlərini qeyri-dostluq hesab edərək səfirini geri çağırmışdı. Meksika səfiri isə nisbətən bu yaxınlarda Ekvadorun təşəbbüsü ilə persona non qrata elan edilib. Buna səbəb Meksika prezidenti Andres Manuel Lopes Obradorun Ekvadorun rəhbərliyi ilə bağlı açıqlamaları olub.

Belçikada yaşayan Ekvadorun sabiq prezidenti Rafael Korrea “France24”ə müsahibəsində bildirib ki, rəsmi olaraq Meksika, ümumiyyətlə, Kitoya müharibə elan etmək hüququna malikdir. Axı diplomatik missiyanın toxunulmaz olduğu Vyana Konvensiyasının kobud şəkildə pozulması olub. O, jurnalistləri əmin edib ki, X.Qlas saxta ittihamların qurbanına çevrilmiş vicdanlı siyasətçidir. Əslində, sabiq prezidentin bu qiymətləndirməsi təəccüblü deyil. Çünki X.Qlas R.Korreanın dövründə nazir, sonra isə vitse-prezident olub. R.Korrea 2007-2017-ci illərdə ölkəyə rəhbərlik edib. Hakimiyyət dəyişikliyindən dərhal sonra X.Qlas rüşvət almaqda təqsirli bilinib. O, 2017-2022-ci illərdə həbsdə olub. Sərbəst buraxıldıqdan sonra X.Qlassa qarşı yeni ittihamlar irəli sürülüb və bu, onu meksikalılara müraciət etməyə məcbur edib. Yeri gəlmişkən, Meksika R.Korrea dövrünün digər rəsmisi Rikardo Patinyoya da sığınacaq verib. O, 2018-ci ildə zorakı çevrilişə çağırışda ittiham olunduqdan sonra ölkəsindən Meksikaya qaçıb.

Yeri gəlmişkən, məhz R.Korreanın prezidentliyi dövründə WikiLeaks-in yaradıcısı Culian Assanj uzun illər Ekvadorun Londondakı səfirliyinə sığınıb. O, yalnız yeni prezident Lenin Morenonun dövründə Britaniya ədliyyəsinə təhvil verilib. İndi isə Ekvador hakimiyyəti Assanj işi ilə bağlı illərlə ciddi şəkildə riayət etdiyi Vyana Konvensiyasını pozub. Analitiklərin sözlərinə görə, beynəlxalq hüququn bu cür kobud şəkildə pozulması, çox güman ki, R.Noboanın təcrübəsizliyi ilə bağlıdır. Siyasi müşahidəçilər iddia edirlər ki, bu xoş olmayan vəziyyət üzr istəməklə düzəlməyəcək və Meksika, eyni zamanda, digər ölkələrlə münasibətlər uzun müddət gərgin olaraq qalacaq.

Ümumiyyətlə, Meksika tarixən siyasi təqiblərə məruz qalanlara sığınacaq verib. Məsələn, Boliviyanın sabiq prezidenti Evo Morales Mexikoda sığınacaq tapmışdı. Meksika bir vaxtlar Lev Trotskiyə sığınacaq vermişdi. Ölkənin o vaxtkı hakimiyyəti SSRİ-nin təzyiqinə tab gətirmişdi. Meksika L.Trotskini təslim etməkdənsə, Moskva ilə münasibətlər qurmaq üçün yaranan perspektivləri gözardı etməyə üstünlük vermişdi.

Siyasi analitiklər bildirirlər ki, X.Qlas, sadəcə, təqaüdə çıxmış məmur deyil. O, kifayət qədər populyar siyasətçidir. Məsələn, X.Qlas ötənilki seçkilərdə prezidentliyə namizəd ola bilərdi. Lakin R.Korreanın “Vətəndaş inqilabı” partiyası ona deyil, Luisa Qonzalesə güvənməyi seçdi. O, ikinci turda favorit olsa da, sonradan nüfuzlu atanın oğlu kimi tanınan Daniel Noboaya uduzdu. D.Noboanın atası Alvaro Noboa ölkənin ən zəngin insanı sayılır. Qələbədən əvvəl Ekvadorun ən varlı adamının oğlu geniş ictimaiyyətə praktiki olaraq tanınmırdı. Onun dövlət işində təcrübəsi yoxdur, iqtisadi bilikləri isə ailəsinin biznesi ilə məhdudlaşır. Noboa heç bir partiyanın maraqlarını təmsil etmir və aydın siyasi mövqeyə də malik deyil. Eyni zamanda, onun yoxsullar üçün vergiləri azaltmaq, gənclərin və pensiyaçıların sosial şəraitini yaxşılaşdırmaq, iqtisadiyyatı yaxşılaşdırmaq üçün xarici investisiyaları təşviq etmək niyyəti ilə bağlı açıqlamaları onu şərti olaraq sağmərkəzçi kimi qiymətləndirməyə imkan verir.

Səfirliyə basqın hadisəsilə bağlı politoloqlar xatırladırlar ki, hətta hərbi diktaturalar səfirliklərə toxunmamağa çalışırdılar. Doğrudur, Latın Amerikası ölkələrində belə bir presedent olub. Məsələn, Perunun Havanadakı səfirliyi qaçaq kubalılara sığınacaq verərkən basqına məruz qalmışdı. Maraqlıdır ki, indi Kuba D.Noboanı Ekvador səfirliyinə basqına görə tənqid edir.

**S.ELAY**
**XQ**

İDMAN



## Karateçilərimiz 4 medal qazanıblar

**Azərbaycan karateçiləri Rusiyanın Novosibirsk vilayətində keçirilən beynəlxalq turnirdə 4 medal qazanıblar.**

Yığmamız kumite yarışlarında 3, katada usə 1 medal əldə edib. Ən yüksək nəticəyə 60 kiloqram çəki dərəcəsində yarışan Əminağa Quliyev sahib olub. O, qızıl medal qazanıb. Onun komanda yoldaşları Hüseyn Məmmədli (67 kq), Murad Hacızadə (84 kq) bürünc medala layiq görülüblər. Kata üzrə isə Ramilə Heydərova gümüş medal alıb.

## Bədii gimnastlarımızdan uğurlu çıxış

**Estoniyada keçirilən bədii gimnastika üzrə birinci “Tallinn Open” adlı beynəlxalq turnirdə böyüklər üzrə qrup hərəkətlərində komandamızın üzvləri uğurla çıxış ediblər.**




Belə ki, Güllü Ağalarzadə, Kamilla Əliyeva, Yelizaveta Luzan, Darya Sorokina, Ləman Əlimuradova və Zeynəb Hümmətova 5 halqa, 3 lent və 2 topla çıxışlarında iki qızıl medal qazanıblar.

Fərdi çıxışda milli komandamızın üzvləri İlahə Bahadirova qızıl (top), Gövhər İbrahimova qızıl (gürzlər) və gümüş (halqa), Şəms Ağahüseynova (lent) isə gümüş medala layiq görülüblər.

## Cüdoçumuz mükafatçılar sırasında

**Xorvatiyanın Dubrovnik şəhərində keçirilən Avropa Kuboku yarışında cüdoçumuz mükafatçılar sırasında yer alıb.**

Böyüklər arasında keçirilən yarışda Aytac Qardaşxanlı (63 kq) bürünc medal uğrunda görüşdə sloveniyalı Leila Mazouzini məğlub edib.

Qeyd edək ki, yarışda ölkəmizi 6 qadın güləşçi təmsil edib.

***Leyla SABİRQIZI***
***XQ***




## “Maştağa Aqrotexservis” ASC səhmdarlarının nəzərinə!

25 may 2024-cü il saat 14.00-da “Maştağa Aqrotexservis” ASC-nin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. “Maştağa Aqrotexservis” ASC-nin 2023-cü ilə aid illik maliyyə hesabatlarının müzakirəsi və təsdiqi.
2. “Maştağa Aqrotexservis” ASC-nin əmlak kompleksinin inventarlaşdırma nəticələrinin müzakirəsi.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu-012 455-35-55, 050-324-30-07.

Ünvan- Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Nizami küçəsi 4.



## Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası 2024-cü il üçün fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul elan edir

**Doktorantura**

| Elm sahələri və ixtisaslar | Şifrələr | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | |
|---|---|---|---|---|
| | | | əyani | qiyabi |
| **TEXNİKA ELMLƏRİ:** | | | | |
| Kompüter elmləri | 1203.01 | 1 | | 1 |
| **İQTİSAD ELMLƏRİ:** | | | | |
| Dünya iqtisadiyyatı | 5310.01 | 3 | 2 | 1 |
| **SİYASİ ELMLƏR:** | | | | |
| Beynəlxalq münasibətlər | 5901.01 | 3 | 2 | 1 |
| Davamlı inkişafın idarə edilməsi | 5902.17 | 2 | 1 | 1 |
| Siyasi institutlar və sistemlər | 5904.01 | 2 | 1 | 1 |
| Siyasi nəzəriyyə | 5908.01 | 1 | 1 | - |
| Dövlət idarəçiliyi | 5909.01 | 4 | 2 | 2 |

**Dissertantura**

| Elm sahələri və ixtisaslar | Şifrələr | Cəmi | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla |
|---|---|---|---|
| **SİYASİ ELMLƏR:** | | | |
| Beynəlxalq münasibətlər | 5901.01 | 1 | 1 |
| Siyasi institutlar və sistemlər | 5904.01 | 1 | 1 |
| Dövlət idarəçiliyi | 5909.01 | 1 | 1 |

Doktoranturaya sənəd qəbulu 2024-cü il aprelin 16-dan mayın 15-dək “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

Xarici dil imtahanını (imtahanın 2024-cü il iyunun 9-dək keçirilməsi nəzərdə tutulmuşdur) müvəffəqiyyətlə vermiş şəxslər üçün Fəlsəfə fənni üzrə və ixtisas imtahanları (dissertant təhkim olunmaq istəyən şəxslər üçün müsahibə) sentyabr ayında keçiriləcəkdir.

Telefon- (012) 492-65-52.

ÜNVAN**- Bakı, Lermontov küçəsi 74, Elmi təşkilat** və beynəlxalq əlaqələr şöbəsi**, 34-cü otaq.**



## Azərbaycan Milli Konservatoriyası Fəlsəfə doktoru proqramı üzrə 2024-cü il üçün doktoranturaya qəbul elan edir

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 mart 2024-cü il tarixli 163 s nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2024-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları”ndan çıxarış**

| Elm sahələri və ixtisaslar | İxtisasın şifri | Fəlsəfə doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura |
| Musiqi sənəti | 6213.01 | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla |
| | | | O cümlədən | | |
| | | | əyani | qiyabi | |
| | | 2 | 1 | 1 | 1 |
| | | | | | |
| **Cəmi:** | | **2** | **1** | **1** | **1** |

Qeyd- doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya sistemi (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Portal.edu.az vasitəsilə müraciətlərin göndərilməsi cari il aprelin 16-dan başlayacaq və mayın 15-i sənəd qəbulu üçün son tarixdir.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 73 (30477) 9 aprel 2024-cü il, çərşənbə axşamı

# İtmiş gəlincik və Kafkanın hekayəsi

**Heç vaxt evlənməyən və övlad sahibi olmayan yazıçı Frans Kafka Berlində parkda gəzərkən ağlayan bir qızla rastlaşır. Ondan ağlamağının səbəbini soruşur. Qızcığaz cavabında kuklasını itirdiyini deyir. Kafka onunla birgə kuklanı axtarmağa başlayır.**



Lakin axtarışlar nəticə vermir. Kafka qıza "sabah yenə bura gəl, kuklanı birlikdə axtaraq" – deyir. Ertəsi gün Kafka hələ də gəlinciyini axtaran qıza "Xahiş edirəm, ağlama. Mən dünyanı gəzmək üçün səfərə çıxdım" sözləri yazılmış bir məktub verir. Ona bu yazıları kuklanın yazdığını deyir.

Bununla da uzun müddət davam edən hekayə başlayır. Qız kuklanın sərgüzəştləri ilə bağlı məktublar almağa başlayır. Bir gün Kafka yenə Berlinə gəlir. Qıza bir kukla alıb gətirir. "Bu ki heç mənim kuklama oxşamır", – balaca qızcığaz deyir. Kafka bu zaman qıza kuklanın yazdığı başqa bir məktubu verir. Məktubda yazılmışdı: "Ola bilsin ki, əvvəlki kimi deyiləm. Səyahətlərim məni dəyişdi". Qızcığaz kuklanı bağrına basır, sevinə-sevinə evə gedir. Bu görüşdən bir il sonra Kafka vəfat edir. İllər keçir. Artıq yetkin yaşına çatmış qız kuklanın içindən bir məktub tapır. Kafkanın imzası olan məktubu açıb oxuyur: "Çox güman ki, çox şeyi itirəcəksən. Amma sevdiyin şeylər əvvəl-axır cildini dəyişmiş olsa da, geri dönəcək".

***S.FİDAN***
***XQ***

# Oyun içində oyun

**Xalq yazıçısı Elçinin dram əsərləri rejissor üçün sonsuz imkanlar açan, onun təxəyyül və fantaziyasını körükləyən, rejissoru axtarışlara sövq edən məqamlarla zəngindir. Təfəkkürümüzü qəliblərdən, vərdiş qandallarından xilas etməyə çalışan bu pyeslərin hər birinin səhnə taleyi uğurlu olub, hər rejissor bu meydanda öz gücünü sınayıb, bu energetik dalğa aktyorları da öz cazibə qüvvəsində saxlamağı bacarıb.**

Elçinin dramaturgiyası janr baxımından çoxşaxəli və zəngindir. O, dramaturgiyamızda yeni janrlar – pyes-pritça, dramatik povestlə yanaşı, ənənəvi janr formalı dram, komediya (tragikomediya) və faciə janrlarında dəyərli əsərləri ilə səhnəmizi zənginləşdirmişdir. Elçinin pyesləri Azərbaycan dramaturgiyasında yeni mərhələdir.

Bu baxımdan, yazıçının dünyanın bir çox ölkələrində səhnəyə qoyulmuş "Şekspir" dramında bir ruhi xəstəxananın divarları əhatəsindəki xəstələrin daxili aləmi müxtəlif hadisələr vasitəsilə açılır. Obrazlar öz təxəyyüllərindəki dünyada yaşayırlar və bu dünyanın içində də bir Şekspir dünyası var. Yer planetini müharibələrdən qorumaq üçün Şekspirin əsərlərinə ehtiyac var. Bəşəri fəlakətlərdən xilas yollarını xəstələrə məhz sənət əsərləri göstərir. Hamının dəli kimi baxdığı, başqa bir planetdən gəldiyini iddia edən bu insanlar bəşəriyyəti xilas etməyin yollarını nişan verirlər. Əsər həm də bu mesajı verir – insanlığın nicatı göydə deyil, yerdədir, insanı elə insanın özü xilas edə bilər. Tamaşaçı bu nəticəyə gəlir. Dramaturq tarixi şəxsiyyətlərin (Stalinin, Sara Bernarın) iç dünyasını, mənəvi təbəddülatlarını dəlilərin diliylə açır və səhnəyə gətirir.

Bir çox səhnələri dolaşmış "Şekspir" əsəri, nəhayət, Bakı Bələdiyyə Teatrında Xalq artisti Mərahim Fərzəlibəyovun yeni quruluşunda səhnələşdirilib. Rejissor əsərə tamamilə fərqli prizmadan yanaşıb. "Şekspir" dünyanın bir çox ölkələrində səhnəyə qoyulub, müxtəlif rejissorlar bu əsərə fərqli yöndən yanaşıblar, müəllifin fikrinə, məqsədinə maksimum dərəcədə yaxınlaşmağa çalışıblar. Fərzəlibəyovun quruluş verdiyi tamaşa isə insanla dünya arasındakı oyun üzərində qurulub. Beləliklə, teatr səmasındakı göyqurşağına yeni rənglər, çalarlar əlavə olunur. Ruhi-əsəb klinikasındakı xəstələr özlərinin qurduqları xəyali dünyada yaşayırlar və xoşbəxtdirlər. Səhnədə daim yellənməkdə olan saat kəfkiri dünyanın modelidir. Yox, belə getsə, simvollar meşəsində aza bilərik. Yaxşısı budur, rəmz və işarələrin dilini rejissorun vasitəsilə açaq.

Tamaşanın premyerasından sonra Mərahim müəllimlə görüşdük və ayaqüstü söhbət elədik. Əlbəttə, onunla mütəmadi görüşlərimiz zamanı "Şekspir"i hazırladığını mənə demişdi və tamaşa ilə bağlı bəzi fikirlərini də bölüşmüşdü. Fərzəlibəyov sənətə öz estetik platformasını gətirmiş, orijinal teatr anlayışı yaradan rejissorlardandır. Onun üçün teatr həyatın yenidən yaradılması, yaxud bərpa olunması deməkdir. "Şekspir" tamaşasını hazırlayarkən əsərin fəlsəfi ideyası barədə birlikdə xeyli söhbətlərimiz olmuşdu və mən onun düşüncələrində intensiv axtarışların nüanslarını görürdüm. Tamaşaya baxdıqdan sonra isə məni düşündürən sualları ona vermək fürsətini qaçırmadım. Səhnədə, tamaşanın vizual səhnə tərtibatında on oyun zəri görünür. Bu zərlərin hansı anlam daşıdığını soruşdum. Mərahim müəllim belə bir izah verdi: "Əsərdə beş ağıllı (həkim personalı) və beş dəli (pasientlər) var, nəticə budur ki, dünya insanlarla, insanlar isə dünya ilə oyun oynayır. Tamaşaçı səhnədə böyük oyuna şahidlik edir, dünya və insanlar arasında gedən bu oyunda udan, uduzan tərəf varmı? Elçin müəllim bu əsəri bütün zamanlar üçün yazıb".



## Elçinin "Şekspir" tamaşası üzərində qeydlər

Tamaşa xoşbəxtliyə can atan tənha insanların ağlagəlməz üsullarla həyatdan zövq almaq üçün göstərdikləri səylərdən bəhs edir. Səhnənin ortasında saat kəfkiri aramsız olaraq yellənir, bu saat dünyanı simvolizə edir və tamaşanın ideya-bədii həlli üçün rejissor tərəfindən tapılmış uğurlu detaldır. Baş həkim (İlqar Musayev) dəlilərə həsəd aparır, onlar öz xəyali dünyalarında xoşbəxtdirlər və arzularının gerçəkləşəcəyinə inanırlar. Baş həkim pasiyentlərinin ağıllı fikirlərinə o qədər inanır ki, o da onlar kimi xoşbəxt olmaq istəyir. Lakin bu mümkün deyil. O, ürəyindəki qürur nöqtəsini tapa bilmir, yeknəsək həyatına rəng qatmağı bacarmır. İstedadlı aktyor İlqar Musayev xarakterik rollar ifaçısı kimi tanınır və bu tamaşada da potensialını ortaya qoyur, baş həkimin daxili sarsıntılarını qabarıq ştrixlərlə canlandırır.

Əməkdar artist Hüsniyyə Mürvətovanın canlandırdığı Sara Bernar obrazı kamerton kimi situasiyanı sanki tənzimləyir, tamaşaya lirik-sentimental çalar qatır. Hüsniyyə Mürvətova özünəməxsus ecazkar plastikası olan aktrisadır və fərqli qadın xarakterləri yaratmaqla daxili imkanlarının genişliyini hər dəfə sübut edir, heyrətləndirməyi bacarır.

Stalin obrazının ifaçısı Rəşad Kəsəmənli öz rolunun öhdəsindən bacarıqla gəlir. Milyonlarla insanın qanını tökmüş diktator tamaşaçılar qarşısında diz çöküb törətdiyi cinayətlərə görə üzr istəyir, bağışlanmağı üçün yalvarır. Dünyanı barmağına dolayan Stalinin qoltuğundakı qlobus acı gülüş doğurur.

Zülfiyyə Qurbanovanın yaratdığı ər-arvad obrazı şəxsiyyətin ikiləşməsinin bariz nümunəsidir. Aktrisa səhnədə vizual metamorfozanın öhdəsindən sənətkarcasına gəlir, isterik məqamları inandırıcı boyalarla təqdim edir və haqlı olaraq tamaşaçı rəğbəti qazanır.

Tural Əhmədin Drob-13-ü son dərəcə dinamikdir, o, başqa planetdən gəldiyini zənn edir, polislər onu tutub ruhi xəstəxanaya gətiriblər, şəxsiyyət vəsiqəsi isə yoxdur. Bu tip xəstələrin sənədinin olmaması onların psixoloji atributudur. Drob-13-lə Sara Bernarın dialoqları tamaşaya xüsusi temperament qatır. Onları güdən həkim münasibətlərinə mane ola bilmir.

Veneralı demişkən, "bu planetin işlərindən baş açmaq çətin məsələdir". Toğrul Rza səhnədəki passiv duruşu ilə belə nəzərləri öz üzərinə fokuslamağı bacarır. Veneralı son dərəcə əhəmiyyətli obrazdır, o, daim özgə planetdən kiminsə gələcəyini gözləyir, binokl daim əlindədir. O, xilas yolunu naməlum məchulluqda – göylərdə axtarır.

Sonda personajların əlində Şekspirin kitablarını görürük. İllüziyalar ifşa olunur; başqa planetdən kimsə gəlib dünyamızı xilas etməyəcək. Yaşadığımız dünyadan gözəli yoxdur və insanlar Yer planetini qorumalıdır. Bunun üçün dahilərin zəkasına arxalanmalıyıq, bəşəriyyəti onların yazdığı kitablar xilas edəcək. Rejissorun əsas ideyası bundan ibarətdir.

"Şekspir" tamaşası ideya və məzmununa, ifaçıların plastikasına, rejissorun səhnə fəndlərinə və estetik parametləri düzgün müəyyənləşdirməsinə, orijinal tapıntılarına görə Bakı Bələdiyyə Teatrının ən uğurlu işlərindəndir.

***Kənan HACI***

**Sağlamlıq**

# Qırmızı kələmin səfası və şəfası

**Qırmızı kələm tərkibindəki qida maddələri və komponentləri sayəsində xərçəngdən şəkər xəstəliyinə qədər bir çox xəstəliklərin qarşısının alınmasında təsirli rol oynayır.**

Mütəxəssislər bildirirlər ki, qırmızı kələm cəmiyyətdə çox rast gəlinən və əlamətlərindən biri unutqanlıq olan B12 vitamini çatışmazlığını aradan qaldırır.

Unutqanlığın təbii çarəsi hesab olunan qırmızı kələm yaddaşı təzələyir. Antioksidantlarla zəngin olduğu üçün bədəndəki sərbəst radikallarla mübarizə apararaq DNT zədələnməsinin qarşısını alır.

Qırmızı kələm xərçəngə qarşı qoruyucu təsir göstərir. Belə ki, tərkibindəki indol-3 karbinol və kükürd sayəsində xərçəng hüceyrələrinin əmələ gəlməsini əngəlləyir. Pəhriz prosesini asanlaşdıran ən təsirli qidalardan biri olan qırmızı kələm toxluq hissini artırır və çəkiyə nəzarət etməyə kömək edir. Liflə zəngin olduğundan qan şəkərini balanslaşdırır və diabet riskini azaldır.

Qırmızı kələm tərkibindəki kalsium, maqnezium və K vitamini sayəsində sümük sağlamlığını qoruyur və yaxşılaşdırır. Bol C vitamini ehtiva edərək immuniteti gücləndirir. Orqanizmdə iltihabın qarşısını alaraq, daxili orqanları qoruyur.



Kaliumla zəngin olan bu tərəvəz sayəsində ürək-damar xəstəlikləri riski azalır, orqanizmin gündəlik B12 vitamini ehtiyacı ödənir.

Araşdırmalar göstərir ki, qırmızı kələmin bu faydalarından yararlanmaq üçün ondan gündə cəmi 50 qram, təxminən 3 xörək qaşığı yemək kifayətdir.

***Z.HÜSEYNLİ***
***XQ***

# Bayronun qızı – dünyanın ilk proqramçısı

**XIX əsrdə kompüterlərin və proqramlaşdırmanın olmadığı bir vaxtda ilk proqramı qadın riyaziyyatçı Ada Lavleys yaradıb.**

Əsl adı Augusta Ada Bayron olan, dünyada isə Ada Lavleys kimi tanınan bu tarixi şəxsiyyət 1815-ci ildə Londonda məşhur ingilis şairi Corc Qordon Bayronun ailəsində doğulub. 1 aylıq olanda atası ailəni, eləcə də İngiltərəni tərk edib. Kiçik yaşlarında o, anası tərəfindən riyaziyyat və məntiq fənlərinə yönləndirilib. Lavleys uşaq yaşlarından görmə qabiliyyətini zəiflədən şiddətli baş ağrılarından əziyyət çəkib. 1829-cu ilin iyununda qızılca xəstəliyindən sonra iflic olub. Yalnız 1831-ci ildə qoltuqağacı ilə yeriməyə başlayan qızcığazdan həkimlər belə ümidlərini kəsdikləri halda, o özü həvəsdən düşməmiş, riyaziyyata marağı günü-gündən artmışdır.

Ada XIX əsrin ən məşhur elm alimlərindən olar Villiam Frend, Villiam Kinq, Mary Somerville, Augustus De Morqan kimi müəllimlərdən dərs alıb.

1835-ci ildə Baron Villiamla ailə quran və 3 uşaq anası olan Ada elm sahəsində də uğurlarını davam etdirib.

Həyatında ən uğurlu məqam isə 18 yaşda ikən Cambridge universitetinin alimi Charles Babbage ilə tanış olmasıdır. O, xüsusilə bu alimin Analitik



Mühərrik üzərindəki işi ilə maraqlanıb. Charles Babbage Adanın fransızcadan tərcümə etdiyi elmi məqalələri çox bəyənmiş, ondan öz məqalələrini də buraya əlavə etməsini istəmişdi. Amma Adanın özünün yazdığı məqalələr tərcümə etdiklərindən 3 dəfə çox olub. Riyazi hesablamalardan bəhs edən bu məqalələr indiki proqramlaşdırmanın təməli sayılır.

Ada Lavleys 1852-ci ildə xərçəng xəstəliyindən dünyasını dəyişib.

**L.QURBANOVA**
**XQ**

**Hava**

# Yağmursuz, dumanlı və çiskinli...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 9-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Cənub küləyi əsəcək.**

Gecə 6-10°, gündüz 13-18° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz olacaq. Azərbaycanın rayonlarında, hava əsasən, yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə arabir duman, çiskin olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 16-21°, dağlarda gecə 0-5°, gündüz 5-10° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin kollektivi Nazim Şıxıyevə atası

**MÖVSÜM ŞIXIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3874
SİFARİŞ 715
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00